**AMEA FƏLSƏFƏ VƏ SİYASİ-HÜQUQU
TƏDQİQATLAR İNSTİTUTU**

**K.C.AĞAYEVA**

# ETİKA VƏ GENDER: SOSİAL-ƏXLAQİ DAVRANIŞIN TƏHLİLİ

**Azərbaycan MEA-nın Fəlsəfə və Siyasi-Hüququ Tədqiqatlar İnstitutunun Elmi Şurasının 01.05.2007-ci il tarixli qərarı ilə çapa məsləhət görülmüşdür**

**Bakı – 2007**

**Elmi redaktor:** **İLHAM MƏMMƏDZADƏ**
*fəlsəfə elmləri doktoru*

**Rəyçilər:** **LALƏ MÖVSÜMOVA**
*fəlsəfə elmləri doktoru*

**VAHİD ÖMƏROV**
*fəlsəfə elmləri namizədi*

**K.Ağayeva, Etika və gender: sosial-əxlaqi davranışın təhlili. Bakı, "Sabah", 2007, 196 s.**

*Kitabda sosial-əxlaqi davranışın etika və gender baxımından təhlili verilmiş, sosial-əxlaqi davranışın xüsusiyyətləri, etika, gender, qloballaşma, ədalət və bərabərlik problemlərinin qarşılıqlı münasibətləri, ailədə mənəvi və cinsi tərbiyə, zorakılıq problemi araşdırılmışdır. Kitab genderşünaslar, əxlaq nəzəriyyəçiləri, filosoflar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.*

**Uçot nəşr vərəqi - 12,25. Tiraj 500**
**İSBN 978-9952-8093-7-4**

**© Kifayət Ağayeva, 2007**

# MÜNDƏRİCAT


| | | |
|---|---|---|
| **I FƏSİL** | **SOSİAL-ƏXLAQİ DAVRANIŞIN ETİK-GENDER TƏDQİQATI BAXIMINDAN ARAŞDIRILMASI....................................................** | 4 |
| | 1.1. Davranışın təhlilində etik və gender tədqiqatlarının qarşılıqlı münasibətləri problemi....... | 4 |
| | 1.2. Sosial və mənəvi davranışların xüsusiyyətləri......................................................... | 25 |
| | 1.3. Etika və gender nöqteyi-nəzərindən davranışın normaları....................................................................... | 47 |
| **II FƏSİL** | **SOSİAL-ƏXLAQİ DAVRANIŞIN ÖYRƏNİLMƏSİNİN TƏTBİQİ ASPEKTLƏRİ.........................................................** | 70 |
| | 2.1.Etika, gender və qloballaşma................................ | 70 |
| | 2.2.Gender və ədalət. Bərabərlik problemləri............ | 91 |
| **III FƏSİL** | **AİLƏDƏ MƏNƏVİ TƏRBİYƏ VƏ GENDER PROBLEMİ............................................................** | 120 |
| | 3.1.Azərbaycan ailəsində mənəvi və cinsi tərbiyə..... | 120 |
| | 3.2. Ailədə zorakılıq problemi.................................... | 147 |
| | **İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYATIN SİYAHISI.................................................................** | 169 |

# I FƏSİL

## SOSİAL-ƏXLAQİ DAVRANIŞIN ETİK-GENDER TƏDQİQATI BAXIMINDAN ARAŞDIRILMASI

### 1.1. Davranışın təhlilində etik və gender tədqiqatlarının qarşılıqlı münasibətləri problemi

İnsan sosial varlıq kimi daim cəmiyyət həyatının və elmin diqqət mərkəzində olmuşdur. Bu mənada "qadın və kişi problemi" müxtəlif zaman müstəvisində ən müxtəlif parametrlərlə tədqiqata cəlb edilmiş, hətta bir çox hallarda geniş müzakirə və mübahisə predmetinə çevrilmişdir. Xatırlatmaq lazımdır ki, haqqında söhbət açılan problem bir sıra elm sahələrinin xüsusi tədqiqat obyekti kimi də araşdırılmışdır. Heç şübhəsiz ki, bu cəhətdən etik, fəlsəfi-etik antropologiya və gender tədqiqatlarının qarşılıqlı münasibətləri özlüyündə maraq doğuran bir fenomen kimi bu gün xüsusi aktuallıq kəsb edir. Yeri gəlmişkən qeyd edək ki, həmin münasibətlər elmi-fəlsəfi ədəbiyyatda indiyə qədər etik davranış kateqoriyası ilə kontekstdə araşdırılmamışdır.

Əvvəla, onu qeyd etməliyik ki, davranış-pedaqogika, psixologiya, hüquq, etika və s. elmlərin mütamadi olaraq təhlilə cəlb etdiyi bir anlayışdır. Fəlsəfi-etik ədəbiyyatlarda davranışa insanın dəyişən və ya sabit mühitdə davamlı səciyyə daşıyan, əxlaqi əhəmiyyət kəsb edən hərəkətlərinin məcmusu kimi tərif verilir. İkincisi, onu vurğulamaq

lazımdır ki, davranış etik bir kateqoriya kimi əxlaqi seçmə problemi və prinsipləri ilə sıx əlaqədə təhlil edilməlidir. Uçuncusu isə, davranışın mahiyyəti əməl, yəni motiv və iş anlayışları ilə əlaqədə təhlil edilir.

Aydın məsələdir ki, davranış etik bir kateqoriya kimi fərdin və ya sosial qrupun ən müxtəlif hərəkət və fəaliyyətini özündə ehtiva edir. Əlbəttə fəaliyyət və davranış heç də eyni mahiyyət daşımır. Əgər fəaliyyətə əsasən məqsədəyönlülük və əxlaqi-mənəvi motivlərin üstünlük təşkil etdiyi hərəkətlər şamil edilirsə, davranışa insanın bütün hərəkətləri daxil edilir. Hər bir şəxsin, kollektivin, eləcə də sosial qrupun əxlaqi-etik davranışının tənzimlənməsində əxlaqın müstəsna rolu inkaredilməzdir.

Etika tarixində davranışlar və eləcə də davranışlarla şüurun əlaqəsi məsələsinə ilk dəfə Aristotel toxunmuşdur. Antik dövrün dahi mütəfəkkiri qeyd edilən problemin təhlilinə özünün “Etika” əsərində xüsusi diqqət yetirmişdir.

Yeni dövrdə davranış və ümumiyyətlə, əxlaq məsələsinə Hegelin əsərlərində qiymət verilmişdir. Hegel belə hesab edirdi ki, həqiqi əxlaqi şüur hərəkət və davranışları törədən şüurdur (22: 331). Əlbəttə törədilən hərəkətlərin mahiyyəti ilk növbədə onların məqsədi, məqsədəyönlülüyü və ortaya çıxan tələbatların ödənilməsi prinsipi ilə ölçülür. Əxlaq və məqsədəyönlülük bir-birindən ayrılmaz fenomenlərdir, çünki özlüyündə etik nəzarət vasitə və məqsəd kimi istiqamətlərə parçalanır. Etikanın belə bir “qızıl qanunu” mövcuddur ki, məqsəd vasitəsiz mənasız olduğu kimi, vasitə də məqsədsiz kordur.

İnsanın məqsədi və həmin məqsədin həyata keçirilməsi üçün vasitələr, tələbatlar və tələbatlarının ödənilməsi üçün

sosial mühit gərəkdir. Şübhəsiz ki, qadın və kişi tələbatlarının struktur və təsnifatı arasında elə də kəskin fərqlər yoxdur, əlbəttə söhbət ilk növbədə maddi-sosial-mənəvi tələbatlardan gedir, amma bu "ümumi" olan paradiqmaları bir çox hallarda "xüsusi" olanlarda müşayiət edir.

İnsan heç də bir çoxlarının iddia etdiyi kimi mücərrəd varlıq deyildir. O, konkret zamanın və mühitin övladıdır. Hər bir fərdin, şəxsin həyatında öz dövrünün "izləri" yaşanır. Eləcə də məhz sosial mühit şəxsiyyəti, bütövlükdə isə, cəmiyyətdə baş verən ictimai münasibətləri doğurur. Məhz ictimai münasibətlərin təsiri ilə müəyyən dövr daxilində şəxsiyyətdə cəmiyyətin bütün üzvlərinə xas olan ümumi cəhətlər və mənəvi keyfiyyətlər, ümumi davranış normaları formalaşır və inkişaf edir (44: 8). Lakin bir çox hallarda (hətta elmi dairələrdə belə) əxlaqi prinsiplərin, o cümlədən davranışların ətraf aləmlə, "mövcud dünya" ilə heç bir bağlılığa malik olmadığı söylənilir. Təbii ki, insan əxlaqı, bütövlükdə insan həyatı ilə bağlı tədqiqatlar get-gedə yeni məcraya düşür. Hətta, Y.Habermasın dediyi kimi, etik pozisiya baxımından əxlaqın əsasları yenidən hazırlanmalıdır (261: 94).

Davranış "öz-özünə", kortəbii qaydada meydana gəlib formalaşmır; o, şəxsiyyətin bütün ömrü boyu mənimsədiyi və əməli fəaliyyətində istifadə etdiyi mənəviyyat normaları, dünyagörüşü, həyat tərzi, cəmiyyətdəki adət-ənənələr, rəftar, etiket və hərəkətlər əsasında formalaşmış xüsusi qabiliyyətdir, ümumiləşmiş mənəviyyat normalarının məcmusudur. Davranış ictimai varlığın inikası, sosial həyat tərzinin ifadəsidir. Buna görə də davranış bir çox hallarda cəmiyyətdəki ən ümumi əlaqə və münasibətlərlə əlaqədardır, ümumi olanı əks etdirir (44: 9).

Hər bir cəmiyyətin (əlbəttə geniş mənada), sosial qrupun, xalqın, etnosun, kollektivin, fərdin öz davranış qaydaları mövcuddur. Təbii ki, bu cəhətdən kişi və qadın davranış qaydaları istisnalıq təşkil etmir.

Yeni ictimai mahiyyət kəsb edən "gender" anlayışı təşəkkül mərhələsini yaşamaqla hazırda bir sıra elmlərin anlayışlar sistemində özünün konkret yerini müəyyənləşdirməkdədir. Mənşəcə ingilisdilli ədəbiyyata aid olan, "cins" anlayışını verən gender, bu gün fəlsəfi ədəbiyyatda kişi və qadının vəzifəsi, kişi və qadın davranışı, habelə onların cəmiyyətdə tutduqları yer barədə təsəvvürlərin məcmusudur. Hazırda ictimai təsəvvür və bir çox elmi ədəbiyyatlarda gender, "cins" kateqoriyası ilə tam eyniləşdirilir ki, bu da qətiyyən düzgün meyil hesab edilə bilməz. Ümumiyyətlə, problemə iki yanaşma cəhdi özünü daha qabarıq göstərir ki, onları ümumiləşdirib mədəni konstruktivizm və struktur-stratifik modelləşdirmə adlandırmaq olar. Dediyimiz birinci yanaşma diqqəti identikləşdirmə və habelə sosiallaşdırma vasitəsi ilə fikirdə, duyğuda, davranışda kişi və qadınla bağlı fərqləri müəyyən edən kişi və qadın keyfiyyətləri və sosial rolları barədə təsəvvürün formalaşması və fəaliyyət göstərməsi mexanizminin tarixi və etnomədəni tərkibinin aşkar edilməsinə yönəldir. Burada "gender" mədəni konstruksiya kimi çıxış edir: kişi və qadın imici onun konkret sosium üçün tipik olan kişi və qadın təfəkkürü və davranış reallığı ilə əlaqədədir. İkinci yanaşma tədqiqat obyekti və predmeti ilə cinslər arasındakı, sosial strukturlaşma və laylaşma sistemində müəyyən yeri olan xüsusi sosial qruplar kimi şərh edilən sosial münasibətlər sistemini müəyyənləşdirir. Burada "gender" hər şeydən əvvəl ailə və

cəmiyyətdə kişilərlə qadınlar arasındakı sosial münasibətlər modelini təqdim edir ki, onun da əsas komponentləri aşağıdakılardır: 1) mülkiyyətin, əməyin, hakimiyyətin və nüfuzun bölünməsi ilə əlaqədar stratifikasiya münasibətləri; 2) seksual və reproduktiv rolu və əxlaqi tənzimləyən münasibətlər; 3) mənəvi-emosional yaxınlaşma münasibətləri. Bu yanaşmaların birliyi "gender"in ailə və cəmiyyətdə kişi ilə qadın arasındakı münasibətlərin struktur-stratifikasiya modelini və mədəni konstruksiyasını təqdim edən sosial cins kimi şərhini verməyə imkan yaradır (159: 132).

Bioloji cins və əsasən sosial cins olaraq gender sosializasiya və gender struktur-status stratifikasiya proseslərində inteqrasiya olunduğu ümumi sosial "cins" kateqoriyasının mürəkkəb strukturuna daxil edilməsi daha konstruktiv sayılır. Bu izahın əsasında D.Loberin "Cins sosial kateqoriya kimi" məqaləsində təklif etdiyi, "cins" kateqoriyasının modifikasiya edilmiş strukturu durur. Belə yanaşma həmin fenomenin həm ontoloji, həm də qneseoloji mürəkkəbliyini və çoxplanlılığını əks etdirməyə imkan verir (159: 132).

Əlbəttə cins anlayışı, qadın və kişinin əsaslı fərqi məsələsi elmi-fəlsəfi ədəbiyyatda heç də yeni bir şey deyildir. Bu cəhətdən xüsusilə Freydin psixoanaliz nəzəriyyəsi alimin özündən sonra gələn tədqiqatçılara və bütöv elmi fikrə böyük təsir göstərmişdir. Freyd hər şeydən əvvəl kişi ilə qadının bioloji fərqini nəzərə çarpdıraraq qeyd edir ki, "anatomiya-taledir". Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, Freydin əsas pasiyentləri psixi stress keçirən qadınlar olmuşdur və görünür məhz buna görə də Freydin əsərlərində təkcə qadın "anatomiyasının" deyil, qadın psixikasının da kişilərlə ziddiyyət təşkil etdiyi göstərilir (173).

Son illərdə bütün dünyada gender tədqiqatlarının miqyası, əhatə dairəsi, mövzu diapozonu xeyli genişlənmişdir. Bu isə heç də təsadüfi səciyyə daşımır. Alim və ictimai xadim E.Süleymanovanın qeyd etdiyi kimi, gender münasibətlərinin dinamik, çevik olduğunu və müxtəlif faktorlardan asılılığını nəzərə alaraq, hər bir konkret dövrdə, mühitdə, hər bir sosial təbəqədə, şəhər və kənd şəraitində və s. gender münasibətləri üzrə tədqiqatların aparılması vacibdir. Gender asimmetriyasının aradan qaldırılmasına yönəlmiş elmi və o cümlədən, sosial tədqiqatlar praktik yönümlü olmalı, faktlar, həqiqətlər üzə çıxarılmalı, çətinliklər, konkret problemlər araşdırılmalı və onların həlli üçün tövsiyələr işlənib həyata keçirilməli, müxtəlif istiqamətli sorğulardan başlayıb gerçəkliyə söykənən tövsiyələrlə bitməli, ümumdünya qadın strategiyalarında müəyyən edilmiş hər bir əsas istiqamət və sahələr üzrə aparılmalıdır (150: 102-103).

Bu gün müxtəlif din və dil qrupuna, habelə müxtəlif irqlərə mənsub olan qadınların çeşidli problemləri mövcuddur. Lakin gender tədqiqatları qətiyyən lokal xarakter daşımır. Bu tədqiqatların mərkəzində insan hüququ problemi dayanır. Burada xatırlatmağı vacib bilirik ki, gender heç də bəziliərinin təsəvvür etdiyi kimi, təkcə kişi və qadın arasındakı "fərqləri" öyrənmir. Onun tədqiqat obyekti genişdir. Gender probleminin tədqiqatçısı Ə.Abasovun qeyd etdiyi kimi, mədəniyyət təlim-təhsil vasitəsilə cəmiyyətdə psixoloji sterotipləri möhkəmlədir. Belə təəssürat yaranır ki, məhz mədəniyyət cinslərin ictimai, sosial rollarının yanlış formalaşmasına və buna uyğun olaraq qadın və kişi münasibətlərində disharmoniyaya səbəb olur. Mədəniyyət real situasiyanı, regional, etnik xüsusiyyətləri müəyyən sə-

viyyədə əks etdirsə də, o bütövlükdə yetərincə inersiondur. Buna görə də istər-istəməz müəyyən mərhələdə onun cəmiyyətdə baş verən dəyişmələrdən geri qalması təəssüratı yaranır, amma sonra onun üçün də keçid anı gəlir. Hazırda ümumbəşəri mədəniyyət qlobal yeniliklər astanasındadır. Lakin o hələ də problemi gender tədqiqatlarının məqsədi olan cinslər arasında harmonik münasibətlər prioritetinə uyğun həll etmək iqtidarında deyildir (2: 15).

XX əsrin sonuna yaxın bütün dünyada baş verən kəskin dönüş mərhələləri, mövcud superdövlətlərdən birinin – SSRİ-nin çökməsi, həmin məkanda yeni iqtisadi-siyasi formasiyanın yaranması cəmiyyətin bütün sahələrinə öz təsirini göstərmişdir. Azərbaycan da baş verən sosial-siyasi dəyişikliklərdən kənarda qalmamışdır. SSRİ-nin süqutundan sonrakı mərhələ elmi ədəbiyyatlarda bir qayda olaraq “keçid mərhələsi” kimi qiymətləndirilir. Bu isə heç də təsadüfi deyildir. Həqiqətən, cəmiyyət bir siyasi-iqtisadi platformadan başqasına keçir. Yeni dövr özü ilə yeni prinsip, yeni qanun, yeni təfəkkür tərzi, yeni davranış normaları gətirir. Əlbəttə heç də adamların hamısı yeni həyat tərzinə alışa bilmir. Əslində, belə bir transformasiya üçün hazır “mexaniki model” də mövcud deyildir. Hər cür yeniliyin insan həyatına daxil olmasını həmişə ağrılar və çətinliklər müşayiət etmişdir. Bu indi də belədir. Keçid dövrünü yaşayan insanların düşüncəsi mövcud mühitlə uzlaşmağa heç də bütün vaxt və hallarda qadir deyil. Onlar ənənəvi adət-ənənə, rəftar və davranış qaydalarını avtomatik olaraq dəyişə bilmirlər. Xüsusən, qadınların yeni sosial mühitə uyğunlaşmasında köklü problemlər yaranır. Həmin mərhələdə etik normaların ənənəvi “qəliblərə” uyğun gəlməməsi də müşahidə olunur. Belə olan

tərzdə qarşıya çoxlu suallar çıxır: gələcək həyatı necə yaşamalı? Hansı əxlaq və davranış normalarını qoruyub saxlamalı? Qərbə üz tutmalı, yoxsa Şərqə? Bu suallara cavab vermək heç də asan məsələ deyildir. Gender tədqiqatı ilə məşğul olan görkəmli Azərbaycan filosofu Z.Quluzadənin bu məsələ ilə bağlı söylədiyi fikirlər maraq doğurur. Tədqiqatçı göstərir ki, müasir Azərbaycan cəmiyyəti müxtəlif təbəqələrə bölünür: bəzi insanlar adət-ənənələrin, dinin təlqin etdiyi davranış qaydalarına qayıtmağı dəyər kimi qəbul edir; əsas əhali kütləsi isə, xüsusilə də şəhərlərdə, sovet dövründən qalma mentaliteti qorumaqla Şərq və Qərb düşüncə tərzi arasında tərəddüd edir; şəhərdə Qərbə meyl edənlər müqayisədə daha çoxdur. Bu cür mövqenin sabitliyini təmin edən başlıca amil Azərbaycan dövlətinin dünyəviliyi, onun Konstitusiyasının demokratiyaya əsaslanması və ölkənin kişilərlə bərabər qadınlarının da hüquq, azadlıq və imkanlarını qoruyan beynəlxalq konvensiyalara qoşulmasıdır (110: 79).

Deməli, zamanın özü ilə gətirdiyi problemlərin həlli heç də asan iş deyildir. Müstəqil Azərbaycan Respublikasının mövcud çətinliklərdən çıxış yolu axtarması dövrün öz qanunauyğunluğundan və labüd şəraitdən irəli gəlir.

Z.Quluzadə yazır: “Gender münasibətləri sahəsində müasir vəziyyətin bütün mürəkkəbliyini nəzərə alan Azərbaycan qanunvericiliyinin gender ekspertizasına həsr olunmuş tədqiqatda qeyd edilir ki, qanunvericiliyin qadınların və kişilərin hüquqi (de-yure) və praktiki (de-fakto) bərabərliyini əks etdirən ayrı-ayrı məqamlarının gender korreksiyasına ehtiyacı duyulur. Onlardan bəziləri aşağıdakılardır:

- cinsi həyata başlamaq üçün minimal yaş həddinin qanunla müəyyən edilməsi;

- nəzərdə tutulmuş yaş həddindən aşağı olanların cinsi əlaqəyə girmələri ilə bağlı cavabdehliyin müəyyən edilməsi;
- homoseksual münasibət məsələləri üzrə qanun normalarının gender baxımından tarazlaşdırılması;
- cinsi təngəgətirməyə görə məsuliyyətin artırılması" (110: 79).

XX əsrin sonlarında Azərbaycan torpaqlarının 20 faizi Rusiyanın hərbi dəstəyi ilə Ermənistan tərəfindən işğal olunmuşdur. Bir milyondan artıq Azərbaycan vətəndaşı qaçqın vəziyyətində yaşayır. Müxtəlif yaşayış məntəqələrində çadır və vaqonlarda, yataqxana və mehmanxanalarda yaşayan ailələrin ağır yükünü çox vaxt qadınlar çəkməli olurlar. Yeni yaşayış tərzi insanların həyat və məişətinə, rəftar və davranışına da təsir göstərir. Azərbaycan ailələrində ənənəvi olaraq, necə deyərlər, "hərənin öz yeri" olmuşdur. Ata-oğul, gəlin-qayınana, qardaş-bacı və s. münasibətləri əsrlər boyu formalaşmış, yeni keyfiyyətlərlə zənginləşmişdir, amma qaçqın taleyi yaşayan ailələrdə bu "subordinasiya" son illərdə kəskin şəkildə pozulmuşdur; belə ki, kiçik, dar "mənzildə" yaşayan ailələrdə bir sıra kəskin problemlər üzə çıxmışdır. Yeni həyat tərzi istər-istəməz yeni rəftar və yeni davranış tələb edir. Nəticədə, qadın-kişi münasibətləri tamamilə yeni bir müstəviyə keçir; bu əlbəttə, təqdiredici hal deyildir.

Keçid dövrünün mühüm əlamətlərindən biri də kişilərin iş axtarmaq üçün başqa ölkələrə getməsidir. Bir çox ailələrdə gənc və orta yaşlı kişilər öz ailələrini saxlamaq məqsədilə əsasən yaxın ölkələrə – Rusiyaya, Türkiyəyə, İrana üz tuturlar. Postsovet məkanında, başqa respublikalarda olduğu

kimi son zamanlar Avropa ölkələrinə miqrasiya edənlər arasında azərbaycanlılara da təsadüf olunur. Müşahidə və faktlara istinad edərək deyə bilərik ki, xaricə gedən soydaşlarımızın əksəriyyəti ailəlidir, az bir qismi isə subaylardır. Ən acınacaqlısı isə odur ki, xaricə gedən Azərbaycan vətəndaşlarının bir çoxu müəyyən zaman keçəndən sonra bir daha geriyə - öz vətəninə qayıtmır. Bu istər-istəməz demoqrafik inkişafa və eləcə də, ailə-məişət prinsiplərinə öz təsirini göstərir. Ənənəvi Azərbaycan ailəsinə xas olan böyüyə hörmət hissi, ənənələrə bağlılıq prinsipi yuxarıda qeyd etdiyimiz problemlərə rəğmən, tədricən arxa plana keçir.

Xalqın mentalitetinə zidd olan yeni "adətlərin" həyat vəsiqəsi almasında, habelə ailə münasibətlərində yeni kommunikasiyaların rolu mühümdür. Göstərilən xarici kinofilmlər ailə üzvlərinin, o cümlədən qadın və qızların əxlaqına bu və ya digər aspektdə təsir göstərir. Nəticədə, əgər bir tərəfdən yeni davranış normaları "ixrac" olunursa, digər tərəfdən adekvat mənəvi prinsiplər "idxal" olunur.

Keçid dövrünü yaşayan qadınlar öz həyat və məişətlərində sovet dövrünün davranış normalarını əsaslı şəkildə qoruyub saxlayırlar. Bu isə təsadüfi deyildir. Məlumdur ki, 70 ildən artıq hökm sürən sovet ideoloji aparatı insanların bütün həyatına nüfuz edə bilmişdir. Ötən əsrlərdə, yüzillik və minilliklər boyu mövcud olan patriarxal ənənələrin aradan götürülməsində həmin ideologiyanın müəyyən rolu inkaredilməzdir. Bir çox bölgələrdə azərbaycanlı qadınlar öz çadralarını atmış, kişilərlə bərabər hüquq əldə etmiş, təhsil almış, rəhbər vəzifələrdə çalışmışdılar. Doğrudur, sovet məkanında qadınların bütün sahələrdə həyatı heç də ideal olmamışdır. Onların bir çoxu vətəndaş və vətən müharibə-

sinin məşəqqətinə dözmüş, repressiya qurbanlarına çevrilmiş, kolxoz və sovxozlarda az qala kölə qanunları ilə fəaliyyət göstərmişlər, lakin belə bir faktı da təkzib etmək olmaz ki, həmin dövrdə qadınlar kişilərlə bərabər real hüquq bərabərliyi əldə etmişlər. Keçid mərhələsində isə həmin proporsiya xeyli müddət pozulmuşdur. Yalnız Respublika prezidentinin 14 yanvar 1998-ci il tarixli fərmanı ilə Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradıldıqdan sonra qadınların ölkə həyatındakı rolu müəyyən qədər artmağa başlamışdır. Komitə Pekin fəaliyyət platformasının həyata keçirilməsində mühüm rol oynamışdır.

Qadınların həyat səviyyəsinin, eləcə də onların davranışının tənzimlənməsində əxlaqın rolu böyükdür. Bu gün gender tədqiqatlarının geniş müstəviyə keçməsi bir çox parametrləri ilə əxlaqi özülə söykənir. Müasir Azərbaycan ailəsinin və bütöv cəmiyyətin timsalında aparılan müşahidələrə istinad edərək deyə bilərik ki, keçid dövrü özünün spesifik cəhətləri ilə fərqlənsə də, inkişafın əsasında duran ən mühüm amillərdən biri kişi-qadın münasibətləridir. Mədəniyyətin inkişafı, yeni münasibətlərin formalaşması isə birbaşa genderlə bağlıdır.

Fəlsəfə və sosiologiyada "gender" anatomik-bioloji cinsi xüsusiyyətlərin deyil, əsasən tarixi, etno-mədəni, sosial determinləşdirilmiş şərtlərlə müəyyənləşdirilən cinsi xüsusiyyətlərin məcmusu kimi, başqa sözlə ifadə edilsə, "sosial cins" kimi qiymətləndirilmişdir. Lakin zaman keçdikcə genderin tədqiqat obyekti daha da dəqiqləşdi. Artıq çagdaş şəraitdə gender fəlsəfədə kişi və qadının vəzifəsi, kişi və qadın davranışı, onların cəmiyyətdə tutduğu mövqe barədə təsəvvürlərin məcmusu kimi qiymətləndirilir. Qeyd

etdiyimiz meylin sosial psixologiyada da öz yeri vardır; "psixologiyada *gender* elə bir sosial-bioloji məfhumdur ki, onun vasitəsilə insanlar *kişi* və *qadın* anlayışlarını izah edirlər" (211: 228).

Sosial münasibətlərin bir hissəsi olaraq gender münasibətlər sistemi də cəmiyyətdaxili inkişaf aspektlərindən biri kimi qiymətləndirilməlidir. Hər hansı millətin kişi-qadın münasibətləri və komponentləri barədə təsəvvürləri onun özü ilə eyniləşməyə, daha doğrusu, eyniliyin dinamik komponentinə də mühüm təsir göstərir. Milləti bir ailə kimi təsəvvür edən subyekt özünün ona münasibətində valideynə münasibət analogiyasını əsas tutur. Hələ vaxtilə Fromm öz əsərlərində övlad-valideyn münasibətlərini rəmzi olaraq iki yerə bölərək, modelləşdirməyə çalışmış və həmin modelin şəxsiyyət-millət anlamında əsaslı yer tutduğunu qeyd etmişdir. Bununla əlaqədar onu da xatırlatmaq lazımdır ki, bir sıra tədqiqatçılar sosioloji-psixoloji baxımdan yanaşaraq gender münasibətlərinin "statusunu" qəribə bir formulə ilə izah etməyə çalışmışdır. Onların bir çoxu zaman-məkan kontekstində məkanı qadın, zamanı isə kişi kimi təqdim edirlər. Təbii ki, bu halda kişi və qadınlara xas olan psixoloji və bioloji cəhətlər əsas kimi götürülür. Son zamanlar gender münasibətlərinin hətta millətlərin özəl xüsusiyyətlərinə müncər edilməsi halları da diqqəti cəlb edir. Məsələn, elmi-fəlsəfə ədəbiyyatda bir çox baxış və təsəvvürləri ümumiləşdirərək Fransanın qadın, Böyük Britaniyanın isə kişi görüntüsündə qəbulu mövcuddur.

Hər bir milli dərketmə məqamının da qadın-kişi münasibətlərinə özəl yanaşması vardır. Təbii ki, burada tarixi-ənənəvi-dini-milli xüsusiyyətləri mühüm rol oynayır.

Azərbaycanın bir sıra bölgələrində gəlin-qayınata, ər-arvad münasibətlərində "örtülü", "pərdəli" davranış qaydaları hələ də qalmaqdadır. Məsələn, ana öz qayınatası (və ya qayınanası), böyük qardaşı yanında danışmır, qucağına uşaq götürmür, gülməyi ayıb hesab edir və s. Bu kimi davranış formalarını bəzən islam dininin qayda-qanunlarına aid edənlər də tapılır. Əslində, bu kökündən yanlış fikirdir. Bir çox ölkələrdə bu cür davranış formaları mövcuddur; həmin ölkələrdə yaşayanların isə islami dəyərlərlə heç bir əlaqəsi yoxdur. İnsanların, xüsusən əks cinslərin bir-birinə olan bu cür münasibətləri bir növ kənar nəzarətin nəticəsində meydana gəlmişdir: "özününkilərə" və "özgələrə" münasibətin əsasında habelə özünənəzarət və davranış tərzi dayanır (246: 58-59).

Davranışın müəyyənedici standartları qadınların ailə və cəmiyyətdə müəyyən şəxslərlə münasibətlərini məhdudlaşdırır. Bu, bir çox ölkələrin yazılmamış "əxlaq kodekslərində" mühüm yer tutur. Məsələn, Avstraliya aborigenlərinin bir çox davranış qaydaları buna misal ola bilər. Həmin məkanda yaşayan kişi və qadınların münasibət və davranışlarında "üstüörtülü" məqamlar çoxdur. Ən qəribəsi odur ki, burada hətta qardaş-bacı, həmçinin kürəkən-qayınana (və qayınata) arasında da "dəmir pərdə" qalmaqdadır. İkincilər (kürəkən-qayınana) arasında isə "xüsusi dil" mövcuddur (166: 65-67). Analoji vəziyyət Sibirdə yaşayan yukagirlərə də aiddir. Yukagirlərin adət və davranış normaları tələb edir ki, qayınata gəlinlə, qayın gəlinlə, evli qardaşlar isə bir-biri ilə danışmasın. Burada qohumların bir-birinə deyəcəkləri fikirləri "özgələr" çatdırır (253: 126-127).

Avstraliyada yaşayan bəzi yerli tayfalar ənənəvi davranış etiketlərinə daima ciddi əməl edirlər. Qadın cidd-cəhdlə

çalışmalıdır ki, onun öz əri ilə yaxınlığından doğma qardaşının belə xəbəri olmasın. Truk adalarında (Mikroneziya) isə qohumlar arasında nikah qəti qadağan edilsə də, daha maraqlı davranış ənənələri qalmaqdadır. Belə ki, bacı öz qardaşının yanında gülüb sevincini büruzə verə bilməz. Dünyanın bir çox ölkələrində qadın-kişi davranışlarında ciddi etiketlər qalmaqdadır. Bəzi millət və xalqların əks cinsə mənsub olan nümayəndələri heç vaxt bir-biri ilə rəftarda qabarıq müşahidə olunan ünsiyyət formalarına müraciət etmirlər. Xüsusilə yeni ailə qurmaq istəyən oğlan və qızın münasibətlərindəki incə çalarlar bu deyilənlərə yaxşı nümunə ola bilər. Bir çox millətlərdə olduğu kimi Azərbaycanda da əksər hallarda ailə qurmaq istəyən oğlan və qızı ya yaxın qohumları, ya da ki, dostları tanış edirlər. Adətən, qohum olan tərəflər bir-birinin nəsil – kökünə və sosial vəziyyətinə yaxşı bələd olur. Valideynlər belə hesab edirlər ki, ailə quran, qohum olan tərəflər cəmiyyətdə "paritet" mənsəb və statusa malik olmalıdır; məhz bu cür şəraitdə ailənin uzunömürlülüyü təmin edilə bilər. Yeni qurulan ailələrin gənc üzvləri öz valideynləri ilə ailə ənənələri çərçivəsində davranmağa üstünlük verirlər. Hətta ailə üzvləri arasında xüsusi davranış, ünsiyyət, müraciət formaları da yaranır. Ümumiyyətlə, kişi-qadın münasibətlərindəki bu cür "sirli" ünsiyyət formaları heç də elmə gizli olan bir məsələ deyildir. Azərbaycan filosofu Ə.Abasovun yazdığı kimi, ümumiyyətlə, mədəniyyətin kişi və qadına aid etdiyi fərqli sosial rol və ictimai vəziyyət tarixən bu iki cinsin müxtəlif ünsiyyət səviyyələrində öz aralarında anlaşmasına maneə yaradır. Kişilərin emosional dözümlülüyü, praqmatizmi və rasionalizmi, ölçüsüz fəallığı və hərəkət qətiyyəti,

qadın həssaslığı, emosionallığı, intuisiyası, yumşaqlığı və qətiyyətsizliyi, kompromis arayışı cəhdi ilə birbaşa ziddiyyətdədir. Qarşılıqlı anlaşılmazlıqda kişi öz şəxsi istək və qiymətləndirməsindən çıxış edərək qadını tənqid etməyə daha çox meyillidir. Münhen Universitetinin fəlsəfə elmləri doktoru Kitta Müllen Axs göstərir ki, qadının "yox" deməsini kişi "hə", "ola bilər" söyləməsini isə onun hər hansı formada "yox" deyə düşünməsi şəklində qəbul edir. Bu isə adamların verbal dillə yanaşı, başqa ünsiyyət üsullarından da yararlanması anlamına gəlir (253: 126-127). Tədqiqatçının qeyd etdiyi kimi, qədim tarixə malik olan ünsiyyət vasitələrindən biri də bədən "dili"dir. Sosial əhəmiyyətli informasiyanın 2/3 hissəsi sırf bədən dili ilə çatdırılır. Bədən dili ilə susmaq mümkün deyil. Biz daim nəsə "ötürürük", yad adamların təsirinə məruz qalırıq. Bu isə rasionallıq və məntiqin arxa plana keçdiyi ünsiyyət səviyyəsidir (2: 13).

Yaxşı məlumdur ki, ənənəvi davranış formaları öz mühafizəkarlığını nə qədər qoruyub saxlasa da, cəmiyyətin həyatında baş verən köklü dəyişikliklər ailələrdən də yan ötüb keçmir. İndi Azərbaycan ailəsində kişi-qadın münasibətləri yeni müstəvidə inkişaf etməkdədir. Təzə ailə quran tərəflər get-gedə daha "sərbəst", "müstəqil" hərəkət edib, yeni davranış qaydalarına üstünlük verirlər. Belə ki, ailə quran gənclərin öz şəxsi rəyləri artıq bir çox hallarda ön plana keçməkdədir, lakin gəlin-qayınana, kürəkən-qayınana münasibətlərindəki "ölçü-biçi" əksər hallarda, ənənəvi prinsipləri qoruyub saxlamaqdadır. Doğrudur, bu münasibətlər ailədaxili konfliktlərsiz də ötüşmür. Həmin konfliktlərin bir qismi məhşur "Qaynana" əsərində komik boyalarla təsvir edilmişdir.

Davranışın gender aspektində təhlili göstərir ki, qadın-kişi münasibətləri cəmiyyətin tarix və mədəniyyəti ilə müəyyənləşən konkret sosial-siyasi və iqtisadi vəziyyətlə sıx surətdə bağlıdır. Tədqiqatçıların qeyd etdiyi kimi, artıq XXI əsr və bütövlükdə yeni "zaman okeanına" daxil olmuş üçüncü minillik, istər siyasətdə, istərsə də iqtisadiyyatda "qadınlara xas keyfiyyətlərin" cəlb olunmasını təkidlə tələb etməkdədir. Vaxtilə kişilərin fiziki qüvvəsini səfərbər etmiş aqrar və sənaye əsrləri başa çatmaqdadır; indi "qadın əsri" – intuisiya, diqqətlilik və işdə səliqə-sahman tələb edən informasiya texnologiyaları əsri başlanır. Bu, qadınların öz intellektual qüvvələrini tətbiq etmə imkanlarını artırır. Gender balansı qadın və kişi əməyinin şüurlu, yəni təbii yaranma əlaqəsi ilə baş tuta bilər. Reproduksiya məsələsi bu kontekstdə vacibdir, lakin demoqrafik dəyişiklərdən ayrılmış reproduksiya indiki gender disbalansın vəziyyətini göstərmir.

Bu proseslər, digər postsovet respublikalarında olduğu kimi, Azərbaycanda da cəmiyyətin strukturunun və onun sisteminin transformasiyasına gətirib çıxarmış siyasi proseslərin nəticəsidir (69: 12).

Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, gender istiqamətində aparılan araşdırmaların nəzəri əsasında dəyər kateqoriyasının dayandığı məlumdur. Gender dəyərlərinin birinci forması ictimai ideal kimi, ictimai həyatın müxtəlif sahələrində arzu edilən atributlar haqqında mücərrəd təsəvvürlər kimi çıxış edir. Bu cür dəyərlər həm ümumbəşəri, həm də konkret tarixi və milli xarakterə malik ola bilər.

Gender dəyərlərinin ikinci forması isə gender rolu ilə şərtlənən sosial hərəkətlər şəklində obyektivləşmiş formada çıxış edir.

Gender dəyərlərinin üçüncü forması şəxsiyyətin strukturuna onun davranış motivlərinin mənbələrindən biri olan şəxsi dəyərlər şəklində daxil olur.

Alman alimi A.Şmidt bu məsələyə yanaşmanın başqa bir metodoloji prinsipini təklif etmişdir. O, insanın ən ümdə tələbatına – nəslin qorunub saxlanması, salamat qalmaq, yeni sosial statusa nail olmaq istiqamətlərində sosial inkişafa və siyasi iddialara əsaslanan gender dəyərləri iyerarxiyasını işləyib hazırlamışdır (69: 13).

Sosioloqlar cins və gender problemini araşdırarkən qeyd edirlər ki, kişi və qadın arasındakı sosial münasibətlərin təşkili bir model olaraq təkcə ailədaxili və şəxsiyyətlərarası əlaqələrin nəticəsi kimi deyil, həm də geniş spektrdə-sosial münasibətlərin inikası kimi təzahür edir.

Kişi ilə qadın arasındakı bioloji fərqlərin mahiyyəti hər bir kəsə məlumdur. Lakin bir çoxlarına məlum deyildir ki, kişi ilə qadını fərqləndirən əsas amil heç də zahiri səciyyə daşımır, çünki zahiri xüsusiyyətlərinə görə qadınla kişi arasında oxşarlıq fərqlilikdən daha çoxdur. Əksər hallarda, həmin fərqlərin əsasında məhz gender fərqləri dayanır. Gender fərqi isə insanların qarşılıqlı əlaqə və münasibətləri prosesində meydana çıxır. Əlbəttə cinsi xüsusiyyətlərə daha çox əhəmiyyət verən gender təfəkkürü çox zaman zahiri davranış formalarına diqqət yetirir. Burada xatırlatmaq lazımdır ki, bu və ya digər şəxsi, gender kateqoriyasına aid etməyin iki prinsipi mövcuddur.

Birinci prinsipi çox vaxt transvestit adlandırırlar. Bu zaman qadın geyiminə üstünlük verən kişilər və kişi libası geyməyi xoşlayan qadınların davranış normaları diqqəti çəkir. Kişi paltarı geymiş qadının və ya əksinə - qadın pal-

tarı geymiş kişinin davranış qaydalarında hansı əlamətlərin üstünlük təşkil etdiyi bəzən birmənalı qarşılanmır. Və əksər hallarda, geyim əlamətlərinin, kişi və qadınları gender və etik nöqteyi-nəzərdən qeyri-adi disharmoniyaya düçar etmədiyinin şahidi olduq; yəni zahiri cəhətlər onların davranışına kəskin təsir göstərmir.

İkinci prinsip transseksuallıq adlanır. Bu kateqoriyaya daxil olan insanlar transvestit prinsipə aid edilən şəxslərdən xeyli fərqlənir. Belə ki, erkək ola-ola qadına və ya dişi ola-ola kişiyə çevrilən (cinsi cəhətdən) transseksualın davranışlarında konkret fərqlərin olduğu inkaredilməzdir.

Qadın və kişi arasında fərqlərin mövcudluğuna olan münasibət, istər-istəməz əməyin cinsi əlamətlərinə görə bölünməsinə səbəb olur. Elə bunun nəticəsidir ki, ev-ailə təsərrüfatının, mülkiyyətin qadın və kişi arasında bölgüsündə cinsi əlamətlərin əsas şərtlərdən biri kimi götürülməsi az qala ənənəvi hal almışdır. Ailə ocağından tutmuş, cəmiyyətin iyerarxiya pillələrinin yuxarı mərhələsinə kimi – bütün məqamlarda qadın və kişi münasibətləri birtərəfli qiymətləndirilir. Əksər hallarda, ailə və cəmiyyətdə liderlik kişilərə etibar edilir. Ən maraqlısı isə budur ki, kişilərin lider kimi irəli sürülməsi heç də bütün hallarda kişilərin özlərinin təşəbbüsü ilə həyata keçirilmir; kişiləri daha çox dəstəkləyən, onların liderliyini müdafiə edən elə qadınlar özləri olur.

Gender münasibətlərinin və gender tədqiqatlarının əsasında dominant baxışların dayandığı məlumdur. Bəziləri feminizmə yalnız qadın hərəkatının tərkib hissəsi kimi baxır ki, bu kökündən yanlış təsəvvürdür. Artıq qeyd olunduğu kimi, qadın və kişi arasında əsasən anatomik baxım-

dan fərqlər mövcuddur. Cins bioloji prinsiplərə əsaslandığı üçün insanlar müvafiq olaraq "kişi" və "qadın" kateqoriyalarına bölünmüşlər. Gender isə daha çox sosial və psixoloji atributlara bölünür.

Antropoloqlar (məsələn, Marqaret Mid), həmçinin bir çox psixoloq və sosioloqlar qeyd edirlər ki, gender bioloji olaraq yox, sosial olaraq və mədəniyyət vasitəsilə müəyyən edilir, özü də mədəniyyət və tarixə görə nisbidir. Tarixi dəyişmələr obyekti olaraq onun əhəmiyyəti, şərhi və ifadəsi həm mədəniyyətin daxilində, həm də mədəniyyət arasında dəyişir. Sosial amillər – sinif, yaş, irq və etnos da genderin xüsusi əhəmiyyətini, ifadə və təcrübəsini yaradır və o fakt xüsusi qeyd olunur ki, hansısa bir bəsitləşdirilmiş üsulla onu cins və ya seksuallıqla bərabərləşdirmək olmaz (167: 109-110).

Onu da demək lazımdır ki, XX əsrin sonunda fəlsəfi və ümumhumanitar fikir, cinslərarası əlaqəyə və qadın məsələsi deyilən problemə yeni baxış tətbiq etdi. Artıq cinsin sosiallaşması mexanizmləri hakimiyyət diskursu mexanizmləri olaraq tam aydınlığı ilə üzə çıxarılmaqdadır. Sosiumun ən aktual problemləri – hakimiyyət, zorakılıq, özünü anlama və şəxsiyyət azadlığı postsənayeləşmiş cəmiyyətdə fərdin cinsi eyniləşmə və müvafiq sosial rollar problemi kimi qarşıya qoyulur. İnsan mahiyyəti problemi, insan mövcudluğunun məna və gərəkliliyi, məkan və zaman kimi əsas fəlsəfi məsələlər gender ölçüsünə çevrilməkdə, həmin müddəanın dərki isə bütün dünyada geniş yayılan gender tədqiqatlarında öz əksini tapmaqdadır ( 239: 180-183).

Bu günkü elmi ədəbiyyatda gender tədqiqatları öz miqyasına və mahiyyətinə görə xeyli irəli çıxsa da, feminizmin öz aktuallığını itirdiyindən söz açmaq hələ tezdir.

Bəs gender və feminist tədqiqatlar arasında başlıca fərqlər hansılardır? Qeyd etməliyik ki, müasir feminst nəzəriyyədə “feminist” və “gender” araşdırmalarını fərqləndirməyə əsas verən bəzi səbəblər vardır. Rozi Braydottinin sözlərincə, “gender” və “gender araşdırmaları” anlayışları daha çox avropalı seksual fərqlər nəzəriyyəçiləri, postkolonial və zənci amorfu tərəfindən feminist nəzəriyyənin ən çox müzakirə olunan anlayışlarındandır. Bir başqa feminist nəzəriyyəçi Lian Borqiya görə, o, “ciyər üçün elastik forma” ya bənzəyir və sizin arzunuzdan asılı olaraq istənilən formaya düşə bilər.

Braydottiyə görə, gender araşdırmalarının feminist tədqiqatlardan başlıca fərqi birincinin mədəniyyətdə kişi və qadın başlanğıcların simmetrik təşkili faktını qəbul etməsindədir. Bunun əksinə olaraq feminist araşdırmalar mədəniyyət və sosial elmlərdə kişi dominantlığını iddia edirlər. Braydotti genderin “bərabər” və ya simmetrik təşkili ideyasını əslində sosial bərabərsizliyi “pərdələmək” forması sayır və müasirliyin feminist analizini həyata keçirmənin önəmliliyini vurğulayır. Müəllifin fikrincə, ancaq bu cür analiz qadın subyektivliyini qanuniləşdirə bilər. (288: 24)

Feminist baxışların tədricən elmi mahiyyət kəsb etməsi sonrakı mərhələdə gender probleminin təşəkkül tapmasında əsaslı rol oynadı. Bu gün gender problemini təkcə qadın amili ilə bağlamaq qlobal bir məsələnin dar çərçivəyə salmaq deməkdir. Cəmiyyətin bütün inkişaf istiqaməti bu və ya başqa şəkildə genderlə bağlıdır.

Əxlaq və etika problemləri, onların qarşılıqlı əlaqəsi də genderşünaslıqla sıx bağlı olan hadisələrdir. Əvvəla, onu demək lazımdır ki, elmi ədəbiyyatda əxlaq və etika anlayış-

ları bəzən eyniləşdirilir. Hətta az qala hamının qəbul etdiyi belə bir tezis mövcuddur: etika-əxlaqın bir hissəsidir. Bu tezisin formalaşmasının əsasında əxlaqın azad seçimdən başladığı, yəni şəxsiyyətin azadlığı prinsipi dayanır, lakin həmin prinsipi qeyd-şərtsiz qəbul etmək mümkün deyildir. Belə ki, etika əxlaqın hər cür təzahürü ilə eyniləşdirilə bilməz. Azərbaycan filosofu İ.Məmmədzadənin qeyd etdiyi kimi, etika, əxlaqi sistemin elə bir hissəsi hesab olunur ki, istənilən əxlaqa kənardan nəzər salmaq qabiliyyətinə malikdir, yəni özünü təkcə əxlaq kimi deyil, həm də qeyri-əxlaq kimi, yaxud heç də hamının qəbul etmədiyi əxlaq kimi identifikasiya edir (213: 11).

Davranışların etik-gender tədqiqatı baxımından işıqlandırılması bir sıra adət və ənənələrə yeni baxış bucağı altında yanaşmağı tələb edir. Məsələn, adi şüur çərçivəsi daxilində Azərbaycan mühitinə ötəri nəzər salınması maraqlı nəticələr üzə çıxarır. Adətən, Azərbaycan həyatını tədqiq edənlər onu müsəlman dünyasının tərkib hissəsi kimi qəbul edirlər. Zahirən burada təəccüblü heç nə yoxdur, lakin əsil mahiyyətdə buradakı əhali yerli adətlərlə yaşayırlar; hərçənd ki, burada mövcud adətləri qəbul etməyən fərd və qruplar da mövcuddur. İ.Məmmədzadənin qeyd etdiyi kimi, müasir Azərbaycan bazar iqtisadiyyatı yolunu seçmişdir və bu müstəvidə “vəhşi kapitalizmin” müxtəlif sosial, siyasi və iqtisadi xüsusiyyətlərinin invariantı işləməkdədir (213: 12). Məhz belə bir şəraitdə “vəhşi kapitalizmin” özü ilə gətirdiyi əxlaq, mənəviyyata təsirsiz ötüşmür. Yeni normalar əxlaqi sistemə, habelə, sözün geniş mənasında cəmiyyətin bütün həyatına öz şərtlərini diktə edir.

Davranışların təhlilində etik və gender tədqiqatlarının qarşılıqlı münasibətləri probleminin nəzərdən keçirilməsi

göstərir ki, haqqında söhbət açılan problem daha çox obyektiv mahiyyət kəsb edir. Belə ki, etik və gender baxımından təhlilə cəlb edilən davranış normaları bilavasitə cəmiyyətdə yaranıb formalaşır; ailə, kollektiv, sinif davranış normaları heç də "avtonom" qaydada öz-özünə yaranıb təkmilləşmir. Bu davranış norma və formalarının əsasında iqtisadi-sosial-mədəni-mənəvi amillər dayanır. Sosial və mənəvi davranışların əsas xüsusiyyətləri barədə növbəti paraqrafda daha ətraflı söhbət açılacağı üçün biz burada həmin problemin yalnız bəzi məqamlarına toxunmağı vacib hesab etdik.

## 1.2. Sosial və mənəvi davranışların xüsusiyyətləri

Davranışlar özündə ayrı-ayrı fərd və qrupların hərəkət və fəaliyyətini cəmləşdirir. Hərəkətdə insanın əxlaqi prinsipləri, mənəvi aləmi, həyat tərzi, sosial tələbatlarının xarakteri və onun ödənilməsi yolları və s. əks olunur. Bu cəhətdən əxlaqi dəyərlərin təsiri altında formalaşan qadın nəsillərinin mənəvi şüurunun formalaşması prosesi diqqəti cəlb edir. İrsindən və milli mənsubiyyətindən asılı olmayaraq, hər bir qadın öz övladını sevir, onun yolunda bütün məhrumiyyət və çətinliklərə dözür. Ovladdan-övlada ötürülən ana (valideyn) məhəbbəti həm də nəsildən-nəsilə ötürülən əxlaqi dəyərdir. Bu dəyərlər müxtəlif talelərdə əks olunur və müxtəlif motivlərdə formalaşır, inkişaf edir, get-gedə daha da zənginləşir. Alimlər dəfələrlə qeyd etmişlər ki, hər bir sosial münasibətin kökündə valideynin öz övladına məhəbbəti kimi ali mənəvi keyfiyyət dayanır. Deyilənlərdən çıxış

edərək göstərə bilərik ki, sosial və mənəvi davranışların əsasında konkret rasional mühit faktoru dayanır.

Heç kəsə sirr deyildir ki, uzun əsrlər və illər boyu bütün dünyada qadın və kişi arasında müəyyən ziddiyyətlər olmuşdur. Artıq elmi fikrin belə qəbul etdiyi “qadın problemi”, bəşəriyyətin ağıllı-dərrakəli insanlarını, mütəfəkkirlərini daim düşündürmüşdür. Bu problem heç zaman heç bir ölkədə sona qədər həll edilməmişdir. Hətta qadınların kişilər üzərində hökmranlıq etdiyi matriarxal cəmiyyətdə belə qadınlar hüquqi müstəvidə disharmoniya ilə üzləşmişlər.

Şərq və Qərb təfəkküründə qadına münasibət erkən inkişaf mərhələsində də büsbütün fərqli olmuşdur. Əgər Şərq uzun əsrlər boyu qadını “örtülü” şəkildə görmək istəmişsə, Qərb bu incə məxluqu daha çox “diqqət mərkəzində” saxlamağa üstünlük vermişdir, lakin hər iki halda, mütləq qadın azadlığı arxa planda qalmışdır. Belə ki, birinci halda qadın əsasən nəsil artıran varlıq kimi qəbul olunmuşsa, ikinci halda əsasən eyş-işrət obyekti kimi təsəvvür edilmişdir.

Elmi və bədii əsərlərin əksəriyyətində müəlliflər qadının kişiyə tabeçiliyini hər vəchlə əsaslandırmağa çalışmışlar. Elə buna görə də cəmiyyətdə qadın sosial həyatın əksər sahəsində mütəmadi olaraq diskriminasiyaya məruz qalmışdır.

Cəmiyyət tarixində qadın probleminin digər sosial qruplardan və təbii ki, kişilərdən ayrı öyrənilməsi qeyri-mümkündür. Femininsiz maskulin (və ya əksinə) mövcud ola bilməz. Əslində, gender qadın problemini deyil, ümumiyyətlə, qadın və kişinin şəxsi və davranış xüsusiyyəti haqqında təsəvvürlər məcmusudur. İki müxtəlif qütb kimi götürüldükdə, həmin xüsusiyyətlər bir qütbdə qadınlı-

ğı (feminiNlıyi) və digər qütbdə kişiliyi (maskulinliyi) təyin edir. Mütəşəkkil qadın hərəkatının, yəni köhnə feminizmin və yeninin (neofeminizmin) əsasında daim bir emansipasiya - qadının tabeçilikdən, istismardan azad olmaq arzusu dayanmışdır. Bir çox qadın təşkilatları, xüsusən, feminist hərəkatın əksər nümayəndələri, dünya sərvətlərinin qeyri-bərabər, həm də çox hallarda kişilərin xeyrinə bölündüyünü israr edirlər. Həqiqətən, BMT-nin yaydığı məlumata görə, qadınlar dünya əmtəə məhsullarının üçdə iki hissəsini yaratdıqları halda, ümumdünya gəlirinin cəmi 10 faizini alır və dünya mülkiyyətinin yalnız bir faizinə sahibdirlər (39: 134). Həmin problemlərin öyrənilməsi və heç olmazsa interpretasiyası müasir genderşünaslığın əsas tədqiqat hədəflərindəndir.

Gender əsasən şəxsiyyətlərarası münasibətləri, davranış normalarını səciyyələndirsə də, onun əhatə dairəsi genişdir. Belə ki, o, cəmiyyətin əsas institutlarında təşkilat iyerarxiyalarında sosial münasibətləri təyin edən bir hadisədir. İngilis alimi C.Lorber özünün bir çox tədqiqatlarında gender nöqteyi-nəzərindən cəmiyyətdə qadının sosial-mədəni statusunu müəyyənləşdirməyə çalışaraq göstərir ki, sosial institutlarda kök salmış mövqe cins mənsubluğu ilə (tibb bacıları, həkimlər, müəllim və inspektorlar, rahibələr və din xadimləri) o qədər bağlıdır ki, cinsi sərhəd pozulanda üstün cinsi dixotomiya saxlanılır (əgər söhbət qadın prezidentdən, polis işçisindən, yanğınsöndürəndən, ali məhkəmənin üzvündən və yaxud kişi katibdən, feldşerdən, uşaq bağçasının tərbiyəçisindən gedirsə xüsusi izah lazım gəlir). İş və ailədə, bir çox cəmiyyətlərin əsas institutlarında – praktiki olaraq gender fərqi çox dərin kök salmışdır. Az qala bütün

mədəniyyətlərdə, iş, ixtisas növü yerinə yetirilən işin xarakteri elə bir lazımı əsas və zərurət olmadan kişi və qadın ixtisasına bölünmüşdür... Ailədə qohumların rolu onların adının da göstərdiyi kimi (ana, ata, qız, bacı, qardaş, xala, əmi) gender mənsubiyyətinə görə təyin olunur; bu, uzaq qohumların roluna aid olmaya bilər. Bu da gender mənsubiyyəti institutun strukturuna daxil edilmişdir və xüsusən də ev əməyinin bölüşdürülməsində praktik rol oynayır. Qadınların və kişilərin istehsalatda və evdə ən müxtəlif iş növü ilə məşğul olmasını araşdıran müəllif C.Lorber pullu işin və ev əməyinin bölüşdürülməsinin gender mənsubiyyətindən bir çox prosesləri asılı etdiyini nəzərdən keçirərək qeyd edir ki, gender mənsubluğu yalnız mürəkkəb təşkilli cəmiyyətlərə xas olan stratifikasiya sistemlərində mühüm rol oynamır; ictimai nemətlərin qeyri-bərabər bölündüyü, qadına daha az mülkiyyət payı, hakimiyyət və nüfuz verildiyi yerdə bu tamamilə adi bir şeydir. Mövcud dəyərlər ehtiyatının ölçüsündən asılı olmayaraq, sinfi çərçivədə irqi yaxud etnik qrupun daxilində onları kişilər bölüşdürür (əlbəttə bölüşdürməli bir şey varsa). Gender bərabərliyinin səviyyəsi ehtiyatların kasıb olduğu və müntəzəm mülkiyyətin yaxud imtiyazların olmadığı (məsələn, yığıcılıqla və ovla məşğul olan cəmiyyətlərdə və gettolarda) şəraitdə daha yüksək olur, lakin daha aşağı səviyyəli şəraitdə, quldarlıqda, konsentrasiya düşərgələrində də qadınlar kişilərlə müqayisədə daha çox əziyyət çəkir, çünki hakim kişilər tərəfindən zorakılığa və seksual istismara məruz qalırlar.

Vaxtilə Hegel yazırdı ki, subyektin bir sıra davranış və əməlləri elə onun özüdür. Həqiqətən insanın şəxsi həyatı, tərcümeyi-halı onun əməllərində əks olunur. Lakin qadın-

ların davranışının formalaşması konkret sosial mühitlə sıx bağlıdır; o, cəmiyyətdə çox zaman mülki, siyasi, iqtisadi hüquqların əksəriyyətindən hali olur, ailə-ev qayğılarının yükünü təkbaşına çəkir.

Keçid mərhələsinin bir çox əlamətləri qadınların sosial davranışına da təsir etməkdədir. Bildiyimiz kimi, sosializmin bərqərar olduğu 70 ildən artıq bir dövrdə qadınların həyatında mühüm dəyişikliklər olmuş, onların əksəriyyəti icbari, orta və ibtidai təhsil almış, ali məktəblərə daxil olmuş, müxtəlif sənət və peşələrə yiyələnmişdir. Hətta bir çox sahələrdə qadınların əməyindən kişilərə nisbətən daha geniş şəkildə istifadə edilmişdir. Müşahidələr və eləcə də statistik göstəricilər son illərdə real vəziyyətin kəskin şəkildə dərinləşdiyini sübut edir. Məsələ burasındadır ki, vaxtilə təhsil almış, sənətə və peşəyə yiyələnmiş ali və orta ixtisas təhsilli qadınların əksəriyyəti layiq olduqları, öyrəşdikləri ixtisaslarından aralı düşmüşlər. Bu gün həmin qadınlar icra edilməsi üçün yüksək təhsil və peşəkarlıq tələb edilməyən sahələrdə çalışırlar. Belə ki, hal-hazırda ali təhsilli qadınların satıcı, qabyuyan, süpürkəçi, xidmətçi və s. peşələrdə işlənməsi az qala adi hal almışdır. Bundan başqa qadınlar ailədə haqqı ödənilməyən işlərlə məşğul olur, ərin, uşaqların, digər yaşlı və xəstə ailə üzvlərinin qayğısına qalır, ev-eşiyin təmizliyi üçün məsuliyyət daşıyır, bazarlıq edir, bir sözlə, ağır, üzücü işlərin öhdəsindən gəlməyə çalışır. Sosial mühitin "izləri" qadınların həyatından qırmızı xətt kimi keçir. Ağır həyat tərzi çox zaman qadını sındırır, onu az qala müasir köləyə çevirir. Gələcəyə ümidsiz baxış, pessimist əhval-ruhiyyə, maddi rifah halının qeyri-qənaətbəxş olması qadını fəal həyat mövqeyindən çəkindirir, onu cə-

miyyətin "ikinci dərəcəli" üzvünə çevirir. Nəticədə, qadın nəinki özünə qarşı tələbkarlığını artırır, əksinə, tədricən cəmiyyətə yadlaşır, real həyatdan geri qalır. Ən acınacaqlı faktlardan biri odur ki, məsələn, Azərbaycanda qızların ümumi sayı oğlanlardan artıq olsa da, təhsilini davam etdirən qadınların sayı ilbəil azalmaqdadır. Z.Quluzadənin qeyd etdiyi kimi, "Qızların sayca oğlanlardan çox olmasına baxmayaraq, 1996-cı ildə dövlət ümumtəhsil məktəblərində oxuyan 1521351 şagirddən 762395-i oğlan, 758956-sı qız (3439 nəfər az), 1997-ci ildə 1603524 şagirddən 801762-i oğlan, 772351-i qız (29411 nəfər az) olmuşdur. Başqa sözlə desək, 1996-cı illə müqayisədə 1997-ci ildə qızların sayı 25972-nəfər az olmuşdur.

1998-ci ildə respublikanın 5662 orta məktəbində oğlanlar 751470, qızlar isə 277919, yəni 473551 nəfər az olmuşdur.

Təhsilə qarşı laqeyd münasibətin artmasının, şagirdlərin məktəbi atıb təhsildən yayınmasının səbəbləri arasında hazırda dövlət büdcəsindən maliyyələşdirilən zehni əməklə məşğul olan mütəxəssislərin ağır maddi vəziyyətini də qeyd etmək lazımdır" (110: 87). Təəssüf ki, hal-hazırda da köklü bir dəyişiklik müşahidə olunmur.

Sosiomədəni davranışlar sisteminə adətən daxili və zahiri mədəniyyət əlamətlərinin bütöv bir kompleksi daxil edilir. Məsələn, etiketlər, məişət mədəniyyəti, asudə vaxtın təşkili, səliqəli geyim, gigiyena, mimika, bədən hərəkəti (qratsiya) və s. həmin kompleksin mühüm elementləri hesab oluna bilər. Əlbəttə buraya yüksək danışıq mədəniyyəti, əməyin təşkili kimi səciyyəvi xüsusiyyətlər də şamil edilir. Ümumiyyətlə, insana xas etik və estetik prinsiplərin vəhdəti sosiomədəni davranışın nüvəsi kimi qiymətləndirilir.

Cəmiyyətin dinamik inkişafı sosiomədəni tərəqqinin şaxələnməsinə gətirib çıxarmışdır. Mədəniyyətdə sosial, konfessional, professional və s. xüsusiyyətlərin qabarıq şəkildə nəzərə çarpması davranışlarda da özünü büruzə verməkdədir.

Ötən əsrin 80-cı illərindən başlayaraq, aşkarlıq və plüralizm meyillərinin artması cəmiyyətin həyatına güclü təsir göstərməyə başladı. Uzun illər boyu "örtülü" gedən proseslərinin mahiyyəti tədricən üzə çıxmağa başladı. Lakin sonrakı illərdə Azərbaycanla Ermənistan arasında baş verən hərbi konflikt, qaçqınlar ordusunun yaranması, torpaqların işğalı nəticəsində meydana gələn hər cür gərginlik gender münasibətlərinin yeni istiqamətlərini müəyyən etdi. Yeni demoqrafiya və miqrasiya prosesləri cəmiyyətdə mövcud olan ənənəvi kişi-qadın streotiplərini təməlindən sarsıtdı. Filosof Ə.Abasovun qeyd etdiyi kimi, artıq həyatın bir çox sahələrində "kişilərə məxsus sosial mövqeləri" qadınlar əldə etməyə başlamışlar. Kişilərin mühüm hissəsinin işləmək üçün digər ölkələrə üz tutub getməsi nəticəsində ailə qayğıları ilə üz-üzə qalan qadınlar əvvəllər əsasən "kişi peşəsi" hesab edilən ticarət sistemində öz "mövqelərini" möhkəmlətməyə başladılar. Bundan başqa səhiyyə, elm, mədəniyyət, maarif (təhsil) və s. sahələrdə də qadınların "xüsusi çəkisinin" artması müşahidə olunmaqdadır.

İctimai-sosial-mədəni mühitdə baş verən dəyişikliklərin əsrlər boyu formalaşmış davranış modelinə nüfuz etdiyini qətiyyən inkar etmək olmaz. Belə bir təsirdən qadınlar da kənarda qala bilməzdilər.

Cəmiyyətdə qadınların fəallığının yüksəlməsi heç də birmənalı qarşılanmır. Bəziləri təbiətin incə məxluqlarını

yalnız ailə çərçivəsində, beşik başında, mətbəxdə, uzaqbaşı ev təsərrüfatının təşkilində görmək istəyirlər. Belələri üçün yazılmamış qanunların müddəaları daha mühüm və ədalətlidir. Görünür elə məhz buna görədir ki, feminin təfəkkürü çox vaxt maskulın (kişi) təfəkkür və rəftarını sevmir, qəbul etmir, yaxına buraxmır. Bu da bir faktdır ki, bütün zamanlarda qadın-kişi ayrıseçkiliyinin mövcudluğunu hətta qadın hökmdarları belə aradan götürə bilməmişlər; nəzərə alınsa ki, qadınların hakimiyyətə gətirilməsi çox vaxt kişilərinin dəstəyi və təşəbbüsü ilə həyata keçirilmişdir, məsələnin mahiyyəti qismən aşkar olar.

Cəmiyyətdə və ailədə qadın davranışlarına qoyulan məhdudiyyətlərin tarixi ötən minilliklərə gedib çıxır. Qadınların sosial diskriminasiyası (latınca: discriminato-fərq) zaman-zaman dünyanın ayrı-ayrı mütəfəkkirləri tərəfindən diqqətə çatdırılmış, çox zaman tənqid, bəzənsə təqdir edilmişdir. Kişilərin qadın üzərindəki hökmranlığı barədə antik dövrün böyük filosofu Sokrat deyirdi: “Üç şeyi xoşbəxtlik hesab edə bilərsən: yaxşı ki, vəhşi heyvan deyilsən, varvar yox yunansan, qadın yox kişisən”. Sokratın vaxtından əsrlər keçsə də, qadınlara qarşı diskriminasiya, qadın şəxsiyyətinə və ləyaqətinə vurulan zərbə hələ tam aradan çıxmamışdır. Böyük alman filosofu Hegel vaxtilə kişi ilə qadın arasındakı fərqin az qala bitki ilə heyvan arasındakı fərqlər qədər kəskin olduğunu qeyd edirdi.

Yeni və ən yeni dövrün maarifçi və filosofları F.Volter, D.Didro, C.C.Russo, K.Sen-Simon, Ş.Furye, T.Mor, T. Kampanella, C.Lokk, D.Yum, K. Spenser və b. öz əsərlərində qadın hüquqlarının müdafiəsi, zərif cinsə hörmət, cəmiyyətdə qadınların mühüm sosial rolu barədə diqqəti çəkən mülahizələr söyləmiş, maraqlı tövsiyələr yürütmüşlər.

Qadının sosiomədəni mühitdəki fəaliyyəti və statusu bir çox hallarda bu gün kişiləri qane etmir və qadınların hüququ pozulur. Cəmiyyətdə zorakılığa məruz qalan qadınların müdafiəsiz qaldığı vaxtlar da az olmur. Yeri gəlmişkən xatırladaq ki, qadınların incidilməsi, alçaldılıb təhqir edilməsi dünyanın əksər ölkələrində təsadüf edilən kriminal səciyyəli məqamlardır. Bəzi dövlətlərin müvafiq strukturları mövcud problemlə bağlı tədbirlər planı həyata keçirsə də, diskriminasiya hallarına göz yuman ölkələr də vardır. BMT-nin 20 dekabr 1993-cü il tarixli "Qadına qarşı zorakılığın aradan qaldırılması haqqında" Deklarasiyanın 4-cü maddəsində göstərilir ki, dövlət təxirəsalınmadan mümkün olan bütün siyasi vasitələrlə qadınlara münasibətdə hər cür zorakılığın aradan qaldırılması üçün çıxış etməlidir (41: 138).

Zorakılığın aradan qaldırılması probleminə toxunarkən qeyd etməliyik ki, bütün hərəkətlərin insani-etik həllinin əsasında kompromislər dayanır. Bir sıra hallarda kompromisli əxlaqi seçmənin "məcburi vasitələr" deyilən vasitələrə istinad etməsi də təqdir olunur ki, bu da düzgün metod deyildir. Motivin və hərəkətin mahiyyəti ona əsaslanır ki, əxlaqın əsas məqsədi olan davranışın tənzimi korkoranəliyi qəti şəkildə təkzib edir, xeyrə könüllü xidmət göstərir. Əslində, fərd və cəmiyyət qarşısında özünü borclu hesab etmək, xeyirxah əməllərə can atmaq – davranışın birmənalı xarakteristikası hesab oluna bilər. Adətən, elmi ədəbiyyatlarda motivi əməlin əsası, niyyəti isə əxlaqi qərarın yekun xarakteristikası kimi qiymətləndirirlər, çünki əxlaqi motiv xaricində əməl yoxdur. Yeri gəlmişkən demək lazımdır ki, davranışın yalnız motivlərə görə qiymətləndirilməsi fikri də məhdud səciyyə daşıyır. Məsələ burasındadır ki, bəzən

davranışda bir-birinə zidd olan əməllər özünü büruzə verir.

Deyilənlərə əsaslanaraq etik-gender nöqteyi-nəzərindən davranışda motivlərin rolunu aşağıdakı qaydada qruplaşdırmaq olar:

1) Şəxsi-fərdi motivlərdə ictimai maraqların əks olunması şəxsiyyətin mənəvi-əxlaqi dünyasının zənginləşməsində mühüm rola malikdir. Yalnız azad demokratik cəmiyyətdə bütün sosial qrupların, o cümlədən qadınların mənəvi motivasiyasının, bütün ştrix və elementləri özünə yer tapır. Biz həmin qrupa tələbatları, maraqları, oriyentasiyaları, hərəkətləri, nəticələri, qiymətləri və s. aid edə bilərik.

2) Fərdin və sosial qrupun formalaşması prosesində ideal davranışlardan real davranışlara, motivlərdən fəaliyyət və yeni motivlərə keçid özünün bir sıra keyfiyyətləri ilə diqqəti cəlb edir. Müşahidələr göstərir ki, mötivlərin idraki-analitik funksiyası davranışların (və hərəkətlərin) formalaşması prosesində əxlaqın imperativ funksiyasına istinad edir, onun kommunikativ, proqnostik, requlyativ cəhətlərinə müraciət edir.

3) Davranışlarda motivlər həm də əxlaqi şüurun elementi kimi çıxış edərək, insanların mənəvi-psixoloji münasibətində əsaslı rol oynamaqla mənəvi yadlaşmanın aradan götürülməsinə təkan verir.

Etik-gender münasibətlərdən danışarkən ünsiyyət problemini xüsusilə qeyd etmək lazımdır. Zahirən sadə görünən bu problem özündə olduqca mürəkkəb komponentləri birləşdirir. Ünsiyyət – ictimai həyatın təzahür forması kimi kompleks tədqiqat tələb edir. Əlbəttə ilk ünsiyyət meydanı kimi adətən ailə götürülür. Bu bir faktdır ki, qadınlar özlərinin ilkin “dərslərini” məhz dünyaya göz açdıqları ailə çağında alırlar.

Ümumiyyətlə, hər bir şəxsiyyətin formalaşması bilavasitə onun ilkin tərbiyəsi ilə bağlıdır. Müşahidələr göstərir ki, yüksək ailə tərbiyəsi olan şəxs böyüyən zaman öz davranışı və fəaliyyəti ilə seçilir. Yeniyetmələrin gələcək həyat yolunun müəyyənləşdirilməsində ailə tərbiyəsinin rolu mühümdür. Valideyn qayğısı, diqqət və eləcə də tələbkarlıq burada əsas amillər hesab olunur. Həmin amilləri vaxtilə Hegel "mənəviyyatın ana südü" adlandırırdı. Lakin hər şeydən əvvəl övlad tərbiyə edən valideynin özü yüksək əxlaqa və tərbiyəyə malik olmalıdır. A.S.Makarenko valideynlərə xitabən yazırdı: "Siz öz uşağınızı tərbiyə etməzdən əvvəl, özünüzün davranışınızı yoxlayın" (203: 327). Böyük rus yazıçısı L.N.Tolstoyun fikirləri də deyilənlərlə səsləşir: "Hər bir insana hörmət bəslə, amma uşağa yüz dəfə artıq hörmət et və çalış ki, onun ürəyinin bakirəliyinə xələl gəlməsin" (252: 460).

Ailə üzvlərinin bir-biriləri ilə münasibətində iqtisadi amillər də təsirsiz ötüşmür. Azərbaycanda adambaşına istehlak olunan aylıq ərzaq malları üçün 102263 manat, təhsil üçün 2098 manat, sağlamlıq üçün 7283 manat, istirahət və mədəniyyət üçün 6617 manat, rabitə vasitələri üçün 2509 manat xərclənir (24: 123-135). İqtisadi vəziyyətin aşağı səviyyədə olması bir çox hallarda ailələrdə narazılığın yaranmasına, dava-dalaşa, stressə, hətta boşanmalara səbəb olur. Ən acınacaqlı hallardan biri də budur ki, münaqişə zəminində dağılan ailələrin kişi cinsinə mənsub olan nümayəndələri çox vaxt xarici ölkələrə üz tutur, bir qisim qadınlar isə çətinliklərə tab gətirməyərək yüngül həyat tərzini seçir, pozğunluq, fahişəlik edirlər. Ailələrin dağılmasının nəticələri ağır olur. Bu zaman qadınlar və uşaqlar daha müdhiş səfalətlərlə üzləşirlər.

Sosial və mənəvi davranışların mahiyyətindən, habelə onların formalaşması yollarından danışarkən bu sahədə mühüm rol oynayan ictimai varlıq, əmək bölgüsü, ictimai şüur kimi amillərin təhlili ilə kifayətlənmək olmaz. Axı davranışların formalaşmasında mikromühitin rolu da əhəmiyyətlidir. Açıq demək lazımdır ki, bəzən mühitlə mikromühit arasında disbalans yaranır. Belə ki, bir çox ailələrdə sosial mühitin əlaqə münasibətlərinin təsiri nisbətən zəif, fərdi mühitin deyil, mikromühitin təsiri daha güclü təzahür edir. Məlumdur ki, insan heç bir dünyagörüşə, vərdiş və davranışlara malik olmadan dünyaya gəlir.

M.Cəlilov və M.Məmmədovun qeyd etdiyi kimi, bütün mənəvi keyfiyyətləri və əməli vərdişləri insan həyatda, sosial mühitdə tərbiyə və təcrübə yolu ilə əldə edir. Uşağın dünyagörüşü onun böyüdüyü "mikromühit"in, xüsusilə ailənin, daha sonralar isə məktəb və tərbiyənin təsiri ilə lap körpə vaxtlarından formalaşmağa başlayır. Onun şüuru maddi gerçəklikdən asılı olaraq, bu gerçəkliyin inikası kimi formalaşır. Uşaq şüurunun onun davranış və vərdişlərinin formalaşmasında "mikromühit"in müəyyən qismini təşkil edən dini "sosial" mühitin də əsaslı təsiri olur (44: 9).

Deyilənlərə rəğmən vurğulamaq lazımdır ki, Azərbaycan mühitində qadınların davranışının formalaşması əsasən mikromühitlə bağlı olur. Belə ki, qızlar göz açdıqları ata ocağında tərbiyə alır, evdarlıq işlərini öyrənir, ailənin dərd-sərinə bələd olur. Sonrakı illərdə onun makromühitlə əlaqəsi möhkəmlənməyə başlayır. Bəzi hallarda, ailədə-mikromühitdə qadının mövqeyinin möhkəm olması, onun bütün təşəbbüsləri ələ alması ilə sonuclanır. Qərb-Şərq əxlaqının təbiətindən söhbət açan tədqiqatçı R.Mirzəzadənin qeyd et-

diyi kimi, "qadın kişi üçün hər zaman övlad yaradıcısıdır". Bu amil də qadının əks cinsə qarşı xüsusi təzyiq, bəzi imtiyaz vasitələrindən istifadəsinə şərait yaradırdı. Belə ailədə qadın subyektiv faktor kimi kişini obyektə çevirirdi. Həm Şərq, həm də Qərb tarixində kişi ilə övladlar üzərində hakim mövqedə duran qadınlar bəzən ailə çərçivəsindən çıxaraq hökmdar - ana səviyyəsinədək yüksəlmişlər" (120: 29). Bir çox ailələrdə belə bir tendensiya, yəni qadınların müəyyən üstünlüyə məxsus olması yenə də mövcuddur. Bu isə müəyyən mənada "qanunauyğun" səciyyə daşıyır. Belə ki, ailənin əsas "sükanı" qadının əlində olduğu üçün, uşaqların tərbiyəsi ilə bilavasitə o məşğul olduğu üçün mikromühitdə müəyyən disbalans yananır. Sosioloji tədqiqat və müşahidələr göstərir ki, ailə münaqişələrinin yaranmasının mühüm səbəblərindən biri də ailə daxilində "təsir dairəsi", əslində isə nüfuz dairəsi uğrunda əvvəlcə üstüörtülü, sonralar isə açıq şəkildə gedən "mübarizədir". Bu "mübarizə" sonra tədricən açıq müstəviyə keçir. Nəticədə, ailə daxilində parçalanma baş verir, ata və ana arasında nüfuz bölgüsü uğrunda gedən mübahisə və mübarizə çox vaxt kədərli sonluqla başa çatır, belə ki, ailə dağılır; bundan ən çox əziyyət çəkən isə təbii ki, övladlar olur. Elə bu səbəbdən də ailəyə "ana hegemonluğu" adətən "ata hegemonluğu" qədər təhlükəli hesab edilir.

Hazırda sosiologiya elmi ailənin, bütövlükdə ailə institutunun radikal dəyişikliklərə məruz qaldığını göstərir. Amerika sosioloqu P.Sorokin hələ 1961-ci ildə nəşr etdirdiyi "Müasir ailənin böhranı" adlı əsərində ailənin dağılmasına gətirib çıxaran bir sıra mühüm faktorları ümumiləşdirib təqdim etmişdir; həmin faktorlardan biri də ailə

tərbiyəsində dinin əsaslarının yox olması ilə əlaqələndirilmişdir. Nəticədə, nikahdankənar uşaqların sayı durmadan artır. Müasir Amerika ailəsində boşanma hallarının artması amili də diqqəti cəlb edir. Məsələn, əgər 1965-ci ildə nikahda olan hər min amerikalıya 35, 1980-cı ildə 100 boşanma düşürdüsə, 1990-cı ildə bu rəqəm 138-ə çatmışdır. Başqa bir cəhət də narahatlıq doğurur: ABŞ-da tənha həyat keçirənlərin sayı 1970-ci ildən 12 dəfə artaraq 1989-cu ildə 23 milyona çatmışdır (177: 181-182). Hazırda bu rəqəmlərdə kifayət qədər artım müşahidə olunur. Bu vəziyyət artıq Azərbaycan üçün də səciyyəvi hala çevrilmişdir. Belə ki, ölkəmiz subay yaşı 25-29 arasında olan adamların sayına görə MDB-də ön yerlərdən birini tutur. Hal-hazırda onların ümumi kəmiyyəti 1990-cı illə müqayisədə xeyli artmışdır.

Bu gün ailə daxilində olduğu kimi, cəmiyyətdə də qadınla kişinin fəaliyyət sferası arasında gizli və aşkar rəqabət simptomları nəzərə çarpmaqdadır. Ötən əsrin 80-ci illərindən başlayan demokratikləşmə prosesi cəmiyyətdə qadının mövqeyinin möhkəmlənməsində əsaslı rol oynamışdır. Qadınlar kənd təsərrüfatı və sənayenin, maarif və mədəniyyətin, biznes və ticarətin müxtəlif sahələrində kişilərlə yarışırlar. Hətta bir çox strukturlarda qadınların kişiləri üstələdiyi müşahidə olunur.

Son illərdə qadınlar təkcə elm, istehsalat, ticarət və digər sosial sahələrdə deyil, habelə ictimai təşkilat və siyasi partiyalarda da geniş fəaliyyət göstərirlər. Ə.Abasovun qeyd etdiyi kimi, bircə onu demək kifayətdir ki, respublikada 40-a qədər dövlət qeydiyyatından keçmiş qeyri-hökumət qadın təşkilatı fəaliyyət göstərir. Bütün bunlar tam yeni gender situasiyası doğurur ki, bunu da xüsusi araşdırmağa

ehtiyac var. Konstitusiyamızda qəbul edilən demokratiya və bazar iqtisadiyyatı prinsipləri xalqın milli və konfessional dəyərləri, onun psixologiyası və tarixi inkişafı ilə çox zəif əlaqədədir. Gələcəkdə bu kimi dəyərlər birgə necə mövcud olacaq? Keçid dövründə qadın və kişinin rolları necədir? Bu suallardan çıxış edərək göstərmək olar ki, Respublikada dövlət səviyyəsində qəbul edilmiş və düşünülmüş proqrama əsaslanan müəyyən gender siyasətinə ehtiyac vardır (2: 15).

Qadınların fəallığının və fəaliyyətinin son illərdə artmasına diqqət yetirən tədqiqatçılar bunun səbəblərini də araşdırmağa cəhd göstərirlər. Artıq qeyd etdiyimiz kimi, ən başlıca səbəb olaraq son illərdə demokratikləşmə prosesinin dərinləşməsini vurğulamaq məntiqli hesab olunur. Lakin bir çox gender tədqiqatçıları genderlərarası sosiomədəni genderlerarası keyfiyyət və təşəbbüskarlığın fərqli mövcudluğunda digər amillərin rolunu da göstərirlər məsələn, biznes mədəniyyətinin görkəmli tədqiqatçısı F.Kofsted İsveç dövlətində yaşayıb fəaliyyət göstərən qadınların timsalında apardığı tədqiqatdan belə bir qənaətə gəlmişdir ki, həmin ərazidə yaşayan qadınların hədsiz fəallığı hər yerdə özünü göstərir. Isveç dövləti əslində qadın xarakterlidir, çünki bütün kişi xarakterli mədəniyyətlərdə uğur qazanmaq, pul, mükafat, məqsədyönlülük, əşya və mülkiyyətə sahib olmaq hissləri prioritetdirsə, qadın xarakterli mədəniyyətlərdə şəxslərarası münasibət, həyat keyfiyyəti, ətrafa xeyirxah münasibət, qayğıkeşlik və mərhəmətlilik hissləri daha çox üstünlük təşkil edir. Bir sözlə, qadın xarakterli mədəniyyət cəmiyyətin üzvlərinin qayğısına qalan sosial sistemdir. Bununla belə, dünyada ən yaxşı sayılan sosial təminat sisteminin qorunub saxlanılması isveçlilər üçün asan və ucuz

başa gəlmir. M.Məmmədovun yazdığı kimi, son dövrlərdə ölkə əhalisinin əsasını qocaların təşkil etməsi, qəyyumçuların sayının durmadan azalması, başqalarının hesabına dolananların sayının artması, İsveç sisteminin nöqsansız olmamasını nümayiş etdirir. Demək olar ki, qadın xarakterli sistemin saxlanılması cəmiyyətin üzvləri arasında mövcud olan asimmetriya nə qədər cəlbedici olsa da, bir o qədər də çətinliklərin və narahatçılıqların sayı artır (113: 147).

Ta qədim zamanlardan başlayaraq, kişi və qadınların hüquq bərabərliyi cəmiyyətin və elmin diqqət mərkəzində duran problemlərdən biri olmuşdur. Ən maraqlısı budur ki, qadınların hüququnun pozulmasına qarşı həmişə qadınların özündən çox humanist düşüncəli kişilər çıxış etmiş, öz etiraz səslərini ucaltmışlar. Lakin məsələ burasındadır ki, qadınların hüququnun pozulması bilavasitə kişilərin fəaliyyəti ilə bağlıdır; yəni genderlər arasındakı ayrıseçkiliyin əsasında kişi genderinə mənsub olanların bu və ya digər seçkidə üzə çıxan neqativ əməlləri dayanır. Lakin bir çox tədqiqatçılar qadın probleminin mövcudluğunu inkar edir, sadəcə olaraq qadınların bir çoxunun öz ilkin vəzifələrinin nədən ibarət olduğunu unutduqlarını yazırlar. K.Sarıyevə görə "əslində qadın problemi yoxdur. O vaxt ki, qadınlar öz yerlərini və dəyərlərini bilmirlər, onda özlərini kişilərə oxşatmaq istəyirlər. Qadınlar bilməlidirlər ki, qadınlıq ilk növbədə analıqdır. Əgər bunu başa düşsələr, feminizm hərəkatı da olmayacaq" (146: 18).

Doğrudur, bəzən öz qadın ilkinliyindən uzaqlaşan az qala nəinki hüquqi-mənəvi habelə bioloji amillərə görə kişilərlə rəqabət aparmağa cəhd göstərən qadınlara təsadüf edilir. Qadının öz qadınlığından imtina etməsi təkcə fər-

di-individual səciyyə daşımır; bu ətrafda yaşayıb fəaliyyət göstərən qadınların psixoloji-mənəvi durumuna da öz təsirini göstərir. Qadınların bu istiqamətdə “mütləq bərabərlik” ideyası özünə sosial bəraət qazandıra bilmir. Lakin qadınların müxtəlif iyerarxiya pillələrində sıxışdırılması, vəzifələrə cəlb edilməməsi idarəetmə və icraetmə strukturlarından kənarlaşdırılması ideyası da heç zaman özünə bəraət qazana bilməz. Elmi ədəbiyyatda isə belə bir təklif də səslənir ki, müxtəlif sosial strukturlarda qadın fraksiyaları yaratmaqla qadınlar şüurlu surətdə siyasiləşdirilməlidir (146: 18). Yalnız belə bir yolla qadınların karyera əldə edə biləcəyi fikri vurğulanır.

Sosial və mənəvi davranışların başlıca xüsusiyyətləri barədə danışarkən əmək mədəniyyəti, iş vaxtının səmərəli təşkili və bu sahədə yüksək keyfiyyətli nəticələr əldə edilməsi amillərini də unutmaq olmaz.

Bu gün təsərrüfatın bütün sahələrində qadınlar kişilərlə yanaşı fəaliyyət göstərirlər, lakin bu da faktdır ki, ən çox iaşə və xidmət təsərrüfatı sahələrində qadın əməyindən istifadə olunur, çünki güman edilir ki, məhz həmin sahələrdə qadın əməyinin yüksək keyfiyyəti və estetik cəhətləri qabarıq şəkildə təzahür edir.

Hal-hazırda təsərrüfat sahələrinin böyük bir qismi, zavod və fabriklərin əksəriyyəti işləmir. Ona görə qadınlar işəmuzd, günəmuzd mövsümi işlərdə fəaliyyət göstərməli olurlar. Çox zaman qadınların ehtiyacından sui-istifadə edən idarə və müəssisə rəhbərləri onları müqaviləsiz ağır işə cəlb etməyə çalışır, qadın əməyini istismar edirlər.

İctimai-siyasi həyatda baş verən dəyişikliklər istər-istəməz insanların sosiomədəni həyatında da əks olunur.

Dövlət özünün bütün vətəndaşları kimi qadınların da həyat şəraitinin yaxşılaşması qayğısına qalır. Azərbaycan Respublikası Konstitusiyasında yazıldığı kimi: "Azərbaycan dövləti xalqın hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və ləyaqətli həyat səviyyəsi qayğısına qalır". Mühüm beynəlxalq müqavilə və sənədlərə imza atan Azərbaycan hökuməti öz vətəndaşı qarşısında məsuliyyət daşıyır. Lakin real həyatda bəzən ölkə vətəndaşlarının, xüsusilə qadınların hüququ pozulur. Bəzən bu hallara nəzarət çətinləşir, çünki bu gün Azərbaycan qadınları təkcə öz ölkəsində deyil, ondan çox-çox kənarda da fəaliyyət göstərir, işləyir, bizneslə məşğul olurlar.

Aparılan müşahidə və tədqiqat göstərir ki, Azərbaycan qadınlarının hüquqları təkcə xarici ölkələrdə yox, eyni zamanda ölkə daxilində də tez-tez pozulur. Mövcud müəssisələrdə işləyən qadınlar diskriminasiyaya məruz qalır, onların əmək hüququ pozulur, maaşları vaxtı-vaxtında verilmir. Onların zorakılığa, təhqir və təhdidə məruz qaldığı vaxtlar da az olmur. Əcnəbi qurumların əksəriyyəti isə çalışmaq üçün gənc, enerjili qadınları işə dəvət edir, lakin çox tez-tez onlarla müqaviləni əsassız yerə və ya vaxtından əvvəl pozur, mövcud qanunların tələblərinə tabe olmaqdan boyun qaçırırlar. Bu gün cəmiyyəti narahat edən problemlərdən biri də haqqında söhbət açılan əcnəbi şirkətlərdə sənədləşmə və ünsiyyətin yalnız xarici dillərdə aparılmasıdır.

Qadın əməyinin diskriminasiyaya məruz qalmasına misal olaraq yerli müəssisələrdə "yazılmamış qanunların" mövcudluğunu da misal göstərmək olar. Bildiyimiz kimi, qadınlar doğumla əlaqədar olaraq müəyyən vaxtlarda analıq məzuniyyətinə çıxmalıdırlar. Lakin onların uzunmüddətli məzuniyyət götürməsi işlədiyi idarələrin rəhbərləri tərəfin-

dən birmənalı qarşılanmır. Müdirlər çox vaxt öz idarələrində kişilərin işləməsinə üstünlük verir, müxtəlif bəhanələrlə, bəzən ən layiqli mütəxəssis qadınları belə işlə təmin etməkdən imtina edirlər. Tədqiqatçı M.Mahmudovun qeyd etdiyi kimi, bu məsələdə ezamiyyət "probleminin" də az rolu olmur. Məsələn, kişi "təbiətinə" daha uyğun hesab olunan ezamiyyətlərə qadınların cəlb olunması çox vaxt xoşagəlməz söz-söhbətlər doğurur ki, bu da Azərbaycan şəraitində ailəli qadınların və ya ərə getməyə hazırlaşmış qızların xoşuna gələ bilməz. Lakin bu da faktdır ki, "ezamiyyət təcrübəsinə" malik olanların sürətlə karyera qazanması nisbətən asan başa gəlir. Ona görə də bu cür qanuni vasitələrdən istifadə edə bilməyən bir qisim qadınlar vəzifə pillələrində yüksəlmək üçün başqa vasitələrlə hərəkət etməyə üstünlük verir və ya buna məcbur olur (113: 149-150).

Konstitusiyaya görə Azərbaycan Respublikası dünyəvi dövlət hesab olunsa da, bəzən iqtisadi çətinliklərin girdabına düşən insanlar bir çox hallarda fanatizmin qurbanına çevrilirlər. Bəzi dini icmalar və təşkilatlar vətəndaşların, xüsusən qadınlarının vəziyyətinin ağırlığından istifadə edərək, onları bu və ya digər dini təriqətlərə cəlb edirlər. Buna misal olaraq bir neçə missioner qurumların fəaliyyətini qeyd etmək olar. Belə ki, "J.Yehova şahidləri", "Həyat sözü" xristian təriqətlərinin, lüteran və baptist kilsələrin Azərbaycandakı fəaliyyətinə birmənalı qiymət vermək olmaz. Bunların fəaliyyətlərinə dövlət səviyyəsində nəzarət olmasa, nəticələr o qədər də ürəkaçan olmaya bilər.

Son zamanlar bir sıra mətbuat orqanlarında islam doktrinasından çıxış edərək "orijinal" təkliflər irəli sürən şəxslərə, qruplara, habelə mətbuat nümayəndələrinə təsadüf edirik. Onlar qadınları kütləvi surətdə yenidən baş örtüyünə

(çadraya) dəvət edir, kişiləri "çoxarvadlılığa" (hətta, "dördarvadlılığa") sövq edən fikirlərə bəraət qazandırmağa təşviq edirlər. Qadını təhsildən, mədəniyyətdən uzaqlaşmağa çalışan çağıran sloqanlar da eşidilməkdədir. Lakin bu cür cahil çağırışlar ictimaiyyətin əksər nümayəndələri tərəfindən haqlı olaraq qınaq və tənqid hədəfinə çevrilir.

Son illərdə Azərbaycanda qadın hüququ və azadlığı ilə bağlı daxili qanunvericilikdə bir sıra mühüm dəyişikliklər edilmiş, beynəlxalq sənədlərə imza atılmışdır. Bu gün ölkədə kişi-qadın ayrıseçkiliyinə hüquqi cəhətdən son qoyulmuş, hər iki cinsin bərabərliyi Konstitusiya ilə təsbit edilmişdir. Əhalinin 51 %-ni (25: 47) təşkil edən qadınlar (onların sayı 2003-cü ilin statistik məlumatına görə 4.179.500 nəfər olmuşdur) cəmiyyətin həyatında bir çox sahə və istiqamətlərdə kişilərlə çiyin-çiyinə çalışırlar. Lakin obyektivlik naminə demək lazımdır ki, ölkə həyatında bəzi məqamlarda qadın passivliyi, absenteizm əlamətləri, laqeydlik halları kəskin şəkildə müşahidə olunur. Elə bunun nəticəsidir ki, qadınlar seçki prosesində kişilərlə müqayisədə zəif iştirak edirlər. Heç də təsadüfi deyildir ki, məhz bu sadalanan cəhətlərə görə icraedici və qanunverici orqanlarda qadınların sayı az olur. Millət vəkilləri və bələdiyyə nümunayəndələri arasında qadınların azlığı da diqqəti çəkir. Lakin həqiqət naminə demək lazımdır ki, son illərdə mövcud vəziyyət yaxşılığa doğru dəyişmiş, qadınların ictimai-siyasi həyatda rolu müəyyən dərəcədə artmışdır.

Ölkə prezidentinin qadınların ictimai-siyasi həyatda fəaliyyətinin artırılmasına yönələn, habelə Konstitusiyanın verdiyi hüquqları müdafiə edən qanun, fərman və sərəncamları mühüm əhəmiyyət daşıyır. Onların ən mühümləri aşağıdakılardır:

14 yanvar 1998-ci il tarixli – Azərbaycan Respublikası prezidentinin "Azərbaycan Respublikasının qadın problemləri üzrə dövlət komitəsinin yaradılması haqqında" 668 saylı Fərmanı; 14 yanvar 1998-ci il tarixli – Azərbaycan Respublikası prezidentinin "Azərbaycan qadınlarının rolunun artırılmasına dair tədbirlər haqqında" 727 saylı Sərəncamı; 20 fevral 1998-ci il tarixli - Azərbaycan Respublikası prezidentinin "Qadın problemləri üzrə dövlət komitəsi haqqında əsasnamənin təsdiqi barədə" 676 saylı Sərəncamı; 13 fevral 1998-ci il tarixli – Azərbaycan Respublikası Nazirlər Kabinetinin Azərbaycan respublikası prezidentinin 14 yanvar 1998-ci tarixli 727 saylı sərəncamının icrasını təmin etmək məqsədilə" 173 saylı Sərəncamı; 1 fevral 1999-cu il tarixli - "Azərbaycan Respublikasının əmək məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüququ tənzimləmə məsələləri haqqında" Qanunu; 15 aprel 1999-cu il tarixli – "Azərbaycan Respublikası prezidentinin" Əmək Məcəlləsinin tətbiq edilməsi haqqında" 122 saylı Fərmanı; 28 dekabr 1999-cu il tarixli - "Azərbaycan Respublikasının Ailə Məcəlləsinin təsdiq edilməsi qüvvəyə minməsi və bununla bağlı hüququ tənzimləmə məsələləri haqqında" Qanunu; 6 mart 2000-ci il tarixli –Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikasında Dövlət Qadın Siyasətinin həyata keçirilməsi haqqında" 289 saylı fərmanı; 6 mart 2000-ci il tarixli-Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikasının Qadın problemləri üzrə milli fəaliyyət planı: 2000-2005-ci illər" 33 saylı Qərarı qüvvəyə minmişdir.

Qeyd edilən qanunvericilik aktları Pekin Fəaliyyət Platformasını qəbul etmiş Azərbaycanda qadın problemləri

və gender münasibətləri ilə bağlı ictimai şüurda əhəmiyyətli irəliləyişlərə təkan vermişdir (127: 178-179).

Uzun müddət ictimai-siyasi fəaliyyətlə məşğul olmuş politoloq, iqtisadçı D.Camalovanın qeyd etdiyi kimi, Azərbaycan Respublikası prezidentinin xüsusən 6 mart 2000-ci il 289 saylı "Azərbaycan Respublikasında Dövlət Qadın Siyasətinin həyata keçirilməsi haqqında" Fərmanı qadınların hüquqlarının müdafiəsi, onların bilik və bacarıqlarından, potensialından səmərəli istifadə üçün qadınlara olan qayğının bariz nümunəsidir.

Fərmandan dərhal sonra 25 aprel 2000-ci il tarixdə rayon İcra Hakimiyyəti başçılarına, 26 sentyabr 2000-ci il tarixdə isə 176 saylı qərarla nazirlik və komitələrə tapşırıqlar verilmişdir. Tapşırığın qayəsində qadınların rəhbər vəzifələrə irəli sürülməsi məsələsi dururdu.

Qadın Problemləri üzrə Dövlət Komitəsi, ölkə prezidentinin fərman və sərəncamlarının, xüsusilə Dövlət Qadın Siyasəti haqqında fərmanın yerlərdə icra vəziyyətini öyrənmiş, aşağıdakı nəticəyə gəlmişdir: 82 rayon üzrə alınan cavablardan məlum olur ki, adı çəkilən fərmanın yerinə yetirilməsi üçün yerlərdə şəhər və rayon İcra hakimiyyətinin böyük əksəriyyəti zəiflik göstərir və ya ümumiyyətlə iş aparmırlar.

Daxil olan məlumatdan aydın olur ki, 82 rayonda əhalinin 4.024.362 nəfəri qadındır. Onlardan təqaüd alan qadınların sayı 670.409 nəfər, əlil qadınların sayı – 104.864 nəfər, işsiz qadınların sayı 977.047 nəfər, işsizlərdən rəsmi qeydiyyatda olanların sayı 282.102 nəfər, işləyən qadınların sayı 899.746 nəfərdir (43: 97).

Qadınların gündəlik həyatlarının ritmi ən çox onların davranışlarında əks olunur. Başqa sözlə, davranışlar həyat

tərzi ilə çuğlaşaraq az qala yaşayış normasına çevrilir. Lakin bir çox hallarda qadınların həyat səviyyəsinin aşağı olması, gündəlik qayğıların bolluğu onların sosial və mənəvi davranışlarının formalaşmasına mənfi təsir göstərir. Özündə bir şəxsin, habelə kollektiv təşkilat və böyük insan kütləsinin hərəkətlər məcmusunu ehtiva edən davranışlar daim sosial mahiyyət daşıyır.

## 1.3. Etika və gender nöqteyi-nəzərindən davranışın normaları

Norma və davranışları etik-gender nöqteyi-nəzərdən təhlil edərkən qadın-kişi münasibətlərinə xüsusi diqqət yetirmək zərurəti yaranır. Normanın əxlaqi tələbkarlığın adi formalarından biri olduğu aksiomadır. Normanın habelə, əxlaqi münasibət və əxlaqi şüurun ünsürlərindən biri kimi çıxış etdiyi də məlumdur. Adətən, bütün cəmiyyətlərdə fərdlərə onların mövcud norma və davranışlara necə əməl edib-etməmələrinə görə qiymət verilir. Bu amillərin formalaşmasına isə çox vaxt şəxsi nümunə və ictimai rəy təkan verir. Təbii ki, əxlaqi norma və davranışlara mövcud işlək qayda-qanunların, başqa sözlə, dissiplinaların da təsiri böyükdür.

Norma və davranışların formalaşmasında əsaslı rol oynayan qaynaqları şərti olaraq iki yerə bölmək olar: elmi-dünyəvi və dini qaynaqlar. Onların hər ikisinin məqsədi eyni, lakin həyata keçirilmə vasitələri müxtəlifdir. Şərq ailələrinin təşəkkül və formalaşmasında hər iki amilin rolu böyük olsa da, nə dini, nə də elmi (və eləcə də bədii) əsərlərdə qadının rolu yetərincə qiymətləndirilməmişdir.

Heç şübhəsiz ki, artıq qeyd etdiyimiz kimi, qadın-kişi münasibətlərinin gələcək rəhni ailə ocağı – ailə institutu üzərində yüksəlir. Böyük hind yazıçısı R.Taqor özünün məşhur "Qadın" əsərində yazırdı: "Ailə-istənilən cəmiyyətin və istənilən sivilizasiyanın əsas özəyidir" (250: 332). Bu həqiqətən belədir, lakin ailə institutu heç də boş yerdə yaranıb cilalanmır. Hər bir konkret ailə "strukturunun", "sisteminin" kökündə ailə ənənəsi, ailə dinastiyası dayanır. Nikaha girən qadın və kişinin aldığı tərbiyə, keçdikləri həyat yolu ailənin gələcək uğur və ya uğursuzluqlarında böyük rol oynayır. Burada ilk növbədə ailə quran tərəflərin mənsub olduqları davranış, əxlaqi normalar inkaredilməzdir. Məhz ailələrin dağılmasına səbəb olan başlıca amillər qrupuna mövcud adət və ənənələr, xarakter və xasiyyətlər arasındakı fərqlər, həmçinin dözümsüzlük, inadkarlıq, mənəvi kasıblıq və s. xüsusiyyətlər daxildir. Dahi fransız yazıçısı O.Balzak "Hersogine de Kastri" əsərində belə yazır: "Əgər evlənənlər ittifaqa girənə qədər bir-birlərinin adətlərinə, xasiyyətlərinə və xarakterlərinə yaxından bələd olmasalar, onların nikahı xoşbəxtlik gətirə bilməz" (163: 552).

Əlbəttə ailə xoşbəxtliyinin, ər-arvad səadətinin bir yox, bir neçə, bəlkə də onlarla səbəbi vardır. Yeni qurulan ailələr, adətən bir çox çətinliklər və anlaşılmazlıqlarla qarşılaşırlar. Bunların bir çoxu məişət zəminində, əksəriyyəti isə xarakter və davranışların uyğunsuzluğu əsasında yaranır. Atalar sözündə deyildiyi kimi, tərəflərdən biri "od" olanda, digəri "su" ola bilmir. Qarşılıqlı güzəştə gedə bilməyən ailələr gec-tez dağılmaq təhlükəsi ilə üzləşirlər.

Azərbaycan ailəsi möhkəm tarixi-ənənəvi köklərə malik olsa da, son illərin sosial-iqtisadi təhlükəsi ondan da

yan keçməmişdir. Deyildiyi kimi torpaqlarının iyirmi faizini itirmiş, əhalisinin bir milyonu qaçqınlıq taleyi yaşayan Azərbaycan vətəndaşları çadır və vaqonlarda yaşamağa məhkum olmuşdur. Yeni, dözülməz həyat tərzi ailələrin həyatında ağır izlər qoymuşdur. Belə ki, əsrlər boyu formalaşmış ər-arvad, qadın-kişi, övlad-valideyn münasibətləri yeni keyfiyyət dəyişikliklərinə məruz qalmışdır. Yeni həyat tərzinin gətirdiyi yeni "davranış" normaları istər-istəməz tarixən oturuşmuş, möhkəmlənmiş gender münasibətlərində özünün yeni çalarları ilə əks olunur. Axı, hər bir davranış xətti özündə davranışlar "piramidasının" müxtəlif elementlərini qoruyub yaşadır. Davranış insanı mühitlə, cəmiyyətlə bağlayan mühüm amillərdən biridir. Məhz buna görə də davranışın sosial mahiyyətindən söhbət açarkən onu cəmiyyətdən təcrid olunmuş hadisə kimi təqdim etmək düzgün deyildir. Cəmiyyətin bütün üzvləri, o cümlədən qadınların taleyi cəmiyyətin taleyi ilə qırılmaz tellərlə bağlıdır. Cəmiyyətin inkişafında isə, yaxşı məlumdur ki, ictimai münasibətlərin mövcud tiplərinin bir-birini əvəz etməsi əsaslı rol oynayır. Əlbəttə əxlaq haqqında danışarkən, heç də hər genderin özünəməxsus "əxlaq kodeksinə" malik olduğunu iddia etmək olmaz. Kişi və qadın əxlaqı eyni müstəvidə formalaşdığı üçün onların mahiyyəti də eynidir, lakin hər iki genderə aid olan əxlaqi amillərin nisbi müstəqilliyinin mövcudluğu da inkaredilməzdir. Əxlaqın müxtəlif funksiyaları davranışın tənzim edilməsində qeyri-bərabər rol oynayaraq, adətən qarşılıqlı surətdə kəsişir. Psixologiya və etikadan yaxşı məlumdur ki, əxlaqın dərketmə funksiyası davranışın tənzimetmə funksiyasına, başqa sözlə desək, qiymətləndirmə, imperativ funksiyasına tabe edilir. Məhz

buna görə də əxlaqın tələblərində elə bilik vardır ki, bu bilik davranışın müəyyən növünün məcburiliyinin emosional şəkildə qəbul olunmasına çevrilmişdir. “Əxlaq eyni zamanda insanların gündəlik həyat fəaliyyətində normativ məqsədlilik funksiyasını yerinə yetirir. Onlara öz davranışına əxlaqi motivlərin... köməyi ilə haqq qazandırmaq imkanı verir. Mötivlərin təmizliyi, yüksəkliyi şəxsiyyətin əxlaqi davranışının mühüm elementidir” (216: 208).

Davranışın tərəflərinin tənzimindən danışarkən, biz əxlaqi norma, qayda və prinsipləri xüsusi qeyd etməliyik. Normaların məzmunu haqqında söhbət açılarkən burada çox zaman iyerarxik strukturdan bəhs edirlər. Həmin normalara misal olaraq qənaətçillik, paxıllıq, qənimətçilik və s. göstərilir. Prinsiplərə isə insanların davranışının bütün xətlərini ehtiva edən mənəvi tələbat və tələblər aid edilir.

Bu cəhətdən qənaətçilik norması diqqəti cəlb edir. Aydın məsələdir ki, hər bir fərd cəmiyyətdə xoşbəxt həyat sürmək istəyir. Bir çoxları xoşbəxtliyin açarını yalnız maddi nemətlərin bolluğunda, daha doğrusu, gen-bol istehlakda görürlər. Həmin problemə yanaşmada qadın və kişi münasibətlərində kəskin fərqlər olmasa da, bəzi məqamları nəzərdən keçirmək vacibdir. Bir məsələni qeyd etmək yerinə düşərdi ki, bir çox elmi və eləcə də bədii əsərlərdə qənaətcillik çox zaman mənfi hadisə kimi qiymətləndirilir. Əlbəttə xəsislik, pulgirlik, mal-mülkə hədsiz meyl heç də müsbət hal kimi qiymətləndirilə bilməz. Lakin ifrat “səxavətlilik” də təqdir edilə bilməz. Məhz buna görə də həssas bir məqama diqqət yetirmək lazımdır: qənaətçillik heç də xəsislik deyildir; bu anlayış yəni xəsislik qənaətçilliyin yox, qənimətçilliyin ekvivalentidir. Qənimətçillik çox vaxt haqlı olaraq sosial bəla kimi tənqid edilir.

Aparılan müşahidələr göstərir ki, ümumiyyətlə, qadınlar əksər hallarda qənaətçilliyə daha meyllidirlər. Bu isə bir növ "qanunauyğun" hesab olunmalıdır. Məsələn, Azərbaycan ailəsində ev-ailə qayğılarının böyük yükü qadının çiyninə düşür. Kişilərin əksər hissəsinin istehsalatın müxtəlif sahələrində çalışması qadınların ailə daxilində fəaliyyətinin genişlənməsinə səbəb olur. Görünür, elə bu səbəbdəndir ki, qadınlar öz övladlarının gələcəyi, xalq arasında deyildiyi kimi, "pis gün" haqqında fikirləşməli olurlar. Azərbaycan ailəsində qadınlar öz övladlarının hələ lap körpəlik çağlarından onların gələcək həyatı üçün hazırlıq görürlər. Bir çox hallarda analar toy-nişan üçün erkən "axtarışlar" aparır, qənaətçillik edirlər.

Hər bir hərəkətin, əməlin əsaslandırılıb mötivləşdirilməsi mümkündür. Adətən, motivi davranışın əxlaqi cəhətdən, dərk edilmiş niyyəti kimi səciyyələndirirlər. Motivlə hərəkətin vəhdəti, ayrıca lokal davranış aktında deyil, "davranış xətti" adlanan sistemə daxil edilən əməllərin məcmusunda aşkarlanır. Etik-psixoloji nöqteyi-nəzərdən insanın bütövlükdə götürülmüş "davranış xətti"ndə mühüm, əsas, həlledici əməllər mövcuddur. Biz tarixdə buna aid yüzlərlə, minlərlə misal göstərə bilərik. Xüsusən, Azərbaycan qadınlarının timsalında şəxsi şücaət və qəhrəmanlığa örnək ola biləcək məqamlar az deyildir. Elə təkcə son illərdə, Ermənistan-Azərbaycan münaqişəsi zamanı düşmənə qarşı mərdliklə vuruşan, döyüş xarüqələri göstərən, kənd təsərrüfatı və sənayedə kişilərlə çiyin-çiyinə çalışan, övlad böyüdən, gecə-gündüz zəhmət çəkib özünü və ailəsini dolandıran qadınların əməli yüksək əxlaq və davranış nümunələri kimi dəyərləndirilə bilər. Bununla belə, cəmiyyə-

tin yaşadığı keçid dövrü qadın-kişi münasibətlərində heç də hər şeyin rəvan getdiyini iddia etməyə əsas vermir. Həmin müstəvidə gender ziddiyyətlərinin mövcudluğu diqqəti cəlb edir. Filosof Z.Quluzadənin həmin problemlə bağlı söylədiyi mülahizələr öz obyektivliyi, dəqiqliyi ilə seçilir: “Bir sıra ailələrdə, təəssüf ki, uşaqlara və xüsusən qızlara qarşı mövcud patriarxal münasibətlərin gücləndiyi müşahidə edilməkdədir: qız uşağının dünyaya gəlməsi o qədər də arzu olunmur; üstəlik, qızı bir çox ailələrdə lap balacalığından onun rifah, namus və ləyaqətinin müdafiəçisi kimi ata və qardaşına itaət ruhunda tərbiyə edirlər. Ailədə olan ən yaxşı şey oğlana – nəslin davamçısına verilir...

Qardaş ilə bacı arasındakı fərq yeniyetməlik dövründə daha da artır. Oğlana hər şey – siqaret çəkmək, içki içmək, cinsi əlaqədə olmaq qüsur sayılmır, çünki deyilənlər böyüməkdə olan gələcək kişi üçün bu, norma hesab edilir, amma qıza bütün bunlar qəti şəkildə qadağan edilir... Qızın nikaha qədər cinsi əlaqədə olması təkcə qız üçün yox, eyni zamanda bütün ailə, bəzi hallarda isə qohum-əqraba uçün də faciəyə və rüsvayçılığa çevrilir. Bu cür hal aşkar olduqda, mentalitet qıza qarşı, az qala, ölüm də daxil olmaqla, psixoloji və fiziki zorakılığın bütün formalarını məqbul sayır. Bu halda qıza qarşı əxlaq qanunları kənd yerlərində daha amansızdır” (110: 78). Təbii ki, ailə institutu çərçivəsində baş verən bu cür hallar cəmiyyətə də öz təsirini göstərir və sözün geniş mənasında qarşılıqlı səciyyə daşıyır.

Davranış probleminin sosial mahiyyəti filosof və psixoloqlar tərəfindən müxtəlif parametrlər üzrə müxtəlif cür şərh edilmişdir. Əgər mütəxəssislərin bir çoxu davranışların əsasında sosial amillərin rolunu əsas götürürlərsə, digər

qismi fərdi cəhətləri önə çəkir. Məsələn, sosioloq B.Skinner belə hesab edir ki, müasir mürəkkəb problemlərin əsasını istehsal və sosial münasibətlər sahəsində deyil, yalnız davranışlarda axtarmaq lazımdır. Məhz buna görə də bu gün dünyanın qarşılaşdığı əsas problemləri yalnız insan davranışlarının yaxşılaşması ilə həll etmək olar (325: 8). Skinner belə hesab edir ki, davranışlar haqqında xüsusi olaraq yeni bir elm yaratmaq lazımdır; o, "davranış texnologiyası" adlandırdığı həmin elmin vasitəsilə davranışların proqramlaşdırılması və cəmiyyətin idarə olunmasında "effektli sivilizasiyanın" yaranacağını iddia edir.

Skinnerin təliminin əsaslandığı biheviorizm nəzəriyyəsinin tərəfdarları davranışların formalaşmasında insanın daxili aləmini (emosiya, hiss, duyğu və s.) nəzərə almadan, yalnız ətraf mühitin rolunu qeyd edirlər. Məntiqlə belə bir nəticəyə gəlmək olur ki, həmin baxışın mübəlliğləri insanın psixi fəallığını tamamilə inkar edərək mexaniki-bioloji amilləri önə çəkirlər. Sosial mühitin insan davranışlarında mühüm determinant olduğunu qeyd edənlər genetik amillərin mövcudluğunu yalnız xatırlatmaqla kifayətlənir, onun mühüm rolunu isə "unudurlar". Düzdür, Skinner klassik biheviorizmdən fərqli olaraq mühitin davranışlara mütləq təsirinə qarşı çıxır, lakin o, insanın məqsədyönlü fəaliyyətə yönələn qabiliyyətini qiymətləndirə bilmir. Skinner davranışların formalaşmasının təkcə fərdə deyil, ətraf mühitə də təsir göstərə biləcəyini istisna etmir. Lakin o, mühitin dəyişdirilməsinə heç bir zərurət duymur. Onun "davranış texnologiyası" şəxsiyyəti nəinki azadlıq, habelə ləyaqət hissindən "azad" edir.

Cəmiyyətdə mütəmadi təkrarlanan situasiyalarda insanlar çox tez-tez eyni vəziyyəti, eyni hərəkəti olduğu kimi tək-

rarlamaq məcburiyyətində qalırlar. Daha doğrusu, bu “məcburiyyət” bir növ ehtiyaca, tələbata çevrilir. Həmin tələbatlar isə əxlaqi-etik normalar vasitəsilə həyata keçirilir.

Mütəxəssislər çoxdan sübut etmişlər ki, bir cəmiyyətə (eləcə də xalqa, qrupa) kişilərə xas olan davranış və normalar, digər cəmiyyətdə tamamilə başqa şəkildə, “qadınlara məxsus olan” norma və davranışlar kimi qəbul edilir. Ümumiyyətlə, insan dünyaya göz açdığı vaxtdan etibarən kişi və qadın davranış normalarının “bölgüsü” ilə üzləşir, bir növ “gender sisteminin” öbyektinə çevrilir. Belə ki, uşaqların valideynləri hələ ilkin mərhələdə onlara “kişi və qadına məxsus” ümdə davranış qaydalarını öyrədir, nəyin məqbul və ya nəyin qəbuledilməz olduğunu izah edirlər. Sonrakı mərhələdə cəmiyyət özü “gender balansını” təmin edərək öz vətəndaşlarının şüuruna müxtəlif vasitələrlə təsir göstərir, kişi və qadın davranışının müxtəlif aspektlərini formalaşdırır. Nəticədə, cəmiyyətin bütün sosial sfera və sosial pillələrində qadın və kişiyə məxsus olan davranış normaları rəsmiləşdirilir. Hətta yalnız qadınlara məxsus ola biləcək peşə və sənətlər haqqında təsəvvürlər yaranır.

Heç kəsə sirr deyildir ki, məsələn, poladəridən, inşaatçı, yükdaşıyan, tokar, çilingər, dülgər, santexnik və s. peşələrdə çalışan kişilərin sayı qadınlara nisbətən qat-qat çoxdur. Lakin həkim, müəllim, tərbiyəçi, xidmətçi, satıcı və s. peşələrdə qadınların sayının üstünlük təşkil etdiyi də məlumdur. Sanki peşə və sənətlər qadınlar və kişilər arasında əvvəlcədən, “könüllü” şəkildə bölüşdürülmüşdür. Əslində, isə bu cür “bölgü” sırf nisbi səciyyə daşıyır. Buna konkret misal kimi bank xidməti işçilərini göstərmək olar. Nədənsə keçmiş SSRİ-də belə bir fikir formalaşmışdı ki,

bankda məhz qadınlar çalışmalıdır, amma postsovet məkanında bank xidməti sahəsində qadınlardan daha çox kişilərin çalışdığı diqqəti cəlb edir. Bu cəhətdən qadınların siyasi həyatdakı mövqeyi və fəaliyyəti də diqqəti cəlb edir. Belə ki, cəmiyyətdə uzun illərdən bəri formalaşmış streotipləri real zəmində baş verən proseslər alt-üst edə bilər. Adətən, qadınların siyasi fəaliyyətini lazımi səviyyədə anlayıb qiymətləndirə bilməyən sosial qruplar siyasətin "kişi işi" olduğunu iddia edirlər. Halbuki tarixdən bizə məlumdur ki, bir çox ölkələrin başında uzun müddət qadın hökmdarlar dayanmışdır. Üstəlik onların bəzisi qəddarlıq, təmkin, cəsarət, risk və s. "kişilərə xas" cəhətlərə görə kişilərdən heç də geri qalmamışlar.

Müasir dövrdə qadınların hakimiyyətdə olması, dövlət idarəçiliyində fəallığı heç kəsdə təəccüb doğurmur. Hətta bir çox region və ölkələrdə qadın "hökmranlığı" açıq-aşkar görünür. Məsələn, Skandinaviya ölkələrində idarəetmənin bir çox pillələrində qadınların kəmiyyəti üstünlük təşkil edir. Ümumiyyətlə, qadın-kişi fəallığının artıb-azalması müəyyən mənada qeyri-sabit səciyyə daşıyır: Dünən qadınların fəallığının yüksək olduğu bir sahədə, bu gün kişi dominantlığı nəzərə çarpa bilər. Bu cür halların yaranmasının isə çoxlu obyektiv və subyektiv, habelə sosial mahiyyət kəsb edən cəhətləri vardır. Bu cəhətdən təhsil sistemində son illərdə baş verən dəyişikliklər özlüyündə maraq doğurur. Məsələn, R.İbrahimbəyovun qeyd etdiyi kimi, Azərbaycanda 1995-ci ildən bəri ali məktəblərə qəbul olan kişilərlə qadınların sayı arasında kişilərin xeyrinə olan fərq sabitləşmişdir (1,1 dəfə). Nəzərə almaq lazımdır ki, sənəd verən qızların sayı oğlanların sayını üstələyir.

Müəllif göstərir ki, rəsmi statistika sistemində gender cəhətdən təfərrüatlı göstəricilərin məhdudluğuna baxmayaraq, test üsulu ilə keçirilən və kompüterlərlə hesablanan ali məktəblərə qəbul imtahanları ilə bağlı göstəricilərdə 1997-ci ildən etibarən bütün parametrlərinə görə seqraqasiya hiss olunur. Aşkar olunmuşdur ki, qızlara nisbətən oğlanlar daha yüksək bal toplayırlar, qızların nəticələri isə, əsasən, orta bal səviyyəsində qalır. 1997-98 təhsil ilində dövlət statusu almış özəl universitetlərə daxil olmuş tələbələrin 46,5 %-ni qızlar, 53,4 %-ni oğlanlar təşkil etmişlər.

Təhsil sahəsində çalışan qadınların sayı 1990-cı illə müqayisədə artaraq 1996-cı ildə 65 %-ə çatmışdır. DSK-nin verdiyi məlumata görə, 1998-ci ildə təhsil sahəsində qadın və kişilərin nisbəti 65,5 % və 34,5 % olmuşdur, lakin təhsilin inzibati idarəetmə sahəsində kişilərin 6:1 kimi böyük üstünlüyü var. Dövlət və özəl universitet rektorları arasında qadınlar təxminən 5 % təşkil edirlər. Prorektorlar arasında isə, qadınların sayı nisbətən çoxdur.

1997-ci ilin əvvəllərində ali təhsil və elmi-tədqiqat müəssisələrində təhsil alan aspirantların 28,2 %-i qadın olmuşdur. Qeyd etmək lazımdır ki, 1993-1997-ci illər ərzində aspirantların sayı sabit 1280 ədədi ətrafında dəyişsə də, onların arasında qadınların sayı durmadan azalmışdır (83: 50).

Daha sonra müəllif (R.İbrahimbəyova) Ali Attestasiya Komissiyasının verdiyi məlumata istinad edərək bildirir ki, Azərbaycanda 1997-ci ildə elmi ad alanların içərisində qadınların payı yüksəlmişdir.

Elmdə gender disbalansına zəmin hazırlayan bir proses olan qadın aspirantların sayının azalması yaxın gələcəkdə qadın-alimlərin azalmasına gətirib çıxara bilər.

Elmdə gender nisbəti 1992-ci ildən sonra bu sahədə çalışan qadınların payının azalması istiqamətində də dəyişmişdir. 1998-ci ilin əvvəlinə olan məlumata görə, elmi-tədqiqat, layihə-konstruktor və texnoloji işlərlə məşğul olanların 40,8 %-i qadın, 59,2%-i kişi olmuşdur.

Qadınlar elmlər doktorlarının 10 %-ni (kişilər -90 %), elmlər namizədlərinin 29,9 %-ni (kişilər-70,1 %;) təşkil etmişlər. Müxtəlif elm sahələrində müəyyən gender disbalansını müşahidə etmək olar. Məsələn, hərbi elmlər sahəsində (100 %) bu disbalans maksimaldır və kişilərin xeyrinədir, memarlıq (67,4), incəsənət (56,1), psixologiya (56,1), biologiya (53,4) sahələrində isə, qadınların üstünlüyü gözə çarpır. Bütün elm sahələrində elmlər doktoru elmi dərəcəsi almış kişilərin sayı mütləq üstünlük təşkil edir (83: 51).

Elmə ayrılan xərclərin azalması və ümumiyyətlə, elmi işlərə tələbatın azalması alimlərin, o cümlədən də qadınların bu sahədən uzaqlaşmasına gətirib çıxarır. Hazırki dövrdə elm, bazar münasibətləri sistemində özünə yer tapa bilmir və elmin təşkili sahəsində qlobal islahatlara böyük ehtiyac duyulur.

Qadın-şəxsiyyət məsələləri uzun illər sosial mahiyyət kəsb edən bir problem kimi fəlsəfi-əxlaqi və ədəbi-bədii fikrin diqqət mərkəzində olmuşdur. Bu mənada norma və davranışların bədii-estetik inikası nəzərdən keçirilsə, maraq doğurmaya bilməz.

Azərbaycan xalqının şifahi və yazılı ədəbiyyat nümunələrində qadın həyatı, qadın taleyi daim aparıcı yerləri tutmuşdur. Bunun ən tutarlı nümunəsi kimi ilk yazılı abidəmiz "Kitabi-Dədə Qorqud"u götürmək olar. Oğuz tayfalarının dilində yazılmış bu əsərdə Oğuz bəyləri ilə mübarizə aparan düşmən tayfalarının geniş təsviri fonunda qadın ob-

razları da diqqəti cəlb edir. Qadın və kişilərin qəhrəmanlıq ruhu əsərdə güclü, kaloritli boyalarla işlənmişdir. Ən maraqlısı isə budur ki, Dədə Qorqud igidlik göstərməyən övladlara – oğul və qızlara ad qoymaqdan imtina edir. Yalnız qəhrəmanlara onların layiq olduğu adlar verilir.

Qadın obrazlarının geniş təsvir və təqdim edildiyi şifahi xalq nümunələrindən biri də "Koroğlu" qəhrəmanlıq dastanıdır. Tədqiqatçı Y.İsmayılovanın qeyd etdiyi kimi, "Koroğlu" dastanındakı qəhrəman-sevgili münasibətlərini bir epik ənənə başlanğıcı baxımından "Kitabi-Dədə Qorqud"da görürük. Bu xüsusilə Beyrək-Banuçiçək süjetində işıqlandırılır və qadınların epik təsvir cizgiləri "Koroğlu" eposundakı qadın obrazlarının təsvir cizgilərində də "təkrarlanır". Yəni Dədə Qorqud eposundakı qızlar igid, qəhrəman, at minən, qılınc oynadan, ox atan, güləşən qızlar olduğu kimi, "Koroğlu" dastanındakı qadınlar da eyni igidliklər göstərməyə qadirdir. Məhəbbət dastanlarındakı passiv qadın obrazlarının əvəzində, burada qəhrəman qadın obrazlarını görürük. Başqa cür ifadə etsək, dastanın tipinə görə qəhrəmanlıq təkcə kişilərin yox, eyni zamanda qadın obrazların davranışında da ifadə olunur. Beləliklə, "Koroğlu" dastanı bütün personajlar sistemində qəhrəmanlığı nümayiş etdirir (87: 84-85).

Müəllifin yazdığı kimi, həqiqətən "Koroğlu" dastanında qadın obrazlarını fəallıq və kəmiyyət baxımından ötəri, fraqmentar olaraq görmürük. Belə ki, qadın obrazlarının həm sayca çoxluğu, həm də epik təsvir baxımdan dolğunluğu bu obrazların dastanın personajlar sisteminin mühüm məziyyətlərini təşkil etdiyini söyləməyə imkan verir.

Qadın obrazlarının içərisində mərkəzi yeri təbii ki, Koroğlunun sevgilisi Nigar xanım tutur, ancaq bundan

başqa, dastanda öz adları və əməlləri ilə seçilən qadın obrazları da vardır: Məhbub xanım, Telli xanım, Ruqiyyə xanım, Dünya xanım, Hürü xanım, Zərnişan xanım və b. Göründüyü kimi sıra kifayət qədər zəngindir. Bu bizə qadın obrazlarını özəl epik semantikası səviyyəsində ümumiləşdirməyə imkan verir.

Eposda qadınların aktivliyi nəzərə çarpır. Onlar Çənlibelə məktub yazır, xəbər yollayır, ora gəlmək arzularını bildirirlər. Öz ata və doğmalarına öz məqsədləri naminə zidd çıxmağı bacarırlar. Onların arxasınca gəlmiş igidlər əsir düşdükdə döyüşçü paltarı geyib, silah götürərək vuruşa bilirlər. Çənlibelə kəcavədə, yaxud igidlərin atlarının tərkində yox, öz atlarında gedirlər. Çənlibelə bir təhlükə üz verəndə, hamısı paltarını dəyişib, döyüşçü ləvazimatı ilə silahlanırlar, lakin bu, dastanda kişisayağı qəhrəman statusunda təsvir olunması qızların xanımlığına qətiyyən xələl gətirmir. Onlar həm də qənirsiz gözəllərdir. Paşa, xan qızları olduqları üçün savadlıdırlar. Dialoqlarda cəsarətli, ağıllı və müdrikdirlər. Nə istədiklərini başa düşür, öz məqsədlərini aydın şəkildə dərk edirlər. Gördüyümüz kimi, "Koroğlu" dastanında gender münasibətləri xalqın azadlıq ruhunu nümayiş etdirir (125: 20).

Yeri gəlmişkən, qədim Şərq abidəsi "Avesta"da da kişi-qadın münasibətlərinə, qadın davranışı məsələsinə diqqət yetirilmişdir. "Avesta"da qadın ailədə tənzimləyici iqtisadi fəaliyyəti ilə səciyyələnir. "Avesta"da qadın və kişi hüququ eyni tutulur. Filosof R.Məmmədovun "Zərdüştlükdə insan hüquqları məsələləri" məqaləsində göstərdiyi kimi, insan həm mənəvi, həm də maddi varlığın vəhdəti kimi öz cinsi, irqi, dini və digər mənsubiyyətindən asılı olmayaraq, bütün

maddi və mənəvi hüquqlara malikdir, çünki bu hüquqlar "insan" məfhumunun tərkib hissəsidir.

Zərdüştlükdə "insan hüquqları məsələsi" məqaləsində göstərildiyi kimi, insan həm mənəvi, həm də maddi varlığın vəhdəti kimi öz cinsi, irqi, dini və digər mənsubiyyətindən asılı olmayaraq, bütün maddi və mənəvi hüquqlara malikdir, çünki bu hüquqlar "insan" məhfumunun tərkib hissəsidir.

Zərdüştlükdə "insan" (maşya, martan) öz ilkin ruhani varlığı ilə (manuş) "ruh, ölümsüz, əbədi" kimi, növbəti bioloji varlığı ilə "fani, ölümə məhkum olunmuş" mənasında səciyyələnir. Deməli, insan "ölüm-əbədiyyət" münasibətləri arasında qərar tutan kamil şəxsiyyət və ya cahil məxluqdur. Zərdüşt peyğəmbərin göstərdiyi kimi, cəmiyyətdə də xeyir və şər problemlərinin kökü buradan başlayır. Cəmiyyətdə sosial-iqtisadi, siyasi və hüquqi balansın qorunması, yüksək əxlaq və düşüncəyə malik olan insanın formalaşmasından asılıdır. Bu cəmiyyət və təbiətdə, bütün makro və mikro sferalarda mövcud olan obyektiv qanunauyğunluq sistemi və ya Mütləq Yaradan Ahuranın biri olan "Mütləq Ədalət"dir (Aşa) (128: 104-105).

Xüsusən son illərdə islamla xristianlığın heç bir məntiqə uyğun gəlməyən müqayisələrinə rast gəlirik. Tədqiqatçıların dəfələrlə qeyd etdiyi kimi, müasir dünyada bir çox hallarda adamlar bu və ya digər problemə münasibətini konkret məsələnin nəzəri əsaslarına görə deyil, özlərinin şəxsi qavrayışına uyğun olan yanlış təsəvvürlərin üzərində qururlar. Məhz bu amil müasir dünyanın müxtəlif problemlərinə səhv yanaşmanın səbəbidir. Belə səthi düşüncə, yaranmış neqativ vəziyyətdən çıxış yolu tapmaq mövqeyini zəiflədir. Deyilənləri bir çox hallarda qadının din, o cümlədən islam baxı-

mından mövqeyi məsələsinə də aid etmək olar. Bu sahədəki mülahizələr əksərən həqiqi islam pozuntuları üzərində deyil, müsəlman əhalisinin üstünlük təşkil etdiyi bir çox ölkələrdə formalaşmış həyat təcrübəsindən irəli gəlir ki, bunun da çox vaxt həqiqi islamla və şəriətlə heç bir əlaqəsi olmur (68: 89).

Dinin bir çox ölkələrdə mədəniyyət kvintessensiyası rolunda çıxış etməsini nəzərə alaraq xatırlatmağı vacib bilirik ki, bir çox sahələrlə yanaşı gender problemləri də islam təlimindən çıxış edilərək xristianlığa qarşı qoyulur. Bu məsələ ilə bağlı alman müəllifi M.V.Hoffmanın "Alman müsəlmanın gündəliyindən" kitabında qeyd edilən fikirlər diqqəti cəlb edir: "Adətən müsəlmanların bir çoxu hesab edir ki, islamda qadınların məscidə getməsinə və həccdə iştirak etməsinə icazə verilir. Bəzən elə adamlara rast gəlmək olur ki, o, müsəlman qadınlarında həyat enerjisinin və aktivliyinin çatışmadığı haqda cəfəng nağıllara inanır.

İnsan nə qədər də həqiqətdən uzaq ola bilərmiş?!

Və nə qədər qəribə olsa da, onların şəksiz yanlışlığı çoxdan inandırıcı surətdə sübut olunmasına baxmayaraq, bu uydurmalar yaşamaqda davam edir.

İslamda qadın nəinki aktivdir, o, eyni zamanda dini planda kişilərlə bərabər hüquqludur...

Müsəlman qadınlar şəriət qaydalarına görə 1400 ildən artıq müddətdə elə hüquqlara malik idilər ki, onların avropalı bacıları bu hüquqları iyirminci əsrdə güclə qazana biliblər. Məsələn, izdivacı götürsək, müsəlman qanunlarına görə, o qadının əmlak hüquqları üçün heç bir mənfi nəticə verə bilməz. Belə ki, məhz qadın və yalnız o, ərə gedənə qədər ona məxsus olmuş əmlakla istədiyi kimi rəftar etmək hüququna malikdir. Müasir Avropanın nailiyyət saydığı ər

və arvadın ayrılıqda əmlaka sahib olmaları (arvadın öz əmlakını kişinin himayəsinə verməsi yox) əslində islam şəriətində çoxdan öz yerini almış, adı bir qaydanın təkrarından başqa bir şey deyildir. Doğrudur, qadın genderindən olanlara nisbətən kişi genderindən olan uşaqlara varislik mirasının daha çox hissəsi düşür, lakin o da doğrudur ki, yalnız kişilər öz ailəsini tam tərkibdə saxlamağa borcludur. Əgər müsəlman qadın öz südəmər körpəsini əmizdirmək istəmirsə, o, kişisini dayə tutmağa da sövq edə bilər. Uşaqların tərbiyələndirilməsində son söz ona məxsusdur.

Müsəlman qadın boşanmaq haqqında məsələ qaldırmaq hüququna malikdir. Prinsip etibarilə o istənilən adi peşələrdən biri ilə məşğul olmaq hüququndan məhrum deyildir.

...Bir çox digər məsələlər də vardır ki, onların islama uyğun olaraq qadın hüquqları ilə bağlı müzakirə etmək mümkündür, lakin mən belə hesab edirəm ki, "qadın azadlığı uğrunda" geniş miqyaslı hücuma başlamazdan qabaq potensial tənqidçilər heç olmazsa yuxarıda gətirilən faktları dərk etsinlər!" (74: 90).

Gətirilən misal göstərir ki, qadınlarla və icmalarla işi təşkil etdikdə dini normaların ümumən inkar edilməsi prinsiplərini rəhbər tutmağa heç bir əsas yoxdur. Daha asanı odur ki, təlim dinin həqiqi əsasları üzərində qurulsun və ondan insanların əsrlər boyu öz maraqları, o cümlədən gender maraqları üçün istifadə etmələri nəticəsində yığılıb qalmış lazımsız laylar təmizlənsin. Beləliklə, bütün ayintilər və yanlış yanaşmalardan, səhv baxış və adətlərdən azad olaraq, tam başqa şəraitdə qadınların tamamilə yeni vəziyyəti ilə rastlaşırıq.

Müasirlərimizin bir çoxunun nəzərində bütün dini təlimlər qadınların hüquqlarını məhdudlaşdırır, onları kişilə-

rin köləsi, ən yaxşı halda kölgəsi kimi qiymətləndirir. Heç bir dini təlimdə qadınların hüququ açıq şəkildə diskriminasiya olunmur, amma belə bir faktı inkar etmək olmaz ki, xüsusən Şərq reallığında qadınların davranış və rəftarına uzun illər boyu məhdudiyyətlər qoyulmuş, cahillik və nadanlığa geniş meydan verilmişdir. Elə məhz buna görə də islam, habelə xristian və yəhudi dinlərindən irəli gələn müəyyən təlimlərə istinad edən şəxslər qadınların həyat tərzinə, dünyagörüşünə təsir göstərmək imkanları əldə etmişlər. Bu səbəbdən də, bizim ölkəmizdə dini fikirlərin təbliği məqamlarında müxtəlif interpretasiya və fərqli şərh motivlərinin mövcudluğu diqqəti çəkir. Məlumdur ki, Azərbaycan Qərb və Şərq sivilizasiyasının kəsişdiyi nöqtədə yerləşir. Ölkənin, necə deyərlər, "mənəvi qapıları" hər iki qütbün üzünə açıq olduğu üçün burada zahirən bir-birinə zidd olan dəyərlərin çulğalaşdığı nəzərə çarpır. Ölkə əhalisinin əskər hissəsini müsəlmanlar təşkil edən bir məkanda təbii ki, islami dəyərlər üstünlük təşkil edir. Burada qadınların rəftar və davranışında bir çox özəl xüsusiyyətlər diqqəti cəlb edir. Məsələn, bir çox regionlarda xüsusilə cənub bölgələrində qadınların bir qismi hicaba (örpək) üstünlük verirlər. Həmin məsələ son illərin dini-elmi ədəbiyyatında geniş şərh edildiyi üçün fikrimizi qısaca olaraq bu cür formulə edə bilərik: Əgər qadın könüllü olaraq üzünü örtürsə burada heç bir faciə yoxdur; hicabın tətbiqində zor tətbiq olunursa bu, bağışlanmaz, antihumanist hal kimi dəyərləndirməlidir.

Bir çox tədqiqatçılar, xüsusən Qərb araşdırmacıları Şərq ədəbiyyatında qadının "ikinci dərəcəli" personaj kimi təqdim olunduğunu iddia edirlər. Bu kökündən səhv olan iddiadır. Həmin qeyri-obyektiv düşüncələrin ən başlıca təkzibe-

dici arqumenti kimi böyük Azərbaycan şairi N.Gəncəvinin "Xəmsə"sini nəzərdən keçirmək kifayətdir. Kişi və qadın münasibətləri Nizaminin əsərlərində humanist ideyalar işığında təqdim edilir. Onun qəhrəmanları gender ayrı-seçkiliyinə qarşı çıxan, daim özünü təkmilləşdirməyə cəhd edən, nəcib ideyalar uğrunda vuruşan insanlardır. Nizaminin qadın obrazları Nüşabə, Fitnə, Şirin, Leyli və s. öz məhəbbətlərinə sadiq qalan zərif cinsin güclü nümayəndələridir. Həmin obrazlar məişət səviyyəsindən yüksəkdə dayanan, özlərinin və ailələrinin xoşbəxtliyi uğrunda mübarizə aparan, mənsub olduqları dövlətin və cəmiyyətin mənafeyini hər şeydən uca tutan, az qala konkret prototipləri olan personajlardır. Nizaminin əksər qadın qəhrəmanları fəal həyat mövqeyi seçən, kişilərlə bərabər səviyyədə dayanan, hətta, bəzi məqamlarda öz ər və qardaşlarından daha tədbirli və uzaqgörən insanlardır. Nizami daim qadın azadlığını təbliğ etmiş, əsil sevgini, sədaqəti vəsf etmişdir. Görkəmli dövlət xadimi, böyük mütəfəkkir M.Ə.Rəsulzadə özünün "Azərbaycan şairi Nizami" adlı tədqiqat əsərində Nizaminin qadınlara münasibətindən danışarkən yazır: "Nizamidə kişilər kimi at minən, vuruşan, eyş-işrət içində ismət və namuslarını, qiymət və şərəflərini qoruyan qadınlara aid çox canlı və şairanə misallar tapa bilərsiniz, amma şairin təsvir etdiyi ən gözəl, qüvvətli və kamil bir qadın obrazı, şübhəsiz Şirindir. Bir tərəfdən ən ülvi sevgi ilə Xosrova aşiq olan bu şahzadə, o biri tərəfdən də qadınlıq şərəfini uca tutan bir insandır... Hər hansı bir normal qadında olduğu kimi, Şirində də iki daxili duyğu daima bir-biri ilə mübarizədədir. O, qadınlıq hissi ilə sevir, aşiq olur, təkliyə qatlanır, illərcə gözləyir. Fərhad kimi fədakar aşiqə şəfqət göstərsə də, əsl məqsədindən dönmür.

Dözümlülük sayəsində, müqavimət və qeyri-adi mətinliyi nəticəsində istədiyinə istədiyi şəkildə nail olur" (38: 171).

M.Ə.Rəsulzadə qeyd edir ki, Nizaminin qadın haqqındakı görüşlərinin yaratdığı fəzilətli qadın surətlərinə görə müsbət olaraq müəyyən etmək mümkündür. Fəqət Nizami, qadın azadlığı və isməti haqqındakı fikirlərini türk köçərilərindən qıpçaqlar barədə gözəl bir hekayəti ilə anladır. Həmin hekayətdə deyilir: Qafqaza getmək üçün Çindən hərəkət edən İskəndər ordusu qıpçaq çölündə düşərgə salır. İskəndər buradakı qadınların açıq gəzərək kişilərdən qaçmadığını görür. Əsgərlərinin ehtiyacından ehtiyat edən imperator qonağı olduğu məmləkət əhalisinin irz və namusuna təcavüzə yol verməmək üçün qıpçaq bəylərini toplayır. İskəndər Qıpçaq bəylərinə böyük iltifat göstərməsi barəsində fikirlərini bildirdikdən sonra qadınlarının örtülü gəzməsini tövsiyə edir: "Qadın daşdan, dəmirdən də olsa yenə qadındır. Qadının üzü örtülü olmalıdır" deyir. "Özünü başqalarına göstərən bir qadın nə özünün, nə də ərinin şərəf və heysiyyətini qoruya bilməz!" deyə xəbərdarlıq edir. Çöllülər padşahın bu sözlərini diqqətlə dinlədikdən sonra, nə cavab versələr yaxşıdır? Qıpçaq bəyləri İskəndərə deyirlər: "Padşaha itaət edirik. Zati-ailəsinə sədaqətli olmağa and içmişik, əhdimizdə dayanmışıq. Fəqət üz örtmək bu əhdə daxil deyildir, çünki bu, qıpçaq adətinə uyğun gəlmir. Sənin adətin üz qapamağı tələb edirsə, bizim adət də göz qapamağı tələb edir. Başqasının üzünü görməmək lazımdırsa, üzü deyil, gözü qapamaq gərəkdir. Padşah bizə qəzəblənməsin: üz örtülsə, arxayamı baxılacaq?! Bizim gəlinlərin otağında yad bir kəs yoxdursa, bu kifayətdir. Padşahım, sən gəl, bu xalqın üzünü niqab ilə gizlətmə! Daha yaxşısı budur ki, örtüyü öz gözlərinə as! Bir

göz qapanarsa nə ayı görər, nə də günəşi! Hökmdar nə əmr edərsə, yerinə yetirməyə hazırıq! Canımızı belə istəsə verərik. Yalnız öz adətlərimizdən əl çəkmərik!" (138: 171).

Gördüyümüz kimi, Nizaminin qadın qəhrəmanları öz davranış və rəftarları ilə seçilir, kişilərlə çiyin-çiyinə vuruşur, öz azadlıqlarını əldən verməməyə çalışırlar. Biz burada istər-istəməz Nizamidən bir neçə əsr əvvəl yaşamış qədim yunan şairi Esxilin Qafqaz qadınları ilə bağlı söylədiyi fikirləri xatırlayırıq: "Midiyada və Qafqazda yaşayan qadınlar qorxmazdırlar" (84: 7).

Qadınların cəmiyyətdə rolu Azərbaycan ictimai fikrində daim diqqət mərkəzində olmuşdur. Nizami Gəncəvi ilə eyni dövrdə yaşamış Xəqani və Məshətinin əsərlərində qadın-kişi münasibətlərinə geniş yer verilmişdir. Sonrakı dövrün böyük mütəfəkkiri Nəsrəddin Tusi özünün bir çox elmi-fəlsəfi tədqiqatlarında kişi və qadının ictimai həyatda və ailədəki vəziyyətinə toxunmuş, onların bərabər, "mütləq", ortaq statusa malik olduqlarını israr etmişdir. Azərbaycan ədəbiyyatının korifeyləri Nəsimi, Xətai, Füzuli, Vaqif və başqalarının qiymətli poetik nümunələrində də qadın probleminə toxunulmuş, qadına yalnız əyləncə, həzz mənbəyi kimi yanaşanlar kəskin tənqid hədəfinə çevrilmişlər.

Qadınların hüquq bərabərliyi, qadın və kişi münasibətlərindəki qarşılıqlı münasibətlər Azərbaycanın görkəmli maarifçi və demokratlarının əsərlərində geniş təhlil obyekti olmuşdur. A.A. Bakıxanov, M.F.Axundov. N.N.Nərimanov, S.M.Əfəndiyev, F.B.Köçərli, M.Şahtaxtinski, Ə.Topçubaşov, Ə.B.Ağayev, M.Ə.Rəsulzadə, Ü.Hacıbəyov və başqaları qadınların cəmiyyətin inkişafındakı rolu barədə qiymətli fikirlər söyləmiş, onların problemlərinin həlli yollarını göstərmişlər.

XX əsrin əvvəllərində bir sıra demokratik ruhlu qəzet, jurnal və məcmuələrin nəşri azad fikrin intişar tapmasına təkan oldu. Xüsusilə "Molla Nəsrəddin" jurnalının meydana gəlməsi Azərbaycan ictimai fikir tarixində yeni mərhələ kimi qiymətləndirilə bilər. Jurnalın naşiri və baş redaktoru C.Məmmədquluzadə, onun müəllifləri Ömər Faiq, Ə.Haqverdiyev. Q.Şərifzadə, M.S.Ordubadi, Ə.Qəmküsar və başqaları qadın azadlığı ilə bağlı kəskin yazılarla çıxış edirdilər. Jurnal M.Ə.Sabir kimi nəhəng bir simanın - satirik poeziyanın flaqmanının meydana gəlməsində müstəsna rol oynamışdır. Sabir öz əsərlərində dövrünün digər naqis cəhətləri ilə yanaşı, qadın hüquqlarının pozulmasına qarşı da öz etiraz səsini ucaltmış, nadanlığı, cahilliyi, savadsızlığı tünd satirik boyalarla ifşa etmişdir.

Azərbaycanda Sovet hakimiyyəti dövründə qadınlarla kişilərin hüquq bərabərliyi rəsmən təsbit edilsə də, reallıqda gender ayrı-seçkiliyi uzun müddət mövcud olmuşdur. Məhz buna görə də böyük dramaturq C.Cabbarlı özünün "Sevil", "Almaz", "Füruzə" və s. əsərlərində qadın azadlığı probleminə toxunmuşdur. Azərbaycanın dahi şairi S.Vurğun isə öz şeir və poemalarında ("Bəsti", "Aygün" və s.) qadınların uzun illər, əsrlər boyu istismara məruz qaldığını kəskin tənqid atəşinə tutmuş, onların cəmiyyətdə kişilərlə çiyin-çiyinə çalışdığını ilhamla tərənnüm etmişdir.

XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələri S.Rəhimov, S.Rüstəm, M.Hüseyn, R.Rza, M.İbrahimov, Ə.Məmmədxanlı, İ.Əfəndiyev, İ.Şıxlı, İ.Hüseynov, habelə onlardan sonra yaradıcılıq fəaliyyətinə başlayan S.Əhmədov. Ə.Cəfərzadə, Ə.Əylisli, İ.Məlikzadə, Anar, Elçin və digər görkəmli mütəfəkkirlərin əsərlərində qadın və

kişi münasibətləri özünün parlaq estetik inikası ilə diqqəti cəlb edir.

Bu gün qəzet və jurnal səhifələrində, televiziya ekranlarında və efirdə qadın problemini əks etdirən onlarla rubrika və proqramlar mövcuddur. Doğrudur, onlar bizi nə qədər qane edir məsələsi də önəmlidir, o da başqa bir tədqiqat mövzusudur.

Yeri gəlmişkən qeyd edək ki, sosiomədəni davranışların tənzimlənməsində dil faktorunun rolu xüsusilə böyükdür. Həmin amilə gender nöqteyi-nəzərdən yanaşarkən belə bir qənaətə gəlirik ki, cəmiyyətdə bir növ ayrı-ayrılıqda mövcud olan "kişi dili" və "qadın dili" vardır. Bu həm dildə işlədilən ibarə, söz fərqlərində, həm də qadın və kişilərin dil üslubuna, onların "sözlüyünə" daxil olan leksik vahiddə özünü büruzə verir. İstər söz, istərsə də jest və mimika ilə ifadə edilməsindən asılı olmayaraq, dil qadının və kişinin cəmiyyət həyatında iz qoymasında mühüm rol oynayır. Bir sözlə dil, davranışa mütəmadi təsir göstərir.

Norma və davranışların etik-gender nöqteyi-nəzərindən təhlili və qeyd edilən problemin bədii-estetik mahiyyətinin araşdırılması bir daha sübut edir ki, mədəniyyətin gender nüanslarının, "gender kodunun" öyrənilməsi hələ tam başa çatmamışdır. Filosof Əli Abasovun yazdığı kimi, bu gün genderin nə tədqiqat metodologiyası, nə mövzuya yanaşmanın qəbul olunan prinsip və metodları, nə də konkret materialı vardır. Qadın mövzusu ənənəvi olaraq müxtəlif humanitar tədqiqatlarda və bədii ədəbiyyatda böyük yer tutsa da, bu cür baxış bucağı hər hansı müəyyən çıxarış və fikirlər üçün yetərli deyildir. Bu təkcə gender probleminin ayrılıqda götürülmüş qadın və kişi mövzusu ilə bitməsinin

nəticəsi deyil. O həm də cəmiyyətdə cins probleminə öz gender baxış bucağı olmayan dünyagörüşünün bəzi çatışmazlıqları ilə də bağlıdır. Məhz bunun nəticəsidir ki, problemin təhlilində bir çox mühüm anlar, müddəalar yaddan çıxır.

Bu gün Azərbaycanda gender durumunun bir qədər mürəkkəbləşdiyi qeyd olunmaqla yanaşı, qadın-kişi münasibətlərinin harmonik inkişafı üçün əlverişli mühitin yarandığını da xatırlatmaq vacibdir. Əgər birinci hal - mürəkkəblik əsasən demoqrafik böhranla əlaqədardırsa, ikinci hal - əlverişli mühit, əsasən hüquqi bazanın mövcudluğu ilə bağlıdır. Deyilənlərlə yanaşı Azərbaycanın bütün mədəniyyətlər üçün daim açıq olduğunu, tolerantlıq, dözümlülük nümayiş etdirdiyini də xüsusilə vurğulamaq lazımdır. Qeyd olunan faktlara istinadən düşünmək olar ki, yaxın gələcəkdə qadın problemi ilə bağlı bir çox ümdə məsələlər ölkənin iqtisadi-mənəvi problemləri kontekstində uğurla həll oluna bilər.

Ümumiyyətlə, sosial-mənəvi davranışların etik-gender tədqiqatları baxımından araşdırılmasının metodoloji problemlərinə yeni rakursdan nəzər salarkən aydın olur ki, cəmiyyətin sosiomədəni həyatında kişi və qadın davranışları arasında mövcud olan fərqlərin mahiyyətini əsasən “zahiri” - cinsi əlamətlər deyil, ictimai-sosial xüsusiyyətlər təşkil edir. Məhz buna görə cəmiyyətin müxtəlif sferalarında hələ də patriarxal mədəniyyət kultunun üstünlük təşkil etdiyi nəzərə çarpır. Cəmiyyət həyatında mövcud olan bütün mütərəqqi və mürtəce dəyərlərin mahiyyəti öz rəngarəngliyi ilə gender münasibətlərində də adekvat şəkildə əks olunur.

# II FƏSİL

# SOSİAL-ƏXLAQİ DAVRANIŞIN ÖYRƏNİLMƏSİNİN TƏTBİQİ ASPEKTLƏRİ

## 2.1. Etika, gender və qloballaşma

Etika akademik bir elm və fəaliyyət sahəsi kimi daim cəmiyyətin mənəvi həyatını öyrənməklə məşğul olmuşdur. Bu cəhətdən etik davranışların təhlili istər-istəməz özlüyündə maraq doğurmalıdır. Etika deyərkən ilk baxışda cəmiyyətdəki əxlaqi münasibətlərin məcmusu nəzərdə tutulur. Etikanın müasir tədqiqat prizmasında öyrənilməsinə bir qədər sonra diqqət yetiriləcəyi üçün, tədqiqatın bu hissəsində etika ilə bağlı bir sıra ümumi müddəalara toxunmaq yerinə düşər.

Cəmiyyətin müasir inkişaf mərhələsində əxlaqi münasibətlərin yeni prinsip və nüanslarla cilalanması müşahidə olunmaqdadır. Bu gün xalqlar və ölkələr arasındakı əlaqələrin geniş vüsət alması, informasiya mübadiləsinin artması, İnternetin həyatımıza nüfuz etməsi, elmi-texniki tərəqqinin son nailiyyətləri insanların həyat və məişətinə öz təsirini göstərməkdədir. Təbii ki, bu təsir mənəvi həyatdan da yan keçmir. Necə deyərlər, yeni dövr özü ilə yeni əxlaqi təsəvvürlər gətirir.

Məlumdur ki, etika əxlaq, mənəviyyat, geniş mənada isə adətlər haqqında elmdir. Zaman keçdikcə etikanın predmeti dəyişir. Bu o deməkdir ki, etikanın özü də müəyyən dəyişikliklərə məruz qalır.

Hər dövr özünəməxsus davranış normaları ilə səciyyələnir. Cəmiyyətdənkənar etik mülahizələrin mövcudluğu barədə düşünmək absurddur. Elə buna görə də əksər etik-fəlsəfə tədqiqatçıları əxlaq və mədəniyyət (habelə sivilizasiya) sistemlərinin eyni kökə malik olduqlarını vurğulayırlar. Görünür, məhz elə bu nöqteyi-nəzərdən çıxış edərək M.Veber faktlar və dəyərlər arasında, başqa sözlə, olanlarla ola biləcəklər arasında əsaslı fərqlərin mövcudluğunu israr edir. Bir az da dəqiq ifadə etməyə çalışsaq, etika olanları (1-ci halda) tədqiq edərkən elm kimi, ola biləcəkləri (2-ci halda) tədqiq edərkən qeyri-elm kimi çıxış edir. M.Veber onu da qeyd edir ki, dəyərlərə münasibətdə biz konkret siyasi və mənəvi pozisiya nöqteyi-nəzərindən çıxış edə bilmərik və ya çıxış etməməliyik. Həmin baxışa (eləcə də digər mülahizələrə) diqqət yetirən Azərbaycan filosofu İ.Məmmədzadə özünün "Etikaya giriş" əsərində göstərir ki, etika elm kimi iki əsas ümumi hissədən ibarətdir: əxlaq fəlsəfəsi və etika. Əxlaq fəlsəfəsi əxlaqın əsas suallarına cavab verməyə çalışır, etika isə olan və olabiləcəyin bütün problematikasını öyrənməyə çalışır. Əlbəttə bu cür bölgünün özü də şərtidir, lakin həmin bölgü indiki halda Azərbaycanda və bütün dünyada baş verən mənəvi proseslərin mahiyyətini dərk etməkdən ötrü əhəmiyyətlidir (213: 21).

İctimai-siyasi-iqtisadi həyatın elə bir hissəsi yoxdur ki, etik "qanunlardan" yan keçsin. Özündə davranış normalarını ehtiva edən bir elm kimi xarakterizə olunan etika, bu gün yeni keyfiyyətlərlə zənginləşməkdədir. İ.Məmmədzadənin qeyd etdiyi kimi, bu gün təkcə postsovet ölkələri (o cümlədən bizim ölkəmiz) deyil, habelə bütün dünya özünün keçid mərhələsini yaşayır (213: 147). Müa-

sir dünyada Azərbaycanın mövqeyi ötən əsrlə müqayisədə xeyli dəyişmişdir. Əvvəllər SSRİ tərkibində olan, digər millətlərlə birgə “bir bayraq altında” yaşayan Azərbaycan Respublikası indi müstəqillik əldə etmiş, dünya birliyinə inteqrasiya etməkdədir. Belə bir vaxtda, özünün müstəqil siyasətini yeridən dövlətin problemləri saysız-hesabsızdır. Məhz buna görə də, hazırki inkişafın məntiqi bütün dövlətlərin, habelə Azərbaycanın dünya dövlətləri ilə interaktiv dialoqunu tələb edir. Müasir dünyanın çox görkəmli filosoflarından biri M.Fuko qeyd edir ki, davranış qaydaları məsələnin bir tərəfidir, amma davranışın hansısa qayda ilə müəyyənləşməsi başqa bir məsələdir. Bununla yanaşı, insanın necə davranması və ya “özünü etik subyekt kimi formalaşması” prinsipi də mövcuddur. Fuko daha çox şəxsiyyətin “özünü formalaşdırması” prinsipinə diqqət yetirir və bunu obrazlı şəkildə “etik əmək” adlandırır (259: 26-27).

Bu gün dünyanın böyük bir hissəsi, vaxtilə “sosialist düşərgəsinə” daxil olmuş ölkələr, sosializmdən kapitalizmə keçməkdədir. Hər hansı bir iqtisadi-siyasi formasiyadan digərinə keçid mexaniki hadisə kimi qiymətləndirilə bilməz. Bu cür “keçidləri”, adətən böyük faciələr və böyük təhlükələr müşayiət edir. Lakin cəmiyyətin öz qarşısıalınmaz qanunları var və həmin qanunların “dondurulmasına” göstərilən cəhdlər daha qorxulu meyillərə aparıb çıxara bilər. Keçid mərhələsi təkcə bir iqtisadi sistemin digəri ilə əvəzlənməsi deyildir. Burada başlıca amillərdən biri də bir əxlaqdan digərinə keçməkdir. Əlbəttə əxlaqi-mənəvi prinsiplərin sürətli avtomatik dəyişməyə məruz qalmasını düşünmək sadəlöhvlük olardı. Bu sahədə etika və şüurun

digər tipləri insanların qarşısında meydana çıxan yeni problemlərin həllində mühüm rol oynaya bilər.

Müasir dünyada əxlaq və hüququn qarşılıqlı təhlili göstərir ki, mövcud prinsiplərin bərqərar olmasında siyasətin təsiri də üstündür. Müasir fransız filosofu E.Jilson göstərir ki, ümumiyyətlə, azadlığın mövcudluğu problemi öz kökləri ilə sxolastik debatlara gedib çıxır (106).

Etik prinsiplərin cəmiyyət həyatındakı yeri və rolu əhəmiyyətli dərəcədə həmin cəmiyyətin mahiyyətindən asılıdır. Bu gün özünü dünya birliyindən təcrid etmiş, öz qapılarını liberal dəyərlərə və demokratik prinsiplərə bağlamış rejimlərdə yüksək etik-mənəvi prinsiplərin bərqərar olmasından danışmaq qeyri-mümkündür. İndi təkcə iqtisadi müstəvidə deyil, mənəvi dəyərlər kontekstində də "qarşılıqlı inteqrasiyalar" getməkdədir. Bir növ, "məhəlli əxlaqi qanunları", ümumbəşəri mənəvi dəyərlər üstələməkdədir. Robert Dahl yazır ki, "bütün insanlara elə yanaşmalıyıq ki, sanki onlar yaşamaq, azadlıq, xoşbəxtlik və digər təməl dəyərlər və mənafelər barədə bərabər hüquqlara malikdir. Mən bu əxlaqi mülahizəni anadangəlmə bərabərlik prinsipi adlandırardım" (48: 75).

Etik normaların cəmiyyət həyatında daha mühüm rol oynaması üçün demokratik prinsiplərin get-gedə dərinləşməsi zərurəti yaranır, amma həmin prinsiplər heç də birdən-birə yaranıb formalaşmır. Qeyri-demokratik rejimlər, adətən öz "qayələrinə" uyğun rəhbərlər yetişdirirlər. Bu cür rəhbərlərin az qala hamısı ucdantutma iddia edirlər ki, "xalqın böyük əksəriyyəti yetərincə səriştəli deyil ki, dövlətin idarə olunmasında iştirak edə bilsin; yaxşı olar ki, xalq hakimiyyətdən kənara çəkilib, bu işi daha müdrik olanların, hansısa bir qrupun və ya fərdin öhdəsinə buraxsın" (48: 78).

Demokratik prinsiplərə əməl olunması etik-gender müstəvisində də öz dolğun əksini tapır. Sosioloq B.A.Reordonun yazdığı kimi, "kişi və qadının maraqlarına bərabər şəkildə xüdmət etməyən strategiyalar sözün əsl mənasında demokratik deyildir. Vətəndaşlar, habelə strategiyaları işləyib hazırlayanlar gender təhlilinə dair irəli sürülən bütün strateji təklifləri necə təqdim etməyi və gender ədalətini hər hansı bir strategiyasının ədalətliliyinin qiymətləndirilməsi üçün əsas meyarlardan biri kimi daxil etməyi öyrənməlidirlər" (40: 52).

"Kişi və qadın strategiyalarının" mahiyyəti isə XX-XXI əsrlərdə artıq yeni keyfiyyətlər əldə etməkdədir. İstər-istəməz son yüzilliyin qarşısıalınmaz prosesləri, xüsusən qloballaşma həyatın bütün sahələrinə nüfuz etməkdə, bir çox əxlaqi "sədləri vurub dağıtmaqda", öz şərtlərini diktə etməkdədir.

Qloballaşma özünün bütün ziddiyyət və ağrıları ilə insanların həyatına daxil olmaqdadır. Dünyada gedən müasir inteqrasiyalar bir tərəfdən insanların həyat şəraitini yüksəldirsə, digər tərəfdən problemlərin sayını artırır.

Lokal və irimiqyaslı müharibələrdə, münaqişə ocaqlarında ən çox təhlükəyə məruz qalan, əzilən, məhv olan əsasən qadın və uşaqlardır. İndi XXI əsrin ilk illərində orta əsrlərdə olduğu kimi güclü dövlətlərin zəif və kiçik dövlətlərin üzərinə hücum etməsi adi, gündəlik məsələlərdən birinə çevrilmişdir. Zorun hökmranlığı yenə də gündəmdə qalmaqdadır. Qloballaşma prosesində bir növ tarixi-ənənəvi qaydada təsəvvür edilən sərhədlər "dəyişir", elmi və informativ mübadilənin radiusu genişlənir, dünyanın müxtəlif qitə və qütblərində yaşayan insanlar bir-biri ilə asanlıqla,

az qala heç bir məneə olmadan əlaqə qura bilərlər. Lakin müasir urbanizasiya və qloballaşma heç də asanlıqla həyata keçirilmir. Əxlaqi və adət-ənənələrin formalaşması bir neçə ilin məhsulu kimi qiymətləndirilə bilməz. İnsan adətləri əsrlər, minilliklər boyu bərqərar olur. Müasir dövrün ən səciyyəvi cəhətlərindən biri odur ki, insani münasibətlərin dairəsi hədsiz dərəcədə genişlənmişdir. Dar standartlığı yeni, ahəngdar, geniş münasibətlər əvəz etməkdədir.

Kompüterləşmə, kommunikasiya vasitələri, İnternet, radio və televiziya, nümayiş etdirilən filmlər, çap olunan kitab və jurnallar müxtəlif ölkələr arasında mənəvi körpülər qurmuşdur. Mövcud əlaqələr insanların əxlaq və dünyagörüşünə birbaşa təsir göstərir. Görkəmli sosioloqlardan birinin qeyd etdiyi kimi, “qloballaşma o deməkdir ki, müəyyən bir yerdə deyilənlər tezliklə bütün dünyaya məlum olur, bir ölkədə yeridilən siyasət digərində böyük nəticələrə gətirib çıxara bilər (47: 293). Əlbəttə qloballaşma haqqında danışanda, xatırlatmaq lazımdır ki, müasir iqtisadi rəqabət, siyasi qərarların qəbulu, bir sözlə, çoxsaylı konfliktlərin həlli bir çox hallarda qlobal əxlaqdan və yaxud başqa sözlə, qlobal etikadan asılıdır. Qlobal etikaya cəhd artıq fəlsəfi-etik təlimin başlıca cəhətlərindən biri olmuşdur. Fəlsəfə və etika daim zəkaya ünvanlanmışdır; məhz buna görə də onlar həmişə universal səciyyə daşımışdır. Həmin keyfiyyətlərinə görə qloballaşmanın özü universal zəkaya cəhdin nəticəsi kimi dəyərləndirilməlidir (213: 140).

Qloballaşmanın həyatın bütün sahələrinə nüfuzu kəskin müzakirə, mübahisə və tənqidlərlə qarşılanır. Əslində, qloballaşma heç də bütün hallarda insanlara, geniş mənada cəmiyyətə təkcə xoşbəxtlik gətirmir. Və təəssüf doğuran

hal budur ki, Cozef E. Stiqlitzin qeyd etdiyi kimi, qloballaşmanın həyata keçirilməsinə görə məsuliyyət daşımalı olan şəxslər çox zaman məsələnin əks tərəfini onun mədəni irs və dəyərlər qarşısında yaratdığı təhlükə haqqında heç də tam olmayan bir fikir təlqin edirlər (47: 284). Əlbəttə əxlaqi dəyərlərin tamamilə qloballaşma təhlükəsinə məruz qaldığını söyləmək düz olmazdı. Görkəmli ingilis alimi K.Popper özünün "Açıq cəmiyyət və onun düşmənləri" adlı əsərində göstərir ki, əxlaqi qərarlar çox vaxt iradi yollarla həll olunur (279). O bu mənada D.Skottun "iradə ağıldan üstündür" tezisinə istinad edir. Mütəfəkkirlərin çoxu isə insan həyatının gələcək taleyinin etik məsuliyyətdən asılı olduğunu qeyd edirlər. Məsələn, Eynşteyn vaxtilə xatırlatmağı vacib bilirdi ki, dünyanın (gələcək nəsilləri) taleyini elm və texnikanın səviyyəsi deyil, insanların mənəvi aləmi, əxlaqı müəyyən edəcəkdir.

Qloballaşma müasir dünyada, bir çox hallarda elmi-texniki yeniliklərin təkcə "bərabər şəkildə bölüşdürülməsinə" deyil, qeyri-bərabər təmərküzləşmələrə gətirib çıxarır. Güclü ölkələrin zəif inkişaf etmiş ölkələrdən yalnız xammal mənbəyi kimi istifadə etməsi faktı da nadir hadisələrdən deyildir. Bu, məsələnin bəlkə də yalnız qabarıq görünən tərəfidir. Ən mühüm məsələ isə, yəqin ki, qloballaşmanın insan mənəviyyatında qoyduğu iz, açdığı "cığırdır". Dünyada baş verən qlobal proseslər nəticəsində sanki bütün xalqlar və millətlər, habelə onların əxlaqi dəyərləri vahid müstəvi üzərində eyni "simmetriya əsasında" düzənlənir. Bu "eynilik" heç də bütün hallarda müsbət cəhətlərlə nəticələnə bilməz. İnsan fərdiyyətinin, milli xüsusiyyətlərin aradan götürülməsi və ya "eyniləşdirilməsi" bəşəriyyətə yaxşı heç

nə vəd etmir. Elə buna görə də dünyanın bir çox xalqlarının nümayəndələri, elm xadimləri, adi vətəndaşlar antiqlobalist şüarlar irəli sürürlər, amma bir daha qeyd etməliyik ki, qloballaşmanın gətirdiyi bir çox zərərli və mənfi cəhətləri etiraf etməklə yanaşı, onun müasir bəşər nəslinin, sivilizasiyanın taleyində müstəsna rolunu danmaq qeyri-mümkündür. Başqa sözlə, bu gün qloballaşmaya sarı işıq yandırmaq - sivilizasiyaya qapı bağlamaq deməkdir.

Xüsusən, XX əsrin son onillikləri insan davranışına əhəmiyyətli dərəcədə təsir edən genişmiqyaslı, sosial, mədəni və iqtisadi dəyişikliklərin gətirilməsi ilə fərqlənir. Müasir sosioloq Antoni Qiddensin dediyi kimi, "biz fəaliyyətimizin demək olar ki, bütün aspektlərinə təsir edən transformasiyalar dünyasında yaşayırıq. Pis və ya yaxşı olduğunu hələ heç kəs tam anlamadığı, amma hamımızın həyatına təsir edən qlobal bir nizama tabe olmuşuq. Sanıram ki, qloballaşmanın yalnız böyük sistemlərə, dünya maliyyə qaynaqlarına dəxli olduğunu düşünmək səhv olardı. Qloballaşma fərdlərdən də yan keçməmişdir. O bizim həyatımızın intim və fərdi aspektlərinə də təsir edən bir fenomendir" (12).

Qloballaşma indiki halda insan amili ilə bir başa bağlı olan bir məsələdir. Onun gender problemləri ilə qarşılıqlı əlaqə və təması da inkaredilməzdir.

Ötən əsrin 90-cı illərindən başlayaraq, qloballaşma mövzusu elmi-fəlsəfə ədəbiyyatda xüsusi yer tutmağa başladı. Artıq bu hadisə (qloballaşma) bütün cəmiyyətə nüfuz etməkdədir. Bu cəhətdən etik dəyərlər yeni bir mahiyyət kəsb etməkdədir. Belə ki, qloballaşma prosesində etik problemlər öz lokallığını itirir, yeni keyfiyyət fərqi qazanır. Lokal fraqmental sosial sistemlər daha böyük qlobal sistemlərə

transfer olunur. Bu zaman dünyanın "birinci" və "üçüncü" yerlərə (məs; "üçüncü dünya ölkələri" və s.) bölünməsinə də ehtiyac qalmır. Qlobal birliklərin formalaşmasının əsas xüsusiyyətlərindən biri onun bütün üzvlərinin maraqlarının bərabər və ədalətli prinsiplərə söykənməsidir. Yeni siyasi və iqtisadi qayda-qanunların etik imperativləri beynəlxalq ədalətin tələbi əsasında formalaşır. Universallıq və partikulyarlıq konflikti (yəni ədalət problemi) dünya iqtisadi düzənində bölgü və iştirak problemi kimi, siyasətdə - dünya siyasi düzəninin demokratikliyi və bərabərliyi problemi kimi, mədəniyyətdə - milli mədəniyyətin universal humanitar və özgürlüyünün mühafizə edilib qorunmasının təsdiqi problemi kimi ifadə olunur (221: 244-245).

"Əxlaqi və iqtisadi nəzəriyyələr arasındakı məsafə süni hesab olunmalıdır; xatırlatmaq kifayətdir ki, hətta Adam Smit belə sözün ciddi mənasında qətiyyən iqtisadçı deyil, filosof-moralist (əxlaq nəzəriyyəçisi) olmuşdur. İqtisad elminə verilən resurslar çatışmazlığı səpkisində insan fəaliyyətinin tərəqqiyə yönəldilməsini öyrənən kimi sadə, lakin sanballı tərifi xatırlatmaqla, əxlaqi nəzəriyyə onunla təmas nöqtəsini çox asan tapır (245: 44).

Alman filosofu Karl-Otto Apel öz əsərlərində qloballaşmanın mahiyyəti haqqında dəyərli fikirlər söyləyir. O yazır ki, müasir dövrün ekoloji krizisini nəzərdən keçirərkən adamda belə bir təəssürat yaranır ki, hər bir ölkə hətta özünün çöküşünə cəmi 10 dəqiqə qaldığını bilsə belə, yenə də təbiəti istismar etməklə məşğul olacaq (283: 22).

Apel belə hesab edir ki, digər alman filosofu Yonasın "bəşəriyyət olmalıdır!" formulası qlobal kəskinlikləri əks etdirsə də, həmin mövcud böhrandan çıxış yolunu göstərir.

İnsan taleyinin, insan həyatının, kökündə əxlaqi dəyərlər dayanan prinsiplərin təbiətə münasibəti də yenidən qiymətləndirilməlidir. Apel qeyd edir ki, planetar ekosfera bizim sərəncamımızda məhdud ölçüdə dayanan kapitaldır ki, onun xeyri hamıya aiddir, lakin bu, istehsalatda istehsal kapitalı nəzərə alınmadan istifadə olunur. Apel göstərir ki, insanlığın instrumental zəkası ekspansiya prosesində öz sərhədlərini yarıb keçməkdədir. Əslində, təbiətin ölümü insanın özünün məhvinə gətirib çıxara bilər (282: 19).

Qloballaşma prosesində beynəlxalq hüququn möhkəmləndirilməsi, milli mədəniyyətlərdə universal dəyərlərin qərarlaşması, vətəndaş cəmiyyəti institutlarının, qeyri-hökumət təşkilatlarının ön plana keçməsi kimi mütərəqqi hadisələrdə baş verir. Bu prosesdə bir vaxtlar Kantın dediyi, “dünya vətəndaşlığının hüquqi nizamı” yaranır.

Bu gün qloballaşmanın insan həyatına nüfuzu özünün bir sıra cəhətləri ilə diqqəti cəlb edir. Qloballaşma müasir cəmiyyətin (və təbii ki, cəmiyyət üzvlərinin həyatına əsasən üç aspektdə “daxil olmaqdadır. Bura: a) iqtisadi; b) mədəni; c) siyasi amillər şamil edilə bilər”. Əlbəttə ekoloji və mənəvi amillərdə həmin parametrlər də nəzərdə tutulur. Qloballaşmanın çağdaş mərhələsində gender problemi cəmiyyətə özünün bir sıra anlayışlarını gətirmişdir. Həmin anlayışlardan biri də “gender iqtisadiyyatıdır”. Adətən, iqtisadiyyatın gender aspektlərindən söhbət açanlar üç mühüm metodoloji istiqamətin mövcudluğunu qeyd edir: 1) neoklassik təhlil pozisiyası; 2) marksist siyasi iqtisadi pozisiyası və 3) institutsional pozisiyasından yanaşma. “İqtisadi adam” (eləcə də “iqtisadi gender”) üçün mühüm şərtlərdən biri əhəmiyyətlilik prinsipidir. Neoklassik yanaşmanın əsasını təşkil

edən həmin anlayış elmi ədəbiyyata ingilis filosofu İ.Bentam tərəfindən gətirilmişdir. İqtisadçılar həmin termindən bu və ya digər rifahın üstünlüyünü ifadə etmək üçün interpretasiya edirlər (178: 313).

Necə deyərlər, marksizmə istinad edən feministlər qadınların istismarının əsas mənbəyi kimi kapitalizm və patriarxal qayda-qanunları götürürlər. Əksər hallarda isə, belə bir mülahizə əsas götürülür ki, patriarxallıq və kapitalizm kişilərin nəzarəti altında olduğuna görə qadınlar istismara məhkumdurlar.

Neoklassik yanaşmanın əsas nümayəndələrindən biri Henri Bekker "iqtisadi gender" barədə geniş tədqiqat aparmışdır. H.Bekker ailə daxilində gender bölgüsünə xüsusi diqqət yetirərək yeni anlayış "insan kapitalı" anlayışını gətirmişdir (173: 330). Məhdud mənada bu anlayışa - təhsil və professional kvalifikasiya daxildir. Bekker belə hesab edir ki, qadın və kişi nikaha girməklə bir növ yeni bazar münasibətləri yaradırlar. Nikah nəticəsində spesifik ailə kapitalı yaranır ki, buraya da uşaqlar, ətrafdakı adamların nəzərində reputasiya, anlaşma, sağlamlıq və s. daxildir. Bu cür kapitalın əsas hissəsi təzədən (təkrar) yaranan nikah ittifaqına avtomatik ötürülə bilməz. Məhz buna görə də yeni bağlanan nikahların pozulması ehtimalı çox olsa da, zaman keçdikcə bu cür ehtimal azalır.

H.Bekker genderə görə bazar diskriminasiyası məsələsinə də toxunaraq qeyd edir ki, bütün iş sahibləri (sahibkarlar) adətən diskriminasiyaya meyilli olurlar; onlar öz şəxsi maraq və zövqlərindən asılı olaraq, bu və ya digər qrupların iş şəraitini yaxşılaşdıra, maaşlarını yüksəldə bilərlər. İş sahibinin genderə görə diskriminasiyaya meyilliyi nəticəsində qadın və kişilərin maaşları arasında fərqlər də artır (173: 330).

İnstitusional yanaşmanın tərəfdarları, xüsusən onun banilərindən biri olan Torsteyn Veblen qadının tarixdəki iqtisadi rolunun evolyusiyasını izləyərkən belə qərara gəlir ki, qadınların ev işləri, öz mahiyyətinə görə əslində istehsal fəaliyyəti kimi qiymətləndirilməlidir (173: 330).

Qadınların siyasi həyatda kişilərlə eyni "ranqda" təmsil olunmaması, şübhəsiz ki, bütün postsovet məkanına xas olan haldır. Təkcə bir faktı xatırlatmaq lazımdır ki, 2003-2004-cü illərdə postsovet ölkələrindən yalnız bir ölkənin dövlət başçısı (Latviya) və parlament rəhbəri (Gürcüstan) qadın olmuşdur.

2002-ci ildə Rusiya Dumasının üzvləri sekçi hüququnun əsas təminatları haqda qanunun yeni redaksiya layihəsinə düzəlişləri müzakirə edərkən belə bir təkliflə çıxış etmişdilər ki, partiya siyahısı tərtib edilərkən orada hər hansı bir genderi təmsil edən adamların kəmiyyəti 70 %-i ötməməlidir. Beləliklə, deputatlar qadınların parlamentdə heç olmasa, mövcud yerlərin üçdə birini tuta bilməsini qanuniləşdirmək istəyirdilər. Hətta Rusiya Mərkəzi Seçki Komissiyasının sədri A.Veşnyakov bunun beynəlxalq normalara uyğun olduğunu, qüvvədə olan Konstitusiya ilə ziddiyyət təşkil etmədiyini qeyd etmişdir. Lakin həmin layihəyə deputatların yarıdan azı – cəmi 167 nəfəri lehinə səs vermişdir. Parlamentdə "Rusiya qadınları" fraksiyasını təmsil edən fəallardan biri, Y.Laxova Türkiyə, Norveç, Fransa, hətta Pakistan kimi ölkələrdə qadınların hakimiyyətin yüksək eşalonunda təmsil olunduğu halda, Rusiyada "kişi şovinizminin" üstünlük təşkil etdiyini vurğulamış, bunu obrazlı şəkildə "milli" təhlükəsizliyin gizli təhlükəsi kimi qiymətləndirmişdir (185: 35).

Müşahidə və tədqiqatlar göstərir ki, ictimai-siyasi həyatda "qadın faktoruna" müraciət, dalğavari səciyyə daşı-

yır. Adətən, kəskin sosial qarşıdurmalar şəraitində “qadın gücünə” daha böyük ehtiyac duyulur. Sosioloq M.Zeynalovanın qeyd etdiyi kimi, 1990-cı illərdə Azərbaycanda müstəqillik uğrunda gərgin mübarizə getdiyi zaman ön cərgələrdə qadınlar da dayanırdı. Müstəqilliyin əldə olunmasında qadınların rolu danılmazdır. O zaman onlara böyük ehtiyac var idi və müstəqillik uğrunda mübarizədə gender mənsubiyyəti heç bir rol oynamırdı. Əksinə, qadınlar siyasi həyatda daha aktiv surətdə iştirak edirdilər, amma üstündən 15 il keçdikdən sonra bu fəallığın azaldığı müşahidə olunur (79: 137-138).

Görəsən qadınların siyasi həyatdan uzaqlaşmasının başlıca səbəbi və ya səbəbləri nə ilə bağlıdır? Bizə elə gəlir ki, “dinc şəraitdə” qadınların ictimai-siyasi həyatdan uzaqlaşması bir növ ənənəvi amillərlə bağlıdır. Əgər ağır, məşəqqətli illərdə (məsələn, müharibədə) ailələrin ağır yükü qadınların çiyninə düşərsə, nisbətən sakit şəraitdə təşəbbüsü kişilər ələ almağa çalışırlar. Hətta əksər ölkələrdə belə bir fikir formalaşıb ki, cəmiyyətin bütün sahələrində kişi və qadın əməyi qeyri-rəsmi qaydada bölüşdürülüb; belə ki, əksər idarəetmə sahələri, o cümlədən siyasətlə məşğul olmaq, kişilərin “vəzifəsinə” daxildir, lakin təhsil, səhiyyə və s. kimi “yüngül” sahələr “qadın işidir”. Bu cür “əmək bölgüsü” az qala bütün dünyada mövcuddur.

Qadın və kişi əməyinin, vəzifəsinin, geniş mənada davranış normalarının kəskin “antoqonist” qütblərə bölünməsi həm də cəmiyyətin mədəniyyət sisteminin konkret məsələlərə nüfuz etmə qabiliyyətinin formalaşmaması, mədəniyyət faktorunun ictimai-siyasi həyatın atributuna çevrilməməsi ilə bağlıdır.

Mədəniyyət elə bir sistemdir ki, cəmiyyətin ayrı-ayrı, lokal sahə və ukladları yalnız onun (mədəniyyətin) vasitəsilə nizama düşür, fəaliyyət göstərir. İnstitusional təsisatların zəif fəaliyyət göstərdiyi sahələrdə (və eləcə də dövlətlərdə) mədəniyyət bir bütöv sistem kimi təsir göstərə bilmir, hakimiyyətin və ideologiyanın əlavəsinə çevrilir. Bu cəhətdən keçmiş sovet məkanında mədəni-etik baxışların formalaşması qanunauyğunluğu diqqəti cəlb edir.

Sosializm cəmiyyətində qadın və kişilərin hüququ qanunlar çərçivəsində eyni dərəcədə qorunursa da, real həyatda vəziyyət başqa cür idi. Mövcud “planlı” cəmiyyətdə şəxsi-fərdi qabiliyyətlərdən daha çox, “planlı” inkişafa diqqət yetirilirdi. Kişilərlə yanaşı qadınlar parlament və hakimiyyətdə, partiya və sovet orqanlarında təmsil olunur, lakin həmin dövrdə qadınların şəxsi keyfiyyət və bacarığı deyil, hansı sosial zümrəyə, peşə və sənətə sahib olması önəmli sayılırdı. Məsələn, irəli çəkilən qadınlar arasında kimin hansı statusu “daşıması” təbii yox, süni metodlarla həll edilirdi. Kimin hansı “pillədə” dayanması “yuxarıların” tapşırığı ilə müəyyənləşdirilirdi. Kənd təsərrüfatı işçiləri üçün (aqronom, sağıcı, çoban və s.) ayrılan “yerə”, fəhlə sinfinin, sənaye işçisi nümayəndəsinin qarışmasına imkan verilmirdi. Eləcə də qadın və kişi deputatlarının kəmiyyəti əvvəlcədən müəyyənləşdirilirdi.

Əlbəttə bu gün belə bir “planın” mövcudluğu mümkün deyildir. Lakin təəssüf doğuran faktdır ki, Azərbaycan Milli Məclisində 2000-2005-ci illərdə qadınlar 125 yerdən cəmi 5-ni tutmuşlar; bu isə cəmi 12 % təşkil edir. Halbuki ölkə əhalisinin yarıdan çoxu qadınlardır. Ali təhsilli əhalinin 40 %-ni qadınlar təşkil etdiyi halda, dövlət struktur-

larında təmsil olunan qadınların sayı 14 %-ə bərabərdir. Ölkədə partiya üzvlərinin sayının az qala yarısının qadınlardan ibarət olması da elə ürəkaçan nəticələrə dəlalət etmir, çünki qadınlar bu qurumlarda ikinci dərəcəli işləri yerinə yetirirlər (42: 35).

Yeri gəlmişkən qeyd edək ki, dünyanın əksər siyasi qurum və parlamentlərində qadınların "sıxışdırılması" müşahidə olunur. Statistika göstərir ki, qadınların parlamentdə ən çox təmsil olunduğu region Şərqi Avropa ölkələridir (35,9 %). Qərbi Avropa və Amerika parlamentlərində qadınlar ümumi kəmiyyətin 13,2 faizini təşkil edirlər. Son seçkilər zamanı Rusiya Dövlət Dumasında 445 deputatın cəmi 45 nəfəri (10 faizdən çoxu) qadınlar olmuşdur. Özlüyündə belə bir fakt da maraqlıdır ki, Avropa Şurasina daxil olan 45 ölkənin 9-unda hakimiyyətdə bir qadın belə təmsil olunmur; 10 ölkədə 10 %-ə yaxın, yalnız 7 ölkədə 30 % qadın təmsil olunur. Avropa Şurasına daxil olan ölkələrin milli parlamentlərində qadınların sayı cəmi 17, 2 %-i təşkil edir (198: 75).

Son illərdə postsovet məkanında gedən demokratikləşmə prosesində bir sıra diqqəti cəlb edən proseslər baş vermişdir. Əvvəla qeyd etmək lazımdır ki, demokratikləşmə, adətən, cəmiyyətin bütün "qatlarına" nüfuz edir. Robert Dahl özünün "Demokratiya haqqında" kitabında yazır: "Demokratiyanın faydalı nəticələrinə aşağıdakılar daxildir: istibdaddan qurtulma, əsas hüquq və azadlıqlara riayət olunma, şəxsiyyət azadlığı, müqəddəratı təyinetmə, mənəvi avtonomiya, şəxsiyyətin inkişaf imkanları, şəxsiyyətin təməl maraqlarının qorunması, siyasi bərabərlik, sülhə canatma, tərəqqi" (183: 48). Bu deyilənlərə onu da əlavə etmək olar ki, demokratiya həm də cəmiyyətin idarə olunmasında,

mütərəqqi təsir mexanizmlərinin işlənib hazırlanması üçün münasib zəmin yaradır.

Son illərdə bir sıra keçmiş Sovet ölkələrində baş verən proseslər hakimiyyətdə qadınların daha geniş şəkildə təmsil olunmaları üçün şərait yaratmışdır. Məsələn, Gürcüstan, Ukrayna və Qırğızıstanda baş verən demokratik dəyişikliklər nəticəsində hakimiyyətdə daha çox qadınların təmsil olunduğu müşahidə olunur. Lakin cəmiyyət həyatında baş verən siyasi yeniləşmələr heç də bütün hallarda "xoşbəxt sonluqla" bitmir. Son illərin təcrübə və müşahidələri göstərir ki, keçid dövrlərinin siyasi kolliziyaları bəzən təkcə köhnə və yararsız olanları deyil, habelə təzə yarananları, rüşeym halında olan gərəkliləri də vurub dağıdır, məhv edir.

Sosioloq Kristian Çinkin yazır ki, qloballaşma gender əlaqələrinə mürəkkəb və ziddiyyətli üsullarla təsir etməkdədir. Müasir texnologiya bir çox qadınlar üçün azadlıq və seçim üsulu olsa da, bu digər qadınların ölüm və istismarı ilə nəticələndi. Şərqi Avropa və postsovet məkanında demokratiya və bazar iqtisadiyyatına keçid çox qadınların dövlət işlərində iştirakını aşağı saldı və onları bir çox iqtisadi hüquqlardan məhrum etdi (98).

Keçid dövrünün özü ilə gətirdiyi mənfi təzahürlər ən çox qadınların həyat və məişətində əks olunur. Bu cəhətdən Azərbaycan cəmiyyəti öz spesifik xüsusiyyətləri ilə fərqlənir; belə ki, Sovet İttifaqı dağıldıqdan sonra Azərbaycan vətəndaşları, xüsusən qadınlar, ağır sınaq və məhrumiyyətlərlə qarşılaşmalı olmuşlar. Torpaqlarının böyük bir qismini itirən, ev-eşiyindən didərgin düşən, mal-mülkü talanan azərbaycanlı qadınların böyük əksəriyyəti iri şəhərlərdə, bir qismi isə "çadır şəhərciklər"də yaşamağa məh-

kum olmuşlar. Necə deyərlər, tələbat özünə orqan düzəldir. Yeni mühitə düşən qadınlar istər-istəməz öz həyat tərzlərini dəyişməli olmuşlar. Yeni həyat tərzi, həm də yeni dünyagörüşü ilə müşayiət olunur. Tədqiqatçıların qeyd etdiyi kimi, müstəqilliyin əldə olunması, sosial-siyasi sistemin yenilənməsi cəmiyyətin sosial strukturunda və meyarları seçimində həlledici dəyişikliklərə səbəb olur. Ötən əsrin 80-ci illərində balşamış demoqrafik və miqrasiya prosesləri, uzunmüddətli müharibə, həyat səviyyəsinin son dərəcə aşağı düşməsinə səbəb oldu. Müharibədə verilmiş çoxsaylı qurbanlar, xüsusən, əhalinin iqtisadi mühacirəti reproduktiv nəslin disbalansına gətirib çıxardı, amma bu digər tərəfdən, həm də bizim cəmiyyətdə qadının rolunun güclənməsinə səbəb oldu. Ticarət, xidmət, mədəniyyət və elm sahələrində çalışan qadınların sayı xeyli artdı. İndi əhalinin qadın hissəsinin tam "kişi" fəaliyyət sahələrinə meyli hiss olunur. Onlar siyasi partiya, ictimai təşkilat və birliklərdə geniş təmsil olunurlar. Bircə onu qeyd etmək kifayətdir ki, Respublikada bu gün 50-ə yaxın qeydiyyatdan keçmiş Qadın Təşkilatı (QHT) var. Bütün bunlar Azərbaycanda tamam yeni gender situasiyasından xəbər verir (5: 115). Əlbəttə məsələ təkcə "iqtisadi münasibətlərin" yeni arenaya yönəlməsi ilə məhdudlaşmır, çünki yeni həyat tərzi istər-istəməz yeni etik prinsip və davranışların təzahürü ilə diqqəti cəlb edir.

K.Popper deyirdi ki, yalnız açıq cəmiyyətdə qadın öz dolğun ifadəsini tapa bilər, lakin bu son minillikdə belə bütün cəmiyyətlərin "açıq" olduğunu iddia etmək həqiqətdən çox uzaqdır. Az qala bütün dünyada qadın və kişi əməyi hələ də qeyri-bərabər dərəcədə qiymətləndirilir. Iqtisadi və mədəni cəhətdən geridə qalmış ölkələrdə isə qadın əməyi-

nin istismarı orta əsrlərdəki qaydada davam etməkdədir, xüsusilə müharibələrin, hərbi münaqişələrin baş verdiyi ölkələrdə qadınların həyat şəraiti nəzərə çarpacaq dərəcədə aşağıdır. Ölkələrarası və ölkədaxili münaqişələrin baş verdiyi ərazilərdə – Bosniya, Herseqovina, İraq, Albaniya, Əfqanıstan, habelə bir sıra keçmiş sovet ölkələrində hazırda milyonlarla insan qlobal ərzaq çatışmamazlığı, xəstəlik, infilyasiya şəraitində yaşayırlar.

Ekoloji böhran nəticəsində təkcə təbiət deyil, habelə cəmiyyət ağır sınaqlara mübtəla olur. Məhz buna görə də demək olar ki, yeni dövrdə insan ekologiyası elminin yaradılması uğurlu hadisə kimi qiymətləndirilməlidir. Filosof-ekoloq A.Şükürovun dediyi kimi, vaxtilə ekologiya dedikdə yalnız heyvan və bitkilər nəzərdə tutulurdusa (bir növ insan diqqətdən kənarda qalırdı), hazırda insan ekologiyası, insanın nadir-ekstremal şəraitə uyğunlaşması-adaptasiyası problemi ön plana çıxmışdır. "İnsanın, xüsusilə, bəşəriyyətin gözəl, incə yarısı hesab olunan qadının, daha dəqiq qız, bacı, ananın sağlamlığı məsələsi, daha çox diqqət cəlb edir. Heç kimə sirr deyildir ki, Sovetlər birliyi dövründə qadınlar, xüsusilə kəndli qadınlar, olduqca çətin şəraitdə işləyirdilər. Pambıq tarlalarında, üzüm və tütün plantasiyalarında, qızmar günəş altında işləyən qadınların başına çox vaxt təyyarələrdən zəhər səpirdilər. Onlar hətta normal içməli su tapa bilmirdilər. Nəticədə, bir sıra xəstəliklər tüğyan edirdi.... Pambıqçılıq rayonlarında qadınların 60 faizi ağır kənd təsərrüfatı işlərində işlədiyindən bu rayonlarda hamiləliyin vaxtından qabaq pozulması 12 faiz hüdudunda olmuşdur" (148: 27).

Müasir cəmiyyətdə texnokratiyanın həyatın bütün sahələrinə durmadan, sürətlə nüfuz etməsi inkarolunmaz

faktdır. İndi iqtisadi-sosial-mədəni həyatın elə bir “avtonom” hissəsi yoxdur ki, kompüter, oraya tətbiq edilməsin. Texnikratik tərəqqinin bu cür geniş miqyasda yayılması vaxtilə təqdir edilsə də, hazırda cəmiyyətin müxtəlif təbəqələri tərəfindən birmənalı qarşılanmır, çünki texnika insan həyatına bir növ “öz prinsipləri” ilə daxil olur. Elə bu səbəbdən də insanların, xüsusən gənclərin həyat tərzində, mənəviyyatında mənfi meyllər qabarıq şəkildə üzə çıxır. Görkəmli rus alimi R.V. Xoxlov vaxtilə “Literaturnaya qazeta”nın səhifələrində çıxış edərək ali məktəblərdə təbiətşünaslıq (dəqiq) elmlər sahəsində təhsil alan tələbələrə humanitar elmlərin daha dərin öyrənilməsinə diqqət artırmağı tələb edirdi. Özü “dəqiq elmlər” sahəsində çalışan MDU-nun mərhum rektorunun dediklərində böyük bir həqiqət vardır. Yalnız bir elm sahəsinin “çərçivəsində” fəaliyyət göstərmək heç də bütün hallarda uğur gətirmir.

Digər bir rus aliminin, akademik ədəbiyyatşünas P.A.Nikolayevin dediyi kimi, bu gün kompüter texnologiyası insan həyat fəaliyyətinin bütün sferalarına daxil olaraq sosial-mənəvi hadisəyə çevrilir. Hətta kompüterlərin köməyi ilə cinayətlər də törədilir. Elə buna görə də kompüter fəaliyyəti ilə bağlı olan hər şey insan zəkasının, insan şüurunun, insan etikasının nəzarəti altında olmalıdır (233: 149-150).

XX əsrin 80-ci illərindən etibarən İ.Vallerstayn əsərində müasir qloballaşmanın sosial aspektdən öyrənməyin əhəmiyyətindən yazırdı. Qloballaşma 4 aspektdə: iqtisadi, sosial, siyasi və mədəni sferalarda dərin inkişaf etmişdir. Bəzən qeyd olunduğu kimi bu gün qloballaşma daha çox amerikanlaşmada (və yaxud çinliləşmədə, yaponlaşmada) üzə çıxır. Bu prosesin simvolları “pepsi”, “kola-kola”,

beysbollar, rep, rok, pop və s. hesab olunur. Qloballaşma prosesinin əsas daşıyıcıları “Makdonalds”, “Pissa-xati”, “Nayk”, “Adidas” və s. firmalardır (242: 309-310).

Bütün tarix boyu qloballaşmanın ən yüksək mərhələsini təşkil edən XXI əsrdir. Çox təəssüf hissi ilə qeyd etməliyik ki, dünyanı ağır sınaqlardan, müharibə və dağıntılardan xilas edə bilməmişdir. Bəşəriyyət yenə zorakılıqla üz-üzədir. Ailə və cəmiyyət daxilində mövcud olan hər cür neqativ hadisələr qlobal miqyasda və hərbi spektrdə baş verməkdədir. Hələ 1970-ci ildə Parisdə YUNESKO-nun təşkil etdiyi konfransda görkəmli fizioloq Xose Delqalo özünün parlaq eksperimentlərinə əsaslanaraq inamla bildirdi ki, yaxın beş iş ərzində biz təcavüzkar davranışın müalicəsi sahəsində inqilabın şahidi olacağıq. Bu, müxtəlif yolxucu xəstəliklərin antibiotiklərlə müalicəsini xatırladan bir hal olacaqdır. Bu konfransın digər iştirakçısı, professor Barslou, həmçinin, belə hesab edirdi ki, bəşəriyyət, nəhayət ki, ümumdünya əməkdaşlığına ümid bəsləmək üçün hər cür əsaslara malikdir və yalnız bir neçə addım atmaq lazımdır ki, müharibələr insanlar arasındakı ünsiyyətin hədsiz köhnəlmiş bir üsuluna çevrilmiş olsun. Lakin bu addımların atılması üçün iki və ya üç əsr vaxt nəzərdə tuturdu. Bu gün bir şey də aydındır: ötən 30 il müddətində planetdə təcavüz və onun nəticəsi olan zorakılıq nəinki azalmamış, əskinə, rəngarəng formalar kəsb etmişdir.

XX əsrin son rübündə əhali artımının güclənməsi, urbanizasiya templərinin yüksəlməsi, şəhərlərin böyüməsi yalnız mənzil və qida problemləri doğurmur. Əsas cəhət ondan ibarətdir ki, əhalinin artımı və cəmiyyətin hipertrofiyası insanların dözümlülük səviyyəsini azaldır, dep-

ressiv reaksiyaların, nevrozların və aqressiv davranışların sayını artırır.

Nazarçukun qeyd etdiyi kimi, mədəniyyət bütöv bir sistemdir və həmin sistemdə hansısa elementin zədələnməsi bütövlüyün pozulması ilə nəticələnə bilər. Mövcud mədəniyyət ənənələrindən yalnız o vaxt uzaqlaşmaq olar ki, individ yeni və daha əlverişli davranış qaydalarına alışa bilsin. Mədəniyyətdə bu vəzifəni-itirilmiş ənənələrin əvəzlənmə və kompensasiya rolunu diskurslar oynayır. Diskurslar - inamın (geniş mənada mədəniyyətin) generatorları da hesab oluna bilər (221).

Yeri gəlmişkən, qloballaşma ilə modern konsepsiyasına inam mexanizminin formalaşmasını A.Qiddens ətraflı şəkildə təhlil etmişdir. O özünün "Modernin nəticəsi" kitabında qloballaşmanın mahiyyətini sosial münasibətlərin intensivikasiyası kimi qiymətləndirərək belə qənaətə gəlir ki, lokal fenomenlər onlardan çox-çox uzaqlarda və ya əksinə olan hadisələrin təsiri altında formalaşır. Məsafənin aradan götürülməsi psixoloji və mədəni məkanın dəyişməsi (aradan çıxması) və abstrakt sosial inamın yaranması ilə nəticələnir (300: 62). Sosioloq Bokenford isə belə hesab edir ki, müasir hüquqi dövlət daha çox özünün yaratmadığı, hazır şəkildə aldığı mədəni şəraitdən asılıdır (290: 272-283).

Vaxtilə böyük ingilis alimi Ç.Dikkensə belə bir sual vermişdilər ki, siz islahatlardan danışırsınız, o nə islahatlardır elə? Yazıçı cavab vermişdi ki, mən insanlıq islahatları keçirmək istəyirəm. Artıq 3-cü minilliyə qədəm qoyan bəşəriyyət hələ də özünün başlıca "islahatlarını" keçirib başa çatdırmamışdır, bu məhz "insanlıq islahatıdır".

Məlum həqiqətdir ki, cəmiyyətin əxlaqını nə fəlsə-

fi cərəyanlar, nə də ayrı-ayrı mütəfəkkir və ictimai-siyasi xadimlər deyil, sosial təbəqələr, xalqlar, millətlər, bir sözlə, cəmiyyət özü müəyyən edir və istiqamətləndirir. Əldə edilən biliklər, öyrənilən əxlaqi şüur elementləri isə sistemləşdirilərək bir sıra elm sahələri, o cümlədən etika və etik kateqoriyalar vasitəsilə formula edilir.

Sosial-mənəvi davranışların etika və gender tərəfindən öyrənilməsi bir sıra mühüm amillərlə şərtlənir. Tarixi proseslərin müşahidə və təhlili göstərir ki, patriarxal düşüncə tərzi "kişi" və "qadın" fenomenlərinin az qala antoqonist cəbhələrə bölünməsinə gətirib çıxarmışdır. Nəticədə təkcə qadınlar deyil, elə kişilər də bir sıra zərərli ənənə, davranış və münasibətlərin girovuna çevrilmişdir.

Yeni dövrün mədəniyyət sistemi gender dünyagörüşünə xüsusi baxış bucağı altında nəzər salmağı tələb edir. Genderin müasir qlobal və sosial-ekoloji problemlərlə sıx əlaqəsi, cəmiyyətdə genderlərin qarşılıqlı münasibətlərinə yenidən baxmağın labüdlüyünü bir daha təsdiq edir. Məhz bu zərurətin nəticəsidir ki, son illərdə, xüsusən Azərbaycan müstəqillik əldə etdikdən sonra, gender elminin öyrənilməsinə diqqət artırılmışdır. Qadın və kişi münasibətlərinin gender müstəvisində tədqiqi yeni dövrün öz qanunauyğunluğundan irəli gəlir.

## 2.2. Gender və ədalət. Bərabərlik problemləri

Mahiyyət etibari ilə bütün mövcud dini təlimlərdə, müqəddəs kitablarda və etik-fəlsəfi baxışlarda qadın və kişinin bərabərliyi təsbit olunur, hüquqi və dövləti təsisatlar-

da isə hər cür gender diskriminasiyası qadağan olunur. Bəs real həyatda vəziyyət necədir?

Yer kürəsində və bütün dövlətlərdə hər iki genderin nümayəndələri təxminən bərabər sayda olsalar da, real həyatda onların tutduğu ictimai-siyasi mövqe və onlara bəslənilən münasibət eyni deyildir. Qadınlar "ənənəvi qaydada" hakimiyyət strukturlarında, parlamentlərdə az təmsil olunurlar. Bütün bunların ənənəvi-psixoloji səbəbləri vardır. Adətən (bu demək olar ki, bütün dünyada qəbul olunmuş aksiomadır) lap uşaq vaxtlarından oğlanları diribaş, cəsur, hökmlü, qızları isə zərif, sözəbaxan, təmkinli olmaq ruhunda böyüdürlər. Psixoloqların qənaətinə görə, əslində mütləq mənada "anadangəlmə" güclü və zəif cinslər olmur; yalnız həyatın inkişafı prosesində qadın və kişi gücünün tənzimlənməsi baş verir. Belə ki, zərif və zəif olması tərbiyə vasitəsilə təlqin olunan qadınlar istər-istəməz öz mövqelərini əldən verir, kişi gücünün təsiri altına düşürlər. Elə bu səbəbdəndir ki, təbiətən fiziki gücü az olan kişi güclü qadınları özünə tabe edir. Adətən qadınlar ev-ailə təsərrüfatlarında daha yaxından və fəal iştirak edirlər. Uşaq böyüdüb tərbiyə etmək missiyası da qadınlara həvalə edilir. Elə bu səbəblərdəndir ki, çox vaxt qadınların öz ərləri onları həmişə mətbəxdə görməyə adət etdiklərini söyləyirlər. Hətta klassiklərdən birinin dediyi "kişinin ürəyinə yol mədədən başlayır" fikrini xatırladanlar da olur.

Əvəzində nə baş verir? Sanki yüzillərdir ki, bəşəriyyət iki qütbə parçalanıb: kişi və qadın. Kişilərə daha çox döyüşkənlik hissi aşılandığı üçün qəddar, qadınlara ədalət hissi aşılandığı üçün ürəyiyumşaq olurlar.

Ölkəmizin ictimai-siyasi həyatı son illərdə qadınların fəallığının artması ilə müşayiət olunur. Son illərin prezi-

dent, parlament və bələdiyyə seçkilərində qadınlar xüsusilə fəallıq göstərirlər, lakin bu prosesdə də ədalət prinsipinin gözlənilmədiyi üzə çıxır: a) qeyd edildiyi kimi, yüksək orqanlara qadınların namizəd kimi irəli sürülməsi və seçilməsi qeyri-qənaətbəxşdir; b) qadınların seçkilərdə iştirakına bir çox hallarda (hətta, məişət səviyyəsində) maneçiliklər törədilir.

Qeyd olunan ikinci hala əksər vaxtlar kənd yerlərində təsadüf olunur. Seçki məntəqələrinə gedən ərin öz arvadının əvəzinə qutuya bülleten atıb “səs vermək” istəyi elə də nadir hadisələrdən deyil. Qadının öz fikrini açıq şəkildə ifadə edə bilməməsi günümüzün reallığı olsa da, bəzən ədalətsizlik kimi deyil, adət-ənənə kimi qiymətləndirilir ki, bu da kökündən səhv yanaşmadır.

Feminizm və feminist nəzəriyyə sayəsində gender mühüm əhəmiyyətə malik sosial faktor kimi tanınmaqdadır. Sosioloq M.Vintersin qeyd etdiyi kimi, həqiqətən də, seksual fərq bu gün çoxları tərəfindən ictimai, sosial bir hadisə kimi qəbul edilir. Feminist alimlər genderin daha anlaşıqlı olması üçün böyük işlər görmüşlər... (329: 158). Bəzi feministlər gender haqqında nəzəriyyəni inkişaf etdirərkən qadınlar arasında sinfi, dini, yaş və etik fərqlərin böyük ölçüsünü nəzərə almadıqlarına görə tənqid edilmişlər. Belə tənqidlər bizi tədqiqat haqqında məlumatlandırsa da, arqumentlərinmizi inkişaf etdirsə də, onlar bizim diqqətimizi genderin özünün əhəmiyyətli faktor olması fikrindən yayındırırlar.

Qadınların ənənəvi ailələrdə yaşayıb-yaşamamasından, onların genderləşmiş təbiətindən və onları əhatə edən ideologiyadan asılı olmayaraq, həm keçmişdə, həm də indi bü-

tün qadınlar bu və ya digər dərəcədə təsirə məruz qalmışlar. Bunu danmadan və təsiri azaltmadan deyə bilərik ki, gender faktoru müxtəlif yarımqruplara müxtəlif ölçüdə və müxtəlif yollarla təsir edə bilər.

S.M.Okin tədqiqatlarında qeyd edir ki, bir cəmiyyət olaraq biz öz demokratik dəyərlərimizlə fəxr edirik. Biz inanmırıq ki, insanlar anadangəlmə fərqlərinə görə sıxışdırılmalıdırlar. Bəziləri əldə etdikləri arzu olunan pozisiya nüfuzuna görə və ya öz var-dövlətlərini artırdıqlarına görə fərqlənirlər. Düzdür, imkan bərabərliyi bizim əsas açıq məqsədimizdir. Konstitusiya ədalətin mühüm şərəf olduğunu, ümumi rifah və azadlığın, xoşbəxtliyin vacibliyini qeyd edir və göstərir ki, bu azadlıq və ədalət hər kəs üçün olmalıdır (316).

Bəzən yeniyetmə və cavanlar "əxlaq" deyərkən elə "seksual əxlaq"ı nəzərdə tuturlar və bu ifadələri ekvivalent kimi işlədirlər. Bütün həyatımız boyu bizim seksual identifikasiyamız və əlaqələrimiz xoşbəxtliyimizin və özümüzü dərk etməmizin mərkəzində durur. Sosial rollarda habelə ər, arvad, sevgili, ata, ana-bizim qəbul etdiyimiz ən mühüm ətrafımız olaraq qalır. Bizim fəaliyyətimiz seksual əlaqələr konktekstində digər insanlara hər şeydən çox təsirli görünə bilər. Biz ya bir kəsi xoşbəxt edər, ya da kiminsə ürəyini qıra bilərik.

XX əsrin ən mütərəqqi filosoflarından biri hesab edilən Bertrand Rassel seksual əxlaqın liberallığından bəhs edir. O, seksual əxlaq üzərində qoyulan ənənəvi qadağaları tənqid edir və göstərir ki, elə əxlaq qaydaları haqda qaydalardır ki, onlar da insan xoşbəxtliyinə təkan verir. Rassel kəbindən əvvəl və kəbindən xaric seksual əlaqələri qəbul

edirdi. O, həzz almanın yaxşı hal olmasını vurğulasa da, bunun müəyyən əxlaq narahatlığı yaratmasına məhdudiyyətlər qoyulmasına da münasibətini bildirirdi.

Başqa bir filosof Tomas Ter qeyd edir ki, seksual əxlaqi münasibətlərdə insanlardan istifadə etmirik, əksinə, biz onlarla hörmətlə davranırıq və biz əxlaq daşıyıcısı kimi onlardan ləyaqətlə istifadə etməliyik. Seksual davranışda əsas kardinal prinsip "insanlardan istifadə etmə" olmalıdır. Bu prinsipdə azadlığa daha çox önəm verilir. O, ənənəvi əxlaqi qəbul etmir, aldatmaqdan tutmuş zorlamaya qədər hər cür zorakılığın əleyhinədir.

Rocer Skruton isə ənənəvi seksual əxlaqa bəraət qazandırır. O, Kant nəzəriyyəsini tənqid edir, qeyd edir ki, insan münasibətlərinin perspektivinə yalnız Aristotelin etik xarakterə olan yanaşması təkan verə bilər. Skrutona görə, seksual ləyaqət bakirəlikdir. Bu seksual davranışdan imtina etmək deyil, erotik məhəbbətə olan qadağadır. Məhəbbətin əsas meyarı ləyaqətdir ki, bu da insanı daha da çiçəkləndirir.

Genderəsaslı bərabərsizlik çox təəssüflər ki, cəmiyyətimizdə hələ də mövcuddur. Hələ də iqtisadi şərtlər qadın və kişilər üçün kəskin fərqlənir. Hələ də valideynlərdən asılı uşaqlar, "xroniki xəstə" ailə üzvləri əsasən anaların, qadınların himayəsindədir. Yaşlı qadınlar arasında olan yoxsulluq həddi həddən çox yüksəkdir. Bu, siyasi cəbhədə özünü daha qabarıq göstərir (parlamentdəki qeyri-mütənasiblik), evdə ödənilməyən ev işlərinin bölgüsü bu məsələlərdən ən ağrılısıdır (316).

Ailə məsuliyyətlərinin genderlər arasında bərabər bölünmə məsələsi, xüsusilə uşaq qayğısı baş tutmayan nadir inqilabdır. Bugünkü uşaqlı işləyən anaların işi, işləməyən

analarının işi ilə müqayisə olunmalıdır. Qadınların az bir proporsiyası siyasət, biznes, professiya pozisiyasında yüksələ bilərlər. Qat-qat çox qadınlar isə aşağı maaşlı perspektivsiz, günəmuzd işlərdə çalışırlar (237: 13-14).

Ailədə və ictimai mühitdə qadınlar ədalətsizliklə daha tez-tez üzləşirlər. Boşanmaların əksəriyyəti ailə qayğılarının qadınlara həvalə olunması səbəbindən baş verir, adətən uşaqlar qadınların öhdəsində, himayəsində qalır.

İşdə qadınların karyera sahəsində irəliləməsi ləng gedir, amma ixtisarla bağlı proseslərdə qadınlar kişilərə nisbətən öz iş yerlərini itirmək təhlükəsi ilə daha tez-tez üzləşirlər.

Bir çox hallarda, cəmiyyətdə mövcud olan sosial-sinfi bərabərsizliyi əsaslandırmağa çalışan “tədqiqat işlərinə” də təsadüf edilir. Əslində isə, hər bir insan övladı ailə situasiyasından təcrid olunmuş halda, tam bərabər fərdlər halında dünyaya gəlir, amma bəziləri kasıb, bəziləri orta, bəziləri isə evsizlik şəraitində yaşamalı olurlar. Təbii ki, imkanlı, varlı ailələrdə doğulanlar da olur. Bundan başqa bir çoxları tənha və ya ayrılmış valideynlərlə, konfliktlərlə dolu ailələrdə, müəyyən qismi isə məhəbbət və xoşbəxtliklə əhatə olunmuş ailələrdə böyüyürlər.

Təbii ki, on illərin kasıblığını aradan götürmək üçün on illərin gərgin əməyi və səyi lazımdır. Hətta bu qeyri-bərabərliyin aradan qaldırılacağı bir şəraitdə belə problemin tam həlli mümkün deyildir, çünki sadəcə olaraq hər bir kəsin bərabər imkanlar əldə etməsi qeyri-mümkündür. Bu qeyri-bərabərliyin kökü ailədən başlayır. Bir çox hallarda isə insanların genderinə görə verilən qiymət, imkan və inkişaf amillərinə öz təsirini göstərir. Neofeministlər gender strukturlu ailədə mövcud olan bu cür tendensiyanı

məlum identifikasiyalara və həyat tərzinə hansı miqyasda təsir etdiyini lazımi səviyyədə qiymətləndirə bilmirlər. Bu da onunla bağlıdır ki, genderin sosial konstruksiyası ailədə və qadın valideynliyi institutlarında çox möhkəm yer tutur (316: 18-19). Cəmiyyətdə ədalət prinsipinin özünün formalaşması bu prinsipin ilkin rüşeymlərinin yarandığı ailələrdə və sonrakı mərhələdə cəmiyyətdə baş verir.

Adətən insanlarda ədalət hissi lap uşaqlıqdan yaranır. Bu mənada göz açdığı mühit, xüsusən ailə, uşaqların zehninə və dünyagörüşünə güclü təsir göstərir. Öz vətəndaşının təlim-tərbiyəsini öhdəsinə götürmüş cəmiyyətdə ədalət hissi mənəviyyatın tərkib hissəsinə çevrilir, qanun səviyyəsində qəbul edilir. Lakin qanunların işləmədiyi cəmiyyətlərdə, mühitdə ədalət hissi arxa plana keçir. Belə bir şəraitdə uşaqlar təlim-tərbiyədən uzaq düşür, necə deyərlər, onların gələcək taleyi qəzavü-qədərin öhdəsinə tapşırılır. Adətən atasız böyüyən uşaqların bütün yükü anaların üstünə düşür. Nəticədə, tək ana öz övladını yetkin, ədalətli bir şəxsiyyət kimi böyütməkdə çətinlik çəkir. Bu cür uşaqlarda çox vaxt ətraf aləmə qəzəb və nifrət hissi üzə çıxır. Adətən, nifrət - nifrət hissi, ədalət - ədalət hissi doğurur. Halbuki normal şəxsiyyətin formalaşdırılması real tərbiyə müstəvisində həyata keçə bilər.

Fəlsəfi antropologiyanın banisi Maks Şeler "insan obrazı" yaratmağa təşəbbüs edərkən 5 "ideal tip" müəyyənləşdirir: Birinci ideal tip, insan mövcudluğu haqqında dini inamdır. Burada "medokosmik" anlam insanı təbiətin fövqündə təqdim edir (Xristianlıqda). 2-ci ideal tip-homo sabiens insanı ağıl (zəka) daşıyıcısı kimi təsvir edir. Ağıl, idrak ən mühüm olan kimi qəbul edilir. 3-cü tip insan ide-

yası-homo faber "işləyən adam". İnsan və heyvan arasında yalnız kəmiyyət fərqi var, ruh passivdir, zəka texniki səciyyə daşıyır və s. 4-cü ideal tipdə deqradasiya önə çəkilir. 5-ci ideal tipdə insan şəxsiyyət kimi nəzərdən keçirilir. Filosof və psixoloqların böyük əksəriyyəti davranışların iki əsas tipini göstərirlər: adaptiv və kreativ (230: 590).

Yaradıcılıq prosesində insan yeni reallıq yaradır və onun yaratdığı başqaları tərəfindən istifadə olunur. A.S.Puşkin yazırdı ki, "ilham satılmır, amma əlyazmaları satmaq olar".

Yaradıcılıq bir növ irəlicədən proqnozlaşdırılmayan, necə deyərlər, "qeyri-şüuri", qəfil, idarə olunmayan prosesdir. A.Hüqo yazır: "Mən özümü yox, allahın diktə etdiyini yazıram". Avqustina deyir: "Mən özüm yox, fikirlərim mənim haqqımda düşünür". Yaradıcılıq atmosferi, yaradıcı adamın ətraf-mühitlə əlaqəsi də müxtəlif cür olur. Hər bir sənətkarın öz yazı manerası olur. R.Rollan işləyərkən şəraba, Balzak, Bax, Şiller kofeyə, Edqar Allan Po, C.Lennon və C.Morrison narkotikə üstünlük verir, Şiller ayaqlarını soyuq suya qoyur. Russo günəşin altında dayanır, Milton və Puşkin ağac taxtda uzanmağı sevirdi (230: 532-533).

Marksizm ictimai həyatın bütün sahələri kimi, feminizm, daha doğrusu, qadınlarla bağlı olan bütün diskriminativ hallara sinfi nöqteyi-nəzərdən yanaşmışdır. F.Engels "Ailənin, xüsusi mülkiyyətin və dövlətin mənşəyi" adlı əsərində göstərir ki, mülkiyyətin kişilərin əlində cəmləşməsi qadınların əsarətinin əsasını təşkil edir. Lakin F.Engels onu da qeyd edir ki, sinifli cəmiyyətdə mülkiyyət sahibi olmayan kişilər də qadınlar kimi hüquqsuz olur və istismara məruz qalır (273).

Sonrakı mərhələlərdə qadınların "sosial statusunun" müəyyənləşdirilməsi istiqamətində daha dərin axtarışlar

aparılmışdır. Bir çox tədqiqatçılar (K.Millett, A.Dvorkin, K.Delfi, M.Deyli və b.) belə hesab edirlər ki, ümumiyyətlə, kişilərin qadınlar üzərində hökmranlığını təmin edən bir sistem (patriarxal sistem) mövcuddur.

Müasir dövrdə qadınların cəmiyyətdə mövqeyini müəyyənləşdirməyə çalışan hərəkat, cərəyan və tədqiqatların istiqamətləri rəngarəngdir. Bunlardan biri "mədəni feminizm" adlanır. Həmin istiqamətin tərəfdarları "qadın mədəniyyəti" fenomenini qabardır, daha çox mənəvi amillərin, dilin, analıq hissinin rolunu diqqətə çatdırırlar. Həmin cərəyana nisbətən yaxın olan psixoanalitik feministlərin (K.Millet, J.Qrier, K.Xorni və b.) nəzəriyyəsinin əsasını qorxu təşkil edir (171: 31).

Fransada çox geniş yayılmış post-modernist feminizmin tədqiqatçıları (D.Batler, X.Sike, Y.Kristev və b.) dil, hakimiyyət, nüfuz və s. kimi amilləri daha çox qabardırlar.

Ötən əsrin ikinci yarısından etibarən Qərbdə gender diskriminasıyasına yeni sosiomədəni bucaq altında nəzər salınmağa başlanıldı. Fransız filosofu (ekzistensialist Simone de Bovuarın "İkinci cins" (1949), Betti Fridanın "Qadın mistikası" (1963), S.Fayerstonun "Cins dialektikası" (1970) və s. əsərlərində kişi və qadın münasibətlərinin formalaşmasında əmək bölgüsü, dəyərlər, simvolların rolu və s. məsələlərə toxunulmuşdur. Bu əsərlərin əsas qayəsi vətəndaş cəmiyyəti qurmaq olmuşdur. Elə bir cəmiyyət ki, orada söz azadlığı təmin olunur, aşkarlıqdır, müxtəlif səciyyəli informasiyalarla tanışlıq mümkündür, xaricə azad gediş-gəliş var, xarici ölkələrlə elmi və mədəni əlaqələr təmin edilir. Mürəkkəb sistemli plüralist cəmiyyətdə şəxsiyyət-cəmiyyət, şəxsiyyət-hakimiyyət məsələsi demok-

ratik prinsiplər əsasında həll olunur. Bu məsələlər daim sosioloqları düşündürməkdədir. Artıq "dövlət üçün adam" konsepsiyasını, "dövlət adam üçün" konsepsiyası əvəz edir. A.N.Arininin dediyi kimi, yalnız belə bir əvəzləmədə cəmiyyət öz insanlarının səsini eşidər, öz vətəndaşının qayğısına qalar (161 : 48).

Kompleks gender yanaşmanın metodologiyası iqtisadi və sosial hüquq şurasında (ECOSOC) 1997-ci ildə hazırlanmışdır. Kompleks gender yanaşmasının əsasında sosial ədalət faktoru, insan hüququ, kişi və qadın bərabərliyi və inkişafın stimullaşdırılması prinsipi dayanır. Sənəddə göstərildiyi kimi, bütün sahələrdə, o cümlədən iqtisadiyyatda inkişafın rəhnini hər bir sosial qrupun maraq və tələbatlarının düzgün istiqamətləndirilib istifadə olunması təşkil edir.

Kompleks gender yanaşması gender bərabərliyinin qlobal strategiyası BMT-nin qadınların vəziyyəti ilə bağlı 1995-ci ildə Pekində keçirdiyi dördüncü konfransın materiallarında geniş əks olunmuşdur. Həmin sənədin "Qadınlar və iqtisadiyyat" fəslinin 164-cü paraqrafında kompleks gender yanaşmasının əsas məsələləri xüsusilə vurğulanmışdır.

Müasir dünyada gedən mürəkkəb proseslərin təhlili göstərir ki, iqtisadi və siyasi sahələrdəki inteqrasiyaların mahiyyəti heç də ilk baxışda göründüyü kimi sadə deyildir. Ən böyük problemlər isə iqtisadiyyat və ticarət siyasəti ilə bağlıdır. Qlobal iqtisadiyyatın restrukturizasiyası nəticəsində milli dövlətlərin sosial siyasətində və əmək bazarında əsaslı dəyişikliklər yaranır. Belə ki, milli dövlətlərin iqtisadi və siyasi suverenliyinin aşağı səviyyəyə enməsi təsirsiz ötüşüb keçmir. Iren van Staveren həmin problemə toxu-

narkən yazır ki, belə bir şəraitdə sosial təhlükəsizlik özünün son həddinə çatır. Milyonlarla kasıb adamın - kişi və qadınların vəziyyəti daha da ağırlaşır, onlar özlərinin əsas həyati tələbatlarını ödəməkdən məhrum olurlar.

1920-ci illərdə ingilis filosofu və riyaziyyatçısı Bertran Rassel boşanma haqqında yeni mülahizələr irəli sürdü. O, təklif edirdi ki, mövcud ənənələr və mövcud qanunlar boşanmaya “öz prizmasından” yanaşmalıdır. Belə ki, qanun boşanmaya icazə verməli, ənənə isə qadağa qoymalıdır. Özlüyündə maraqlı görünən bu ideyanın tətbiqi o qədər də asan deyildir. Ailənin möhkəm əsaslar üzərində dayanmasında maariflənmə işi daha səmərəli nəticələr verir. Daha dəqiq desək, ailə quran tərəflərin səviyyəsi çox şeyi həll edir. Yuri Rürikovun belə bir fikri ilə razılaşmalı oluruq ki, mədəniyyət - ailədə uğurlu nəticə üçün ən yaxşı yoldur. Ona görə də ailə problemlərinin həlli üçün ən yaxşı yolları axtarıb tapmaq lazımdır (236 : 232).

Adi məişət ənənələrində və bir çox tədqiqat əsərlərində adətən qadınların sosial statusu arxa plana çəkilir, əvəzində onun fiziki-anatomik keyfiyyətləri qabardılır. Bu cəhətə diqqət yetirən Z.Freyd vaxtilə “qadının biloloji faciəsi” anlayışını işlətməli olmuşdur. Əsl mahiyyətdə isə, kişi və qadın “başlanğıcı” arasındakı fərqin bünövrəsini patriarxal mühitdə əsrlər boyu yaranıb formalaşmış baxışlar təşkil edir. Məhz patriarxal mühit “maskulinləşmiş” kişiyə qadınlara nisbətən daha böyük azadlıq verir. Mədəniyyətin bu tipi (patriarxal tip) iki cins arasında münasibətləri əvvəlcədən müəyyənləşdirir. Məhz həmin tip prinsipial bölgü aparır. Rus filosofu T.A.Klimenkovanın dediyi kimi, bu tip mədəniyyət kişiyə, məsələn adam öldürməyi, zorakılıq etməyi, cinayət törətməyi və s. rəva bilir (200: 137).

Mərkəzi və Şərqi Avropada kommunist rejiminin süqutundan sonra həmin məkanda insan alveri xüsusi bir problem kimi ortaya çıxmışdır. Rəsmi məlumatlardan belə məlum olur ki, təkcə 1997-ci ildə həmin regionlardan və MDB məkanından Avropa ölkələrinə və Amerikaya 175 min qadın satılmışdır (173; 430).

XX əsrin sonlarından etibarən iki mövcud sistem arasından uzun illərdən bəri lövbər salmış dəmir pərdənin götürülməsi, sürətli iqtisadi inteqrasiya, siyasi münasibətlərdə yumşalma, postsovet məkanında vətəndaş cəmiyyəti quruculuğu sahəsində atılan ilk addımlar, postindustrial cəmiyyətlərdəki yeni sənaye intibahları, bir sözlə, yeni əsrin yeni ab-havası dünyanın mənzərəsini dəyişməyə başladı. Qloballaşma nəticəsində get-gedə “kiçilməyə” başlayan dünyada siyasi-iqtisadi-elmi-mədəni əlaqələrin genişlənməsi artıq yeni problemlərlə müşayiət olunmaqdadır. Bu gün dünyada “böyük köç” mövcuddur. Hər il milyonlarla insan bu və ya digər ölkələrə miqrasiya etməkdədir. Əsasən inkişaf etmiş ölkələrə üz tutan miqrantlar arasında qadınların xüsusi çəkisi vardır. Rus iqtisadçısı Y.V.Türükanova bu münasibətlə yazır: “Artıq miqrasiya - bu əsasən kişi işidir deyə bəyan edilən mif aradan götürülmüş və onun yerinə yeni daha təhlükəli stereotip gəlmişdir: miqrant-qadınlar əsasən ən aşağı sosial statusa malik qadınlardır və onlar antisosial işləri yerinə yetirərək cəmiyyəti pozurlar. Beləliklə, miqrant-qadın imici marqinal kimi formalaşdırılmışdır” (194: 423).

Bundan başqa qadınların miqrasiya etməsi cəmiyyətdə heç də birmənalı qarşılanmır. Əgər hansısa xarici ölkəyə çıxıb gedən kişinin bu hərəkəti onunla təmasda olanlar tərəfindən əksər hallarda rəğbətlə qarşılanırsa, miqrasiya edən

qadın mənsub olduğu mühit və təbəqə tərəfindən pis qarşılanır, bu cür qadınlar haqqında mənfi fikir formalaşdırılır. Adətən öz ocağını tərk edib xarici ölkələrə üz tutan qadınları, öz yaxın ətrafı belə yüngül yolla pul qazanmaq arzusuna düşən qeyri-ciddi hərəkət sahibi kimi qiymətləndirirlər.

Milli mədəniyyətin davranışlara təsir göstərən əsas amilləri bunlardır:

*tərbiyə;*
*təhsil;*
*iqtisadiyyat;*
*asudə vaxtdan istifadə;*
*din və əxlaq;*
*siyasət və hüquq.*

Fərdi və kollektiv şüurun müəyyən səviyyəsi, onun dünyanı dərk etməsi ilə sıx bağlı olan mentalitet, adət-ənənə, mədəniyyət, sosial strukturla əlaqədar meydana gəlir və tarixi-mədəni dinamikaya əsaslanır. Məhz mentallıq fərqinə görə bir xalq üçün münasib olan hal, digər bir xalq tərəfindən qəbul edilmir. Bu hal təkcə adət və ənənələrlə deyil, həm də istehsal proseslərinin mübadiləsində də üzə çıxır. Məsələn, ötən əsrin 50-ci illərində yapon firmalarının tətbiq etmək istədikləri "amerikasayağı" - yüksək əməyə görə yüksək əməkhaqqı prinsipi özünü doğrultmadı; elə Amerika istehsalçılarının 1970-ci illərdə həyata keçirmək istədikləri "yaponsayağı" yenilik, "keyfiyyət dərnəkləri" də iflasa uğradı. Soz yox ki, burada mentalitetin rolu az deyildir.

Qadınların reproduktiv və seksual azadlığının əsasında belə bir prinsip dayanır ki, hər bir qadın öz bədəninin sahibidir. Hələ XVII əsr ingilis burjua inqilabının əsas

müddəalarından biri qadın azadlığı ilə bağlı idi. Sonrakı mərhələlərdə feministlər həmin şüar və prinsiplərdən gen-bol istifadə etmişlər, lakin araşdırmalar göstərir ki, hüquqi və sosial emansipasiyanı qətiyyən bir-biri ilə qarışdırmaq olmaz, çünki qadının öz bədəninə sahib olması onun cəmiyyət qarşısında daşıdığı məsuliyyət yükünü heç də azaltmır. Filosof Y.A.Baldayevanın qeyd etdiyi kimi, “reproduktiv hüquq”, “reproduktiv azadlıq” və “reproduktiv seçim” kifayət qədər ambivalent və problematik anlayışlardır (237: 450). Məsələn, elə qadının “abort hüququna” malik olması cəmiyyət və qanunlar tərəfindən birmənalı qarşılanmır. Bu məsələnin etik və hüquqi tərəfdən başqa siyasi mahiyyəti də vardır. Deməli, bəzən qadının zahirən “fərdi”, “şəxsi” mahiyyət kəsb edən hərəkət və davranışları onun sosial cavabdehliyi ilə üst-üstə düşməyə bilər.

Azərbaycan ailəsi özünün bir sıra mental xüsusiyyətlərinə görə başqa millətlərə məxsus ailələrdən fərqlənir. Zahirən azərbaycanlı ailəsində patriarxal qayda-qanunlar üstünlük təşkil edir, amma bu əslində, “zahiri effekt” daşıyır. Ailədə təkcə “kişi kultu” yox, həm də “qadın kultu” mövcuddur.

Qeyd etmək lazımdır ki, Azərbaycanda qadınların “statusu” və qadınlara münasibət heç də bütün ailələrdə konkret, birmənalı səciyyə daşımır. Daha çox imkana və intellektə malik ailələrdə bir növ “Avropa tərbiyəsinə” üstünlük verilir. Bu cür ailələr uşaqların (o cümlədən qızların) tərbiyəsində sərbəstliyə üstünlük verirlər. Nisbətən aztəhsilli, ənənələrə möhkəm tellərlə bağlı olan ailələrdə “Şərq tərbiyəsinə” meyillilik qabarıq hiss olunur. Lakin

bütün bunlarla yanaşı azərbaycanlı ailəsi üçün xarakterik olan cəhətlər də mövcuddur. Filosof Həsən Quliyevin qeyd etdiyi kimi, bu cür ənənəvi ailələrdə qız uşağı dünyaya göz açan andan sanki "mənəvi nəzarət" altına düşür. Hətta evin içində belə onun "həyat zonası" müəyyənləşdirilir: onun kişilərin dincəldiyi qonaq otağına girməsi qadağan olunur. Onun hər bir hərəkəti böyüklərin diqqət mərkəzində olur. Bu cür tərbiyə nəticəsində valideynlər və qız arasında sanki gizli bir konsensus yaranır. Əgər hansısa bir səbəbdən qıza ərə getmək nəsib olmursa, o evdə neqativ enerji daşıyıcısı hesab olunur. Qız anlayır ki, öz uşaqlığından nə qədər gec ayrılsa bu onun gələcək həyatı üçün maneəyə çevrilə bilər. Qız uşağı ərə gedəndən sonra çox tezliklə onun həyatında yeni bir mərhələ başlayır: o dərk edir ki, artıq uşaq deyil, uşaq doğmalı, ev sahibəsi rolunu yerinə yetirməlidir. Onun qızlıq dövrünün müddəti az olduğu üçün gəlinə çevrildikdən sonra öz valideynlərinə daha çox bağlanır, sanki o realizə olunmamış uşaqlığını yenidən geriyə qaytarmaq istəyir.

Artıq ana olan qızlarda yeni keyfiyyət ortaya çıxır, onlar ailənin əsas simasına çevrilirlər. Bir sözlə, qadın olmadan ailə həyatının hormoniyası, habelə ailə kosmosu olmadan normal ailə həyatı mümkün deyildir (207; 44-48).

Hələ Sovet İttifaqının mövcud olduğu illərdə gender nizamı ziddiyyətli səciyyə daşıyırdı. Qadın və kişinin mütləq bərabərliyini iddia və təsbit edən hüquqi sənədlər əslində deklorativ prinsiplərdən o yana gedə bilmirdi. Özünün 70 ildən artıq mövcud olduğu bir dövrdə SSRİ-yə daxil olan müttəfiq və muxtar respublikaların heç birində heç bir zaman 1-ci şəxs qadın olmamışdır. Siyasi Büro üzvləri, nazir-

lər, sədrlər, elmi-tədqiqat idarələrinin rəhbərləri arasında da qadınlara çox az təsadüf olunurdu. Əslində, təbliğat özü də kişilərin və "maskulin dəyərlərin" təqdiri istiqamətində qurulmuşdu; təkcə bunu xatırlatmaq lazımdır ki, 1966-1967-ci illərdə SSRİ-də əhalinin 54,2 %-ni qadınlar (kişilər, 45,8 %) təşkil etdiyi halda, onlar partiyanın Mərkəzi Komitəsində 2,8 %-ni (kişilərsə 97,2 %) partiyada 20,9 % (kişilərsə 79,1 %) təşkil edirdilər. Həmin dövrdə Siyasi Büronun üzvləri 100 % kişilərdən ibarət idi.

Ümumiyyətlə, idarəetmənin bütün sahələrində aşağı sosial pillələrdə qadınların sayı daha böyük üstünlük təşkil etmişdir. Məsələn, 1 yanvar 1966-cı il tarixli məlumata görə SSRİ EA-da qadınların "statusu" bu şəkildə müəyyənləşdirilmişdi: kiçik elmi işçilər arasında 51 %, baş elmi işçilər arasında 23 %, akademik və professorlar arasında 8,8 %. Təhsil sahəsində ibtidai sinif müəllimlərinin 87 %-ni, ibtidai sinif direktorlarının 74 %-ni, 9-10-cu sinif müəllimlərinin 68%-ni, orta məktəb müəllimlərinin 21%-ni qadınlar təşkil edirdi (67). Sənaye sahəsində 1 dekabr 1961-ci il tarixə olan məlumata görə müəssisə rəhbərlərinin 6 %-ni, sex rəislərinin 12 %-ni, sahə rəislərinin 24 %-ni, mühəndislərin 37 %-ni, texniklərin 59 %-ni qadınlar təşkil edirdi (67: 683). Kənd təsərrüfatında da vəziyyət belə idi; həmin dövrlərdə lap dəqiqi 1965-ci ildə kolxoz sədrlərinin 2 %-ni, sovxoz direktorlarının 1 %-i qadınlardan ibarət idi (191: 123). Yəni bu vəzifə pillələri artdıqca kişilərin də sayı artır. Əksinə, bu pillələr endikcə qadınların kəmiyyəti yüksəlir.

Xüsusilə böyük Vətən Müharibəsi dövründə qadınların təsərrüfatın ağır sahələrində sayı artmışdır. 1960-cı illərdən sonra aparılan islahatlar qadınların həyatında yeni

mərhələ olmuşdur. 1970-80-ci illərdə fəhlə və qulluqçu qadınların sayı artmışdır.

*Cədvəl*

**1922-1970-ci illərdə fəhlə və qulluqçuların ümumi kəmiyyətində qadınların xüsusi çəkisi**

| İllər | 1922 | 1926 | 1940 | 1945 | 1950 | 1955 | 1960 | 1970 |
|---|---|---|---|---|---|---|---|---|
| % | 25 | 23 | 39 | 56 | 47 | 46 | 47 | 51 |

(SSRİ xalq təsərrüfatı, 60 il ərzində statistik məcmuə - M., 1977, 469)

Bir faktı inkar etmək olmaz ki, zaman keçdikcə xalq təsərrüfatının bütün sahələrində qadınların sayı artmışdır. Təkcə 1930-70-ci illər ərzində sənaye tipli sahələrdə qadınların sayı 4 dəfə yüksəlmişdir.

Məlumdur ki, planetdə dünyaya göz açan canlılardan ən acizi insan övladıdır. Ən xırda canlı belə doğularkən anasından bu qədər asılı olmur. Bu asılılıq sonralar özünü bir neçə formada göstərir: fiziki, mənəvi və maddi. Uşağın bu üç istiqamətdəki hazırlığına ən azı iki onlillik vaxt lazımdır. Bu iki onillik həm də insana ona görə lazımdır ki, o öz ailəsini qurmaqdan ötrü müəyyən bilgilərə, təcrübəyə, peşəyə yiyələnsin, əmək fəaliyyətinə qoşulsun və cəmiyyətdə öz yerini tutsun. Mənəvi hazırlıq prosesində ananın əlahiddə bir yeri, rolu vardır. Yəni övladın tərbiyəsində, mənəvi inkişafında ananın mühüm rolu danılmazdır.

Uşağın uğurlu inkişafında əsas şərt onun fiziki, mənəvi və sosial tələblərinin təmin olunmasıdır. Bu tələblərin təminatı prosesi düzgün qurularsa, uşaq normal inkişaf edəcək,

öz yaşıdlarından geri qalmayacaq və ya əksinə olarsa, o, qeyri-düzgün yola düşəcək. Bu tələblərin təminatı zamanı övlad-valideyn münasibəti tənzimlənir. Uşaq böyüdükcə bu tələblər də böyüyür, daha çoxşaxəli və mürəkkəb olur, bəzən ata-ananın real imkanını üstələyir. Elə bu səbəbdən də, uşağın tərbiyəsində konkret olaraq valideynin deyil, bütün cəmiyyətin rolunun olduğunu qeyd etməliyik. Yalnız uşaq-valideyn-cəmiyyət üçlüyü ahəngdar bir nəticə verə bilər. Gənclərin mənəvi inkişafına, münasibətlərinin formalaşmasına bir çox mühüm faktlar təsir göstərə bilər: ailə, cəmiyyət, yaşıdlar və gəncin özünün təcrübəsi. Bunlardan ən mühüm amil kimi ailə götürülməlidir.

Bu gün cəmiyyətdə olan qüsurlar ilk növbədə haradan gəlir? Bu barədə minlərlə məqalələr yazılmışdır. Çox təəssüf ki, gənclərimizin çoxu ailə qurandan sonra uşağın tərbiyəsi ilə lazımınca məşğul olmurlar. Bu onların pedaqoji bilik və təcrübələrinin az olmasından irəli gəlir.

Azərbaycan ailələrinin əksəriyyəti ənənəvi olduqlarına görə gənclərin mənəvi inkişafı məsələsi də ananın-qadının üzərinə düşür, çünki uşağın ilk müəllimi də, tərbiyəçisi də elə anasıdır. Çox təəssüf ki, bu gün ana olmağa hazır olmayan valideynlər də anadırlar. Çox erkən yaşlarda ailə qurmuş anaların nə təcrübəsi, nə də elmi onlara əsl analıq vəzifələrinin öhdəsindən gəlməyə imkan vermir. İlk dövrlərdən ana uşağın mənəvi dünyasının zənginləşməsindən ötrü çalışmalıdır. Uşaq yalnız ananın ağzından eşitdiyi sözü həqiqət kimi qəbul edir. Elə buna görə də, hər bir ana dediyi sözün qiymətini dərk etməlidir. Əvvəla, ana öz uşağında görmək istəmədiyi şeyə öz hərəkətində, işində, rəftar və davranışında yol verməməlidir. Xalq arasında deyilir

ki, "uşaq gördüyünü götürür". Ailədə ana övladına lazımi qədər vaxt sərf etmirsə, ona nağıllar, əfsanələr söyləmirsə, şeir və mahnılar öyrətmirsə, sözsüz ki, bu uşaq məktəbdə öz həmyaşıdlarından fərqlənəcək və müəyyən mənada geri qalacaqdır. Yaşadığımız bu tarixi keçid dövrü nəinki böyüklərin, həm də gənclərin mənəviyyatını ağır sınaqlara çəkir. Bu sınaqlara uğurla sinə gərənlər də var, yolunu sarpanlar da. Hər bir dövrdə olduğu kimi, qadının üzərinə bu işin öhdəsindən gəlmək üçün böyük ağırlıq düşür.

Hamıya məlumdur ki, övlad, xüsusilə də qız, anasına daha çox bağlıdır. Onlar ən yaxşı ana rolunu öz analarının timsalında görürlər. Hətta oyun oynayanda belə, hərə öz anasını təqlid edib, ona oxşamağa çalışır və gələcək ailəsində də anasından aldığı bilgi və təcrübələrdən istifadə edir.

Bu gün cəmiyyətdə iki növ qadın streotipinə rast gəlirik: işləyən və evdar qadın. Evdar qadınların vaxtı işləyən qadınlara nisbətən daha çoxdur, amma bu gün heç kəs deyə bilməz ki, evdar qadınların uşaqları daha tərbiyəli, mənəviyyatları daha zəngindir və ya əksinə. Deməli əsas məsələ vaxtın azlığı-çoxluğu yox, onun necə sərf olunmasıdır. Az vaxtda daha səmərəli işlər görmək olar. Bəzən işləyən qadınlar uşaqlarına laqeyd münasibət bəsləyirlər. Uşağı ya tamamilə nənə-babalarına, ya da dayələrinə həvalə edirlər. Özləri onlara vaxt ayırmırlar. Gənclər isə anaları ilə daha adekvat sayılan bir mövzuda nənələri ilə danışmağa çətinlik çəkirlər və bu mövzu barəsində yaşıdlarından yanlış informasiya alırlar. Bugünkü qadınlar hər cəhətdən daha müasir olduqları üçün hər hansı bir mövzuda övladları ilə müzakirəyə girə bilirlər.

Çağdaş dövrdə gender münasibətlərinin bir sıra elementləri qadınlardan daha çox, kişilərin durumu və fəa-

liyyəti ilə bağlıdır. Son illərin bir çox tədqiqatlarında kişi əməyinin istismara məruz qalması, onların hüquqlarının pozulması haqda tez-tez söhbət açılır. Problemin qoyuluşunda ənənəvi-tarixi prinsiplərin iflasa uğraması haqqında iddialar əsaslı yer tutur. "Maskulinlik böhranı" ilə barışmayanlar göstərirlər ki, artıq son bir neçə onillikdə "əsil kişi"lərin rolu "tarix səhnəsindən" az qala silinməkdədir. Kişilərin "gender sinfi" kimi get-gedə zəiflədiyini dilə gətirən həmin baxışların tərəfdarları "əsl kişilərin və əsl kişiliyin" təhlükə qarşısında qaldığını, az qala tarixi faktlarla sübuta yetirməyə cəhd göstərirlər. Onlar belə bir arqumentə istinad edirlər ki, qədim Yunanıstanda kişi bədəninin gözəlliyi və kişi qəhrəmanlığı daim təqdir və təbliğ olunurdu. Elə sonrakı mərhələlərdə - Roma imperiyası, ingilis intibahı dövründə də kişi ləyaqətli cəmiyyətdə yüksək qiymətləndirilmişdir. Orta əsrlər Şərq və Qərb ədəbi-fəlsəfi fikrində kişi qəhrəmanlığı örnək hesab edilirdi. XIX əsr Fransası və XX əsr Almaniyası kişi şücaətinin nümunəsi hesab oluna bilər. Lakin rus filosofu İ.S.Konun qeyd etdiyi kimi, "maskulinlik böhranı"nın səbəbləri mövcud ədəbiyyatda müxtəlif cür və çox vaxt da ziddiyyətli şəkildə şərh olunur (204). Bu gün artıq dünyanın bir sıra inkişaf etmiş ölkələrində "kişilərin ittifaqı" haqqında söhbətlər gedir. ABŞ-da 1970-ci ildə meydana gəlmiş "Kişi azadlıq təşkilatı" kişilərin sosial-hüquqi və mədəni-məişət azadlıqlarının cəmiyyət tərəfindən məhdudlaşdırılmasına qarşı çıxaraq öz tesizlərini irəli sürür. "Azad kişilər üçün koalisiya", "Kişilər üçün milli konqress", "Kişi həqiqəti" və s. təşkilatlar kişilərin hüquq və azadlıqlarının qorunması üçün fəallıq göstərir, "maskulinliyin" təhlükə ilə üzləşdiyini göstərirlər. Yeri gəlmişkən

xatırlatmaq istərdik ki, cəmiyyətdə və ailədə kişilərin rolunu mütləqləşdirən bir çox ideyaların müəllifləri tez-tez, sürəkli qaydada dini ehkam və fundamentalist təsəvvürlərə istinad edir, müqəddəs kitablardan ixtibaslar gətirirlər. Əslində isə, bütün dini kitablarda qadın və kişilərin hüquq bərabərliyi təsbit olunur.

Bu gün, hətta, az inkişaf etmiş ölkələrin konstitusiyalarında belə qadın və kişi bərabərliyi hüquqi cəhətdən az-çox təmin olunmuşdur. İndi əksər dövlətlərin bütün vətəndaşlarının seçmək və seçilmək hüququ vardır. Qərb ölkələrinin bəzi sosioloq və siyasi xadimləri Şərqdə qadın hüquqlarının məqsədəuyğun şəkildə pozulduğunu iddia etsələr də, bu kökündən yanlış təsəvvürdür. Təkcə belə bir faktı göstərmək kifayətdir ki, son onillikdə Pakistan, Hindistan, Fillipin, Türkiyə və s. Şərq ölkələrində dövlət və hökumət rəhbərliyində qadınlar önəmli vəzifələrdə təmsil olunmuş, prezident və ya baş nazir postunu tutmuşlar. Lakin bu o demək deyildir ki, qadınların rəhbərliyi dövründə həmin ölkələrdə qadın hüquqları pozulmamışdır. Bu cür düşünmək yanlışlığa yol verməkdir. Faktlar göstərir ki, hakimiyyətdə kişi və ya qadının təmsil olunması, haqqında söhbət açılan problemin həllində əsaslı rol oynaya bilməmişdir; yəni prezidenti qadın olan dövlətlərdə heç də qadınların "ağ günə" çıxdığını zənn etmək olmaz və ya əksinə. Cəmiyyətdə qadın və kişinin azadlığı hüquqi qanunlar və iqtisadi-mədəni-sosial yüksəlişlə təmin olunur. Bu amillərdən birinin zəifliyi digərinə də təsir göstərir. Elə buna görə də iqtisadi cəhətdən inkişaf etmiş bir çox ölkələrdə mədəni səviyyənin aşağı olması qadın-kişi münasibətlərində də əks olunur. Əlbəttə həmin münasibətlərin çözülməsində adət-ənənələrin rolunu, mentalitet xüsusiyyətlərini də nəzərə almaq lazımdır.

Keçid dövrünü yaşayan ölkələrdə əhalinin əksəriyyətinin ümumi sosial-iqtisadi vəziyyəti ağır olur. Bu cür ölkələrdə ədalət prinsipinin pozulması, ailədaxili zorakılıq halları bir növ adiləşir. Cəmiyyətdə gərginliyin artması kollektivlərə, ailələrə və fərdlərə də öz təsirini göstərir.

Sistemli təhsil və tərbiyədən uzaq düşən qadınlar adətən həyatda öz yerlərini düzgün müəyyənləşdirə bilmirlər. Belələri daha çox kiminsə kömək və himayəsinə ehtiyac duyur. Geniş dünyagörüşə, yüksək mədəniyyətə malik olmayan qadının yüngül həyat yolu seçməsi, fahişəliklə məşğul olması, insan alverinə qoşulması o qədər də təəccüblü hal deyildir. Azərbaycanda bu cür hallara qarşı lokal və qlobal miqyasda mübarizə elan olunmuş, bir sıra öhdəliklər götürülmüşdür. Həmin öhdəliklər BMT-nin Transmilot mütəşəkkil cinayətkarlığına qarşı Konvensiyasına, Palermo Protokolu, insan ticarəti ilə mübarizə və xəbərdarlıq haqqında Bəyannamə (Brüssel, 2002), BMT-nin İnsan alveri və fahişəliyin üçüncü şəxslər tərəfindən istismarı ilə mübarizə haqqında Konvensiyası və s. sənədlərdə öz əksini tapmışdır. Götürülən öhdəliklərdən irəli gələn məsələlərin həlli üçün Azərbaycan respublikasının Prezidenti İlham Əliyev 6 may 2004-cü il tarixdə "İnsan alverinə qarşı mübarizə üzrə Milli Fəaliyyət Planı"nı imzalamışdır. Söz yox ki, qəbul edilən öhdəliklərin həlli istiqamətində aparılan işlərin miqyası artırılmış, profilaktik tədbirlər genişləndirilmişdir. Son dövrlərdə mətbuatda da həmin problemin təhlili xüsusi önəm kəsb etməyə başlamışdır. TV kanallarda insan alverinin qurbanları, xüsusən qadınlar barədə çoxlu verilişlər nümayiş etdirilir.

Görünür, bu cür dözülməz və neqativ halların geniş intişar tapmasında ölkənin milli qanunvericiliyində qadın

hüquqlarının müdafiəsinə dair müddəaların lazımi səviyyədə həyata lazimi səviyyədə keçirilməsinin, əlaqədar təşkilat və şəxslərin mövcud problemə barmaqarası, etinasız yanaşmasının təsiri olmuşdur.

Əsrlər boyu ailə, nikah, ər-arvad münasibətləri sadə hüquqi normalarla tənzimlənmişdir. Poliqomiyadan monoqamiyaya keçən ailə cütlüyü müxtəlif dövrlərdə müxtəlif üsullarla yaşamağa üstünlük vermişdir. Məsələn, uzun müddət qızın oğlan tərəfindən qaçırılması adi bir adət-ənənə, mentallıqdan gələn davranış kimi qiymətləndirilmişdir. Bu cür hallara həm xristianların, həm də müsəlmanların yaşadıqları icmalarda rast gəlmək mümkün idi. Nestorun 1022-ci ilə aid olan icmalında belə bir şəhadət var ki, ər öz arvadının azadlığı ilə istədiyi kimi rəftar edə bilər. Ailə qanunvericiliyinin ilk mənbələri kilsə qanunlarında təsbit olunmuş, Nomo-kanon adlanan topluda verilmişdir: sonralar həmin toplu rusca “Kormçaya kniqa” adı altında çap olunmuşdur. Ən təəssüf doğuran hal budur ki, hələ də bir çox ölkələrdə qadınlara qarşı zorakılıq aktları törədənlər öz layiqli cəzalarını almırlar. Buna misal olaraq bir sıra Latın Amerikası ölkələrini göstərmək olar (67; 47).

Açıq demək lazımdır ki, Azərbaycan şəraitində də qadınlar kişilərə nisbətən daha tez-tez zorakılığa məruz qalır, ədalətsizliklə üzləşirlər. Belə ki, bir sıra ölkələrdə olduğu kimi, zorlanmaya məruz qalan gənc (subay) qızların hüququ qanunvericilikdə nəzərdə tutulduğundan fərqli olaraq, adət-ənənələr çərçivəsində, “qapalı şəkildə qorunur”. Bir sıra regionlarda zorlanmış qızların bu cür hadisələrin “subyektləri” ilə ailə qurması faktı mövcuddur. Əlbəttə bu cür izdivacı heç də ən yaxşı çıxış yolu hesab etmək olmaz.

Lakin xüsusən, azsavadlı, məhdud dünyagörüşlü ailələr bu tip "konsensusu" qəbul etməklə, öz aləmlərində gərginliyi sülhlə başa çatdırdıqlarını düşünürlər.

Qadın və kişi arasında tam bərabərliyə nail olmaq üçün kişi və qadının ailə və cəmiyyət daxilində minillərdən bəri formalaşmış yoluna, mövcud adət-ənənələrə yenidən nəzər salınmalı, münasibətlər köklü surətdə dəyişdirilməlidir. Bu, məlum həqiqətdir ki, bütün xalqlarda ailənin əsas ağırlığı qadının çiyinlərinə düşür. Qadın evin (ailənin) təkcə iqtisadiyyatını deyil, həm də necə deyərlər, mədəniyyətini formalaşdırır. Ailədə ən mühüm vəzifə, uşaqların tərbiyəsi bilavasitə qadından asılıdır. Psixoloqların qeyd etdiyi kimi, əgər qadın uşağı sistemli şəkildə tərbiyə etməyə üstünlük verirsə, kişi tərbiyə prosesində ən çox bu vasitədən istifadə edir - uşağı qorxutmaq, ona hədə-qorxu gəlmək.

Bütün çətin situasiyalarda qadın ailə ocağını qoruyub saxlamağa çalışır. Hətta dağılan ailələrdə belə ailə yükünü yenə qadın çəkməli olur. Cəmiyyətdə mövcud olan patriarxal baxışlar qadınlara qarşı yönəlsə də, onlar ən çətin anlarda müvazinətlərini itirməməyə, ailə şərəfini qorumağa çalışırlar.

Bu gün bir sıra kütləvi informasiya vasitələri (KİV) cəmiyyətdə ədalət prinsipinin bərqərar olmasından daha çox, zorakılığın təbliğinə geniş meydan verir. Xüsusən qadınlara, qızlara qarşı zorakılığın fasiləsiz nümayiş etdirildiyi ekranlarda qan axır, bədən üzvləri parçalanır, bir sözlə, insanlar qətlə yetirilir. Bu cür "əsərlərdə" insan insanın düşməni kimi çıxış edir. Bədii və publisistik əsərlərdə də zorakılığın böyük "həvəslə" təsvir edilməsi təsadüfdən-təsadüfə rastlaşdığımız hadisə deyildir. Bu cür "qorxulu əsərlər" istər-istəməz adamların psixikasına, əxlaqına və mədəniyyətinə

təsir göstərir. Nəticədə, təqdim olunan informasiya əxlaq və dünyagörüşdə təhrif olunmuş şəkildə əks olunur; daha doğrusu, tamaşaçı, dinləyici və oxucu, xüsusən gənc nəsil, nəyin ədalətli, nəyin ədalətsiz olduğunu qarışdırır, ayırd edə bilmir. Elə buna görə də, hazırda oğrubaşıların, reketlərin, quldurların, cinayətkarların gənclər üçün ideal qəhrəmana çevrilməsi təəccüblü görünməməlidir. Məhşur ərəb publisisti Abdalla İyesanın qeyd etdiyi kimi, bu gün informasiya insana hava kimi lazımdır, lakin zəhərli və zərərli hava (yəni informasiya) hamı üçün təhlükəlidir (182: 9).

Həqiqətən, bu gün elmi və publisistik informaisya və xəbərlərin bir çoxu ictimai-sosial atmosferi zəhərləməklə məşğuldur. Sanki bəziləri üçün insanlığa qarşı çıxan yarımvəhşi və ya vəhşi insan obrazını formalaşdırmaq ən başlıca öhdəliklərdən biridir. Bir çox "qaynaqlar"da insanı insandan çox, instinktlərin əsirinə çevrilmiş məxluq kimi təqdim edirlər. Istər-istəməz Azərbaycan filosofu Ə.Abasovun bir fikri ilə razılaşmalı oluruq. Doğrudan da, indi bir növ indiyə qədər gedilən yolu bəşəriyyətə "tərsinə oxutmaq istəyirlər" (50: 9). Nəticədə, dövlətlər arasında yaranan münaqişələr az qala sivilizasiyalar arasındakı toqquşmalara çevrilir.

Adətən, baş verən münaqişələri silah gücünə həll etməyə çalışırlar. Elə buna görə də sanki dünyada silah biznesinin "çiçəklənmə" erası başlamışdır. 1991-93-cü illərdə dünyanın müxtəlif ölkələrində silahlanmaya 76 milyard dollar vəsait xərclənmişdir. Bu ölkələr sırasında ABŞ (32 milyard dollar) və Britaniya Krallığı (13 milyard dollar) aparıcı yerləri tutur. Satılan silahlar bütün dünyaya yayılır, münaqişə və müharibə təhlükələri yaradır. İndi planetin müxtəlif bölgələrində silahlar üçün "qara bazarlar" mövcuddur. Silah satışından təkcə ayrı-ayrı iri və kiçik dövlət-

lər deyil, müxtəlif şirkət və firmalar, həmçinin məmur və sahibkarlar da küllü miqdarda xeyir götürürlər. Təkcə bu faktı xatırlatmaq lazımdır ki, Çeçenistanda aparılan hərbi əməliyyatlar zamanı tərəflərin hər ikisi eyni növ silahlardan istifadə edirdi. Daha doğrusu, çeçen yaraqlıları rusların satdığı silahları onların özlərinə qarşı yönəldirlər.

Acınacaqlısı isə budur ki, bütün müharibə və lokal savaşların zərbələri ən çox qadınlara dəyir. Ajesta Sederberq Yakobsonun dediyi kimi, müharibələr dövründə cəmiyyət məhz qadınların çiynində dayanır. Praktik olaraq, bütün konfliktlərdə eyni nümunə təkrar olunur: kişilər cəbhəyə gedir, qadınlar cəmiyyətin funksiyalarını icra etməyi öz üzərlərinə götürürlər. Hərb başa çatır, sülh dövrü qayıdır, qadınlar geri çəkilməli olurlar. Adətən, bu vaxt onları sülh danışıqlarına dəvət etmirlər. Dağıntıların aradan qaldırılması işinin müzakirəsində iştirakını təmin etmirlər. Bəlkə də elə bu səbəbdən dünyada mühüm sülh bərqərar olmur (237: 6).

Biz bəzən, gücün xüsusilə də hərbi gücün, xeyirxah, lazımlı, ədalətli olmasına görə istifadəsi barədə eşidirik. Əlbəttə militarizmin bəzi aspektlərini dəstəkləmək olar. Amerikalı filosof Uilyams Ceyms özünün “Müharibənin əxlaqi ekvivalenti” əsərində bu məsələyə toxunmuşdur; o yazır ki, gücün tətbiqini həmişə ədalətsizlik adlandırmaq olmaz. O bunun üçün Kaliforniya hərbi korpusunun fəaliyyətini də misal göstərmişdir, onların işi yüngül toqquşmaları yatırmaqdan və ətraf mühiti təmizləməkdən ibarət olmuşdur. Bundan başqa qeyri-fiziki üsullar var ki, onlar da güc hesab olunur, bir çox pasifistlər gücün istifadəsini və hətta ölümlə nəticələnən gücün istifadəsini dəstəkləyirlər.

Pasifizmi dəstəkləyən səbəblər də çeşidlidir. Bəzilərinin fikrincə qeyri-zorakı üsullar yaxşı nəticələr əldə edir və onlar yaxşı tətbiq olunduğuna görə daha üstündürlər.

ABŞ-ın prezidenti C.Buş Hərbi Akademiyada 5 yanvar 1992-ci il tarixində keçirilən görüşdə vurğulamışdır: “Hərbdən istifadə etmək bir siyasətdir və bu, səlahiyyət verir ku, harada və nə vaxt güc effektli ola bilər, harada onun tətbiqi zaman və imkanına görə məhdudlaşdırıla bilər, harada potensial xeyirlər potensial dəyər və qurbana bəraət qazanc verə bilər” (286: 415).

İnsanların dünyada bu gün rastlaşdığı problemlərin bir çoxu müasir texnologiyanın inkişafı xarakterindən irəli gəlir. Məsələn, müasir kommunikasiya texnoloqları şkalada əvvəllər olmayan bir səviyyədə qlobal münasibətləri mümkün edir. Belə ki, informasiya əsri irəli addımladıqca, yoxsul xalqlar daha da geri qalırlar.

Cenevrədə 1995-ci ildə keçirilən beynəlxalq toplantıda telekommunikasiya sənaye təmsilçiləri göstərirdilər ki, dünyanın bəzi regionları çox geri qalıblar, amma investorlar orada olan siyasi qeyri-stabilliyə görə kommunikasiya infrastrukturunun inkişafını maliyyələşdirməkdə tərəddüd göstərirlər.

Qlobal iqtisadi və ətraf mühit məsələlərini mükəmməl nəzərdən keçirərkən bir məsələ aydın olur ki, bu məsələlərin etik təhlili heç də tam deyildir. Əsas səbəb odur ki, nəyin yaxşı, nəyin pis olmasında bizim məsuliyyətimiz bu hadisə və səbəblərin səthi qiymətləndirilməsinə söykənir (286: 415).

Cəmiyyətdə baş verən bu cür ziddiyyətli proseslər qadınların həyatında da daha ağır iz qoyur. Axırıncı iki onillikdə feminist iqtisadçılar əməyin gender bölümü və iqtisadi

resurslar üzərində nəzarət (həm III Dünya, həm də yüksək inkişaf etmiş ölkələrdə) barəsində qloballaşmanın təsirinin müxtəlif aspektlərini öyrənmişlər. Onlar gender bərabərsizliyinin iqtisadi inkişafa (artıma) təsirindən və ya ona təkan verməyindən bəhs ediblər, ona görə də makroiqtisadiyyat siyasətində yeni məsələlər qaldırıblar. Empirik tədqiqatlar göstərir ki, əhalinin zəif seqmentləri, xüsusilə də az gəlirli ailələrdə qadınlar barədə market reformlarının zərərli təsiri mövcuddur. Yeni əmələ gələn feminist ədəbiyyat birbaşa debatlara çağırır, tədqiqat və siyasətin yeni həllə ehtiyacı olan tapşırıqlarını açıqlayır (286: 415).

İnkişaf etmiş ölkələrdə, xüsusən son illərdə, gender bərabərliyi özünü daha qabarıq şəkildə göstərməkdədir. İrqi, sinfi mənsubiyyətlərin aradan götürülməsi, qadın əməyinin qiymətləndirilməsi həm fərdin, həm də cəmiyyətin mühüm göstəricilərindəndir. Gender statusunun cəmiyyət həyatında baş verən proseslərlə çarpaz şəkildə nəzərdən keçirilməsi optimal qərar və nəticələrin çıxarılmasını labüdləşdirir.

Genderdə bərabərlik prinsipi əslində sosial bərabərliyin ekvivalenti kimi anlaşılmalıdır. Qadın və kişi arasındakı fərqlər haqqında söhbət açan bir çox müəlliflər bəzən mövcud münasibətlərin əsasındakı ziddiyyətlərin kökünü təbiətdə, bir çox hallarda isə fövqəlqüvvədə axtarırlar. Bu tamamilə əsassız fikirdir. Əslində, gender bərabərsizliyi birbaşa cəmiyyətlə, insan münasibətləri ilə bağlı olan problemlərdir. Sosioloq F.Fərəcovanın qeyd etdiyi kimi, insan cəmiyyətinin inkişafı prosesində - əmək alətlərinin təkmilləşdirilməsi, əməyin ictimai bölgüsünün dərinləşməsi, maddi və mənəvi istehsalın nəticəsində əldə olunanların bölüşdürülməsinin cəmiyyətdə formalaşmış münasibətlərə,

hökm sürən əqidəyə münasib sisteminin əmələ gəlməsi, sosiumun iqtisadi, siyasi, mənəvi həyatında patriarxal mədəniyyətin və maskulinlik təfəkkürün hökmranlığının bərqərar olması, sosial bərabərsizliyin təzahürü və s. amillər gender bərabərsizliyinin əsas səbəbləridir (33: 159-160).

Gender bərabərliyinin əsasında sosial bərabərliyin bərqərar olması prinsipi dayanır. Məhz buna görə də gender və ədalət probleminə biri digəri ilə təzad təşkil edən əks qütblü fenomenlər kimi deyil, vahid stratifikasiyalı sistem daxilində mövcud olan hadisələr kimi yanaşmaq lazımdır. Yalnız sosial ədalətin mövcud olduğu cəmiyyətdə gender bərabərliyi bərqərar ola bilər.

# III FƏSİL

# AİLƏDƏ MƏNƏVİ TƏRBİYƏ VƏ GENDER PROBLEMİ

## 3.1. *Azərbaycan ailəsində mənəvi və cinsi tərbiyə*

Milli-mənəvi adət-ənənə və dəyərlərlə ümumbəşəri sərvətlərin bir-birinə qovuşduğu, cəmiyyətin mənəvi-əxlaqi təməlinin az qala sarsıldığı bir zamanda ailə və onun əxlaqi, fiziki, cinsi tərbiyəsi aparıcı bir amilə çevrilmişdir.

Bazar iqtisadiyyatına, xüsusi mülkiyyətə keçid mərhələsi özü ilə ailələrə qadın-kişi münasibətlərinə, daha doğrusu gender problemlərinə keyfiyyətcə yeni dəyişikliklər gətirmişdir. Sosial təbəqələşmə, işsizlik, milli-əxlaqi ənənələr və dəyərlər gender asimmetriyasının kəskinləşməsi, cinslərarası qarşıdurmanın artması, dəyərlər sahəsində böhranlar ailələrə daha ciddi, dağıdıcı zərbələr vurmaqdadır. Belə bir şəraitdə gender münasibətləri təkcə ailə sahələrində deyil, habelə iqtisadi, hüquqi, mənəvi, dini müstəvidə araşdırılmalıdır. Fəlsəfə elmləri doktoru Z.Quluzadə ailə probleminin, ailədaxili münasibətlərin tədqiqini ən aktual məsələlər sırasına daxil edir: "Respublikada keçid şəraitində hazırda qadın hüquqlarının məhdudluğu və yaxın gələcəkdə obyektiv səbəblər üzündən bu məhdudluğun artma imkanını nəzərə alaraq, gender münasibətləri çərçivəsində qadınların siyasi həyatda, hüquq sahəsində, əxlaq, ailə və

məişətdə hüquqlarının tədqiqi və müdafiəsi xüsusi tədqiqat mövzuları və əməli fəaliyyət proqramlarında əks olunmalıdır. Aktual problemlər sırasına ailədaxili münasibətlər: yeni ailələrin yaranması, nəsil artımı, ailənin dağılması və bu halda qadın və uşaqların hüquqlarının müdafiəsi problemləri də daxildir. Ailə ilə əlaqədar hazırda Respublikamızda milli mentalitetimizə sığmayan, lakin qadın hüququnu amansızcasına tapdalayan bir problem də var. Bu problem rəsmi ailə qura bilməmiş cavan qız və qadınların övlad doğma hüququdur" (111).

Məlumdur ki, ailənin üç başlıca funksiyası mövcuddur: nəsil artırma, təsərrüfat məşğuliyyəti, uşaqların fiziki-əxlaqi və cinsi tərbiyəsi. Azərbaycan ailələrində daim adət-ənənələrlə tənzimlənən qarşılıqlı münasibətlər mövcud olmuşdur. XIX əsrdə ailənin qarşılıqlı münasibətlərində əsasən patriarxal adətlər hakim idi. Lakin ailədəki münasibətlər qarşılıqlı hörmətə əsaslanırdı. Q.Qeybullayevin qeyd etdiyi kimi, qarşılıqlı hörmət olmadan ailə təsərrüfat funksiyalarını yerinə yetirə bilməzdi (105: 112).

Qadınlar tarixən cəmiyyətdə də, ailədə də kişiyə nisbətən hüquqsuz olmuşlar. Tədqiqatçılar göstərirlər ki, XIX əsrdə azərbaycanlıların şiə və sünni məzhəblərinə qulluq edən hissələri içərisində ailədə qadınlara münasibətdə müəyyən fərqli cəhətlər vardı: şiələrdə qadın daha çox qapalı həyat tərzi keçirirdi (105: 112).

Qadınların daim məzlumluğu və yalnız cinsi ehtiyacı ödəmə vasitəsi olmasına dair faktlar çoxdur. Qadınlar ata evində də, ər evində də kölə kimi yaşamış, evdən kənar və üzücü ev işləri ilə məşğul olan bu fədakar məxluqların maddi və mənəvi ehtiyacları ödənilməmişdir, onlara iradə-

siz və qiymətsiz varlıqlar kimi baxılmışdır. Vaxtilə cahillik dövründə ərəblər arasında çoxərliliyə əsaslanan "rəhm" nikahı mövcud idi. Qadınlar o vaxt ancaq kişilərin cinsi ehtiyaclarının ödənilməsi vasitəsinə çevrilmişdilər. Var-dövlət əldə etmək, maddi ehtiyacları ödəmək üçün namussuzluq və əxlaqsızlıq hökm sürürdü: kişiilər özlərindən daha üstün nəslin varisini əldə etmək üçün öz arvadlarını başqa şəxslərin (gözəl və vəzifəli şəxslərin) ixtiyarına verirdilər (89: 8).

Professor Bahaeddin Ogel və Professor Abülkadir İnan türklərdə yalnız patriarxal ailələrin, "baba ailəsinin" mövcudluğunu göstərirlər. Onlar türk ailəsini dövlət və ordunun təməli hesab edir, gənclərin ailələrini qorumaq üçün savaşa getdiklərini, ailə, toplum və dövlətin sıx bağlılığını, türklərin Göytürk, Səlcuq, Osmanlı dövrlərində, Oğuz və türkmənlərdə dövlətin yaranması ailənin yararı kimi qəbul olunduğunu qeyd edirdilər. Türklərdə ailə bölünməz idi, oğulu ata, qızı isə ana tərbiyələndirirdi. Türklərdə ailənin əsasını ata, oğul və onların törəmələri təşkil edirdi. Ailə quran qızlar və onların ailələri ailədən sayılmırdı, ancaq daha güclü ola bilmələri üçün ailələr dədənin idarəsi altına toplanırdılar. E.ə. 169-cu ildən bəri türklərdə "ailə sığortası" mövcud idi. Ailəni atadan sonra ana təmsil edirdi. Ananın yeri atanın digər əqrəbalarından irəli idi. B.Ögel türk tarixində qadınların hökmdarların naibi ola bilmələrinin və ya dövlət içində böyük bir söz sahibi olmalarının da bundan irəli gəldiyini göstərir. Qədim türklərdə "oğul", övlad mənasını bildirirdi, istər qız, istərsə də oğlan olsun. Qızla oğlan arasında ayrılıq yox idi. Qadın evin sahibi idi. Ona "evçi" və ya "evdaş" deyirdilər. Qadın "baş yoldaşı, bikə ev şənliyi, yanışıq" hesab edilirdi. Qadına hörmət, etiram, məhəbbət bəslənirdi. "Ayıbsız qadına erkə-

yin boynunu əyməsi gərək" deyilirdi. Yaxşı qadın "evin dayağı" kimi qəbul edilirdi. Qadın evdə ərinin yardımçısı idi. Bayırda, döyüşdə də ərinin yanında olardı.

Türklərdə ev, ailə, qadın ən dəyərli nemətdir. Ailə əxlaq tərbiyəsi məktəbi idi. Ailədə gözəllik, sevimlilik, dadlılıq, ədəb, böyükləri ağırlama, sözünü yerinə yetirmə, sadəlik, igidlik və mərdlik tərbiyə edilirdi. Türk ailələrində yalana, zülmə, acgözlüyə, tamahkarlığa, hiddətliyə, sözündən dönməyə nifrət edilirdi (278: 273-276).

Qadınların daim alçaldılması, təhqir edilməsi, əzab-əziyyətə, zülm və zorakılığa məruz qalması, zehni və əməli müstəqillikdən məhrum olması, onların alınıb-satılması, tam hüquqsuzluğu, qız uşaqlarının öldürülməsi və s. kimi "adətlər" əsrlər boyu davam etmişdir.

Azərbaycan ailəsinin mənəvi və cinsi tərbiyəsində islam dini mühüm rol oynamışdır. Ailə üzvlərinin hüququ, mənəvi-əxlaqi və cinsi münasibətlərin tənzimlənməsinə dair ən kamil sistemlərdən olan müsəlman hüququna (fiqh) dair dəyərli müddəalar Qurani-Kərimdə, ilahi hökmlər, Peyğəmbər Əleyhəsalamın hədislərində mövcuddur. Bu müqəddəs kəlamlarda və göstərişlərdə qadın və kişilərin bir sıra mənəvi və cismani özəlliklərinin olduğu göstərilir. Burada qadının saf mənəviyyatına və tərbiyəliliyinə yüksək qiymət verilir, onun övladlarının fiziki və mənəvi tərbiyəsində əvəzsiz rolu açıqlanır. İslamdakı bir çox müddəalarda hətta qadın və kişi hüququ eyni dərəcədə qiymətləndirilir. Lakin idarəetmə, düşmənlərlə qarşı-qarşıya gəlmə, hakimlik və vəkillik kimi işlərdə kişilərə daha çox öhdəlik verilir.

Qadının maddi ehtiyaclarının ödənilməsi, onun mənzil şəraiti, qidalanması, geyimlə təmin olunması, sağlamlığı

qayğısına qalması xüsusilə nəzərə çarpdırılır. Mənəvi ehtiyaclara “qadının heysiyyatı və abır-həyasının qorunması, onun həyat vəsaitlərinin hazırlanması”, “əxlaqi baxımdan kişinin bacardığı qədər həyat yoldaşına və ailəsinə münasibətdə səmimi və mehriban olması və onların həyatını yaxşılaşdırmağa çalışması” daxil edilir.

Hədislərdə kişilərin ailənin yaşayış şəraitinin genişləndirilməsinə çalışması, ailəsinə daha artıq yaxşılıq edən ərlərin Allah Təala qarşısında ən sevimli şəxslər hesab edildiyi göstərilir. Peyğəmbərimiz ailəsinin istəklərinə uyğun hərəkət edənləri ən yaxşı möminlər sırasına daxil etmişdir. Ailəyə daim maddi və mənəvi qayğı, ona səmimi, mehriban münasibət göstərilməsi, həyat yoldaşına məhəbbət bəslənməsi Allah Təala və müqəddəs imamlar qarşısında ən yaxşı əməllər kimi qəbul edilmişdir.

İslamda qadını yeməklə, geyimlə təmin etməklə yanaşı, ona qarşı əsəbi mövqenin tutulmamasının, ona ehtiram göstərilməsinin, onun barəsində yaxşılıqlar edilməsinin, günahlarının əfv edilməsinin, emosional və cinsi hüquqlarının qorunmasının zəruriliyi də nəzərdə tutulur.

İslam hədislərində ailənin maddi və mənəvi rifahının təmin olunması üçün edilən səylər “son dərəcə fövqəladə və ən böyük savab əməllər”, “Allah-Təala yolunda düşmənlərlə cihad edən cihadçı” kimi qiymətləndirilir, ailənin maddi və mənəvi cəhətdən yaxşılaşması, möhkəmlənməsi naminə edilən əməllərin mükafatı şəhidlik və ondan da artıq hesab edilir. Peyğəmbərimiz hədislərin birində belə vurğulamışdır: “Halal yollarla öz gündəlik ruzisini qazanan və ailəsinin rifah halının yaxşılaşdırılmasına çalışan hər bir şəxsin mükafatı Allah-Təala yolunda cihad edən şəxsin mükafatı qədərdir.

İslamda qadınla kişi münasibətlərində zahiri və mənəvi paklığın vəhdətinə də diqqət yetirilir. İslam dünyasında, o cümlədən də Azərbaycanda ailə mühiti məhəbbət və paklıq ocağı hesab edilir. Belə ailələrdə ər-arvad arasındakı məhəbbət, qarşılıqlı hörmət və ehtiram, müqəddəs dostluq hissləri bütün ailə üzvlərinə sirayət edir, ailədə şadlıq, sevinc, sağlamlıq və inkişaf hökm sürür. Bu cür ailələrdə böyüyən övladlar səmimi, mehriban, yüksək mənəviyyatlı, cəmiyyətdə hörmətə layiq yer tutan ləyaqətli şəxsiyyətlər olurlar. Əksinə, mənəviyyatsızlığın hökm sürdüyü ailələrdə etimadsızlıq, hörmətsizlik, ləyaqətsizlik övladlara da pis təsir edir, belə ailələrdə böyüyən övladlar cəmiyyət üçün təhlükə törədən şəxslərə, hətta cinayətkarlara çevrilirlər.

İslamda qadın Allah-Təalanın əmanəti və ərin xoş ətirli gülü hesab olunur. Ona görə də kişilərə məsləhət görülür ki, bu gözəl ətirli gülün və ilahi əmanətin tərbiyə olunmasında var qüvvədən istifadə olunmalıdır. "Allah-Təala lütfünün əlamətlərindən biri budur ki, sizin üçün öz cinsinizdən həyat yoldaşları yaratdı ki, onlarla ünsiyyət yaradıb rahatlıq tapasınız. Bunun üçün sizin aranızda dostluq bərqərar etdi " (Qurani-Kərim, "Rum", surəsi, 21-ci ayə). Yenə də kişi üstün rolda təqdim olunur. O tərbiyə edən, qadın isə ünsiyyəti ilə ona rahatlıq verəndir.

H.Ə. Yusufpur xüsusi qeyd edirdi ki, qadınla kişinin qarşılıqlı münasibətləri və əlaqəsi dostluq və məhəbbət əsasında yaranmalı və onun kökləri etiqaddan ilham almalıdır. Əks halda, bu cür dostluq və məhəbbət hissləri ötəri xarakter kəsb edəcəkdir.

İslamda qadın kişinin sevgilisi və məşuqəsi hesab edilir. Qadınla evlənən hər bir kişi ona nəvaziş və ehtiram et-

məsi, onu qoruması, onun hüquqlarını pozmaması məsləhət görülür. “Qadınlar öz həyat yoldaşlarının eşq və məhəbbətinə nail olmalı, onların hüquqlarının qorunmasına laqeyd yanaşmamalı və müxtəlif formada onların qəlbini ələ alaraq özlərinə cəlb etməlidirlər, çünki hər bir sevgi dolu münasibət ərlərlə qadınlar arasında qarşılıqlı rəğbət hisslərinin artmasına böyük təsir göstərə bilər (89: 23). İslamda bildirilir ki, etiqad və iman artdıqca müvafiq olaraq həyat yoldaşına olan eşq və məhəbbəti artmış olur.

Mənəvi tərbiyə məsələlərinə klassik ədəbi-fəlsəfi nümunələrdə xüsusi diqqət yetirilmişdir. Hələ e.ə. yaşayıb fəaliyyət göstərmiş yunan filosofları həmin problemin mahiyyətinə nüfuz edərək obyektiv qənaətlər ortaya qoymağa çalışmışlar. Məhəbbətin gücünə inam bəsləyən böyük yunan filosofu Platon vaxtı ilə yazırdı: “Mənə elə gəlir ki, insanlar məhəbbətin həqiqi qüdrətini tamamilə dərk etmirlər, çünki əgər bunu dərk etsəydilər, onlar onun şərəfinə böyük məbədlər, səcdəgahlar ucaldar və qurbanlar kəsərdilər. Axı Erot, ən insansevər allahdır; o, insanlara sağalmaz xəstəliklərdən xilas olmaqda kömək edir ki, bu cür şəfa bəşər nəsli üçün böyük xoşbəxtlikdir (168).

Platon deyirdi ki, qədim dünyada insanlar vaxtilə üç cinsdən ibarət olublar. Üçüncü cins özündə həm kişinin, həm də qadının əlamətlərini əks etdirib. Onlar çox güclü qüvvəyə malik olub, hətta allahlara qarşı çıxmağa cəhd ediblər. Onda Zevsin başçılıq etdiyi allahlar məsləhətləşib qərara gəliblər ki, bu cinslərin azğınlıqlarına son qoymaq, güclərini azaltmaq üçün onları yarıya bölsünlər. “Bədən yarıya böləndükdən sonra hər bir yarı özünün digər yarısına həsrətlə, istəklə qovuşmağa cəhd ediblər. Əgər bir yarı

ölürdürsə, sağ qalan digər yarı özünə başqa yarı axtarırdı” (227: 118).

Platon məhəbbətlə ailə qurmağı allahın bəxş etdiyi ən böyük səadət, nemət hesab edir: “Bizə bu neməti bəxş etmiş allaha, Erota şükür edirik. Erot indi də bizə çox böyük bir fayda verir, bizi bizə yaxın və doğma, əziz olanlarla birləşdirir. Allahlarla hesablaşanları xoşbəxt, gözəl gələcək gözləyir, insanları öz ilkin, bütöv təbiətlərinə qaytarır” (227: 135).

Platon ideal dövləti qadın və uşaqların ümumiliyi hesab edirdi. İdeal dövlətdə müharibədə iştirak edən gənclərə mükafat olaraq daha çox qadınla yaxınlıq etməyə imkan verilməlidir ki, daha güclü dövlətlər olsun. Yaxşı valideynlərdən olmuş uşaqları xüsusi yerlərdə saxlayıb böyütmək, pis valideynlərdən olanları gizli yerlərdə saxlamaq lazımdır.

Ailə qurmaq üçün qadınlara 20 yaş, kişilərə 30 yaş həddi müəyyən edilmişdi. “Qadın dövlət üçün qoy 20 yaşdan 40 yaşadək doğsun, kişilər üçün qaçış üçün ən yaxşı vaxtdan başlayaraq 55 yaşadək dövlət üçün nəsil artırmaqla məşğul olmalıdır”. Məhz bu zaman fiziki və ruhi-mənəvi çiçəklənmə baş verir.

Platon fəlsəfi fikirlərində ailədə fiziki və mənəvi tərbiyənin vəhdətinə xüsusi önəm vermişdir. Platona görə vətəndaş öz qadınından başqa heç bir digər azad doğulmuş, nəcib xanıma toxunmamalı, “öz qanuni ailəsini dinin rəva görmədiyi qeyri-qanuni məşuqələrlə əlaqə” nəticəsində məhv etməməlidir. Qadınlar da kişilərlə qeyri-təbii, bəhrəsiz əlaqələrə yol verməməlidirlər (227: 324-326).

Qədim yunan filosofu Aristotel də ailə münasibətləri, ailədə mənəvi, cinsi və fiziki tərbiyə haqqında bu günün

özündə belə qiymətli olan fikirlər söyləmişdir. O yazırdı ki, hər bir dövlət müəyyən bir ünsiyyəti əks etdirir, hər bir ünsiyyət isə hər hansı rifah naminə təşkil edilir, bütün ünsiyyətlər bu və ya digər rifahı əldə etməyə cəhddir. Bu ünsiyyətlər içərisində Aristotel dövləti, siyasi ünsiyyəti əsas hesab edir.

Aristotel dövlətdə ailəyə xüsusi yer ayırır. O, ailəni qadın və kişinin nəsil artırmaq üçün bir-birlərindən ayrı mövcud ola bilmədiklərini nəzərə çarpdıraraq qeyd edir ki, bu birləşmə şüurlu qərar əsasında deyil, bütün canlılara və bitkilərə xas olan özündən sonra özünə bənzər varlıq qoymaq kimi təbii cəhddən asılıdır.

Cüt birləşmələr həm də qarşılıqlı özünümühafizə məqsədilə yaradılır. O, birinciləri öz təbiətinə və əqli xüsusiyyətlərinə görə uzaqgörən, hakim, hökm verən, ikinciləri isə öz fiziki gücünə görə tapşırıqları yerinə yetirən qul hesab edir. Aristotel vəhşilərdə qadın və qulun eyni vəziyyətdə olduqlarını, onlarda yalnız bir ünsiyyətin qul və qul-qadın ünsiyyətinin mövcud olduğunu göstərir. O, vəhşini və qulu təbiətləri etibarilə eyni hesab edir. Aristotelin fikrincə, ilkin ünsiyyət formalarindan biri ailədir.

Dövlət təbii əmələ gələn ilkin ünsiyyətin – ailənin məhsuludur. Aristotelə görə ailələrin yaranması, inkişafı, fiziki və mənəvi tərbiyəsi son nəticədə dövlətin təkmilləşməsinə təsir edir.

Dövlət mövcud olan varlıqlara məxsusdur. İnsan öz təbiəti etibarilə siyasi varlıqdır. Kim öz təbiəti etibarilə dövlətdən kənarda yaşayırsa, ya mənəviyyatca naqis olan varlıqdır, ya da fövqəlinsandır. Belə varlıqları Homer "nəsilsiz, qəbiləsiz, qanundan kənar, ailəsiz" varlıq adlandırırdı.

Aristotel kişinin təbiət etibarilə qadına nisbətən rəhbərliyə daha çox meyilli olduğunu, yaşlı adamın gənc adama nisbətən daha yaxşı rəhbərlik etdiyini göstərir (162; 378). Ümumiyyətlə, Aristotel hər bir ailəni dövlətin bir hissəsi hesab edir. Ayrı-ayrı hissələrin mənəvi məziyyətləri tam məziyyətlərə uyğun gəlməlidir.

Ingilis filosofu, yeni dövr eksperimental elmin banisi Frensis Bekon göstərir ki, vətənə məhəbbət ailədən başlayır. Bekon uşaqların doğulmasını insani, yaradılışı isə ilahi anlayış hesab edir.

Ailə maraqları bəzən dövlət maraqlarına xor baxmağa məcbur edir. Bekonun fikrincə, kimin həyat yoldaşı, uşağı, ailəsi varsa, o sanki taleyə girov verilir, çünki ailə böyük bir təşəbbüsün həyata keçməsi yolunda xeyirxah və ya bədxah bir maneədir. Cəmiyyətə ən çox fayda verən öz varları və bağlılıqları ilə bu cəmiyyətə qovuşan ailəsiz adamlardır. Ciddi əsasla ehtimal etmək olar ki, kimin uşağı varsa, gələcək haqqında daha çox fikirləşməli, özününkülərə ən qiymətli özül qoymalıdır.

Bekon qadın və uşaqları insanlıq məktəbi hesab edir. Tənha həyat sürənlər ailəli olanlardan daha səxavətli olsalar da, rəhmdilliyə daha yaxın imkanları olsalar da, daha qəddar və hissiyyatsız olurlar (onlardan qəddar inkvizitorlar çıxır) (164: 372-390).

Bekonun müasiri Tomas Hobbs ailəni mülki qanunun icazə verdiyi, birgə həyat keçirmək üçün kişi və qadın arasında müqavilə kimi səciyyələndirirdi. Nikahın mövcudluğunu qanuni müqavilə hesab edərək T.Hobbs bir çox xalqlarda, məsələn, yəhudilərdə, yunan və romalılarda belə qanuni nikahların mövcud olduğunu qeyd edərək, onların

pozulmasının mümkünlüyünü də göstərmişdir. Bəzi xalqlarda nikahın pozulmasını dövlət qadağan etmişdir. Şəhvət və ehtiras nəticəsində alınan həzz yalnız hissi deyil, ruhi həzzdir. Bu şəhvət iki istəkdən yaranır: xoşa gəlmək və həzz almaq istəyi. Şəhvət hissi məhəbbət əsasında bir cinsin digərindən həzz alması əsasında yaranır. İnsanların, bir-birinə bəslədiyi məhəbbət yaxınların bir-birindən aldıqları həzzdir. Məhəbbətin bir növünü yunanlar eros adlandırırlar.

Məhəbbət bir-birini sevən insanların tələbatları haqqında təsəvvürlərdir. Məhəbbətə, öz şəxsi keyfiyyətlərinə görə ümid bəsləyənlər böyük uğur qazanırlar.

Hobbs ailəni "kiçik monarxiyanın ali hakimiyyətini özündə əks etdirən hər hansı dövlətin bir hissəsi hesab edir. Hobbs ailə mənafeyi naminə ailə üzvlərinin birləşmiş qüvvə şəklində həyatlarını xilas etmək üçün məqsədyönlü mübarizə aparmaları zərurətini ön plana çəkirdi (179: 649).

Mişel Manten ailədə mənəvi tərbiyəyə xüsusi diqqət yetirərək göstərir ki, uşağın təkcə ruhunu deyil, onun bədənini də bərkitmək lazımdır. Mişel Manten ailədə uşaqlarda təvazökar, vicdanlı, ağıllı olmaq və s. müsbət mənəvi keyfiyyətlərin tərbiyə olunmasını tövsiyə edir. Uşağı hər şeyə öyrətməyi məsləhət görən filosof onu fiziki cəhətdən də güclü bir gənc kimi yetişdirməyi məsləhət görür. M.Manten zorakılığı qəti surətdə pisləyir: "Mən şərəf və azadlığa hörmət ruhunda böyüyən gəncin tərbiyəsi zamanı hər cür zorakılığı mühakimə edirəm. Qəddarlıq və məcburiyyətdə bir qul psixologiyası var. Hər şeyi gücün deyil, ağılın köməyi ilə əldə etmək lazımdır".

Mişel Manten xoşbəxt ailənin əsas göstəriciləri kimi əmin-amanlıq, qarşılıqlı güzəşt və xəyanətsiz birgə həyatı

məqbul sayır. Sədaqətli qadınlar yorulmaz qayğıları və bütün qüvvələri ilə öz ərlərinə bağlı olurlar (214: 155).

Cinslərarası məhəbbət ən diqqəti cəlb edən aspektlərdən biridir. D.Yuma görə əsl məhəbbət xoş hisslər, əldə olunan gözəllik, artıma fiziki meyl və xeyirxahlıq sayəsində meydana gəlir (214: 128).

Cəmiyyətin aparıcı qüvvəsi olan ailə, onun siyasi, əxlaqi, estetik problemləri hamını düşündürür. Ailə yalnız ərlə arvaddan ibarət deyildir. Ailənin ən başlıca funksiyası cəmiyyət üçün vətəndaş yetişdirməkdən ibarətdir. R.H. Məmmədzadənin qeyd etdiyi kimi, ailə uşaqlara nəinki ailənin üzvü olmağa kömək edir, o eyni zamanda uşağı əhatə edən cəmiyyət, onun mahiyyəti ilə tanış edir (177: 68).

Ailə iqtisadiyyatı, təsərrüfatı, fiziki və mənəvi tərbiyə kimi ciddi əhəmiyyət kəsb edən məsələlər indi geniş şəkildə öyrənilir. Bu problemlər sırasında ər və arvad arasında intim münasibətlər və cinsi tərbiyə məsələləri də böyük yer tutur. İntim münasibətlər və cinsi tərbiyə məsələlərinə uzun müddət az əhəmiyyət verildiyinə görə bir sıra anlaşılmazlıqlar meydana çıxır, bəzən adi təcrübəsizlik sağlam bir ailənin məhvinə gətirib çıxarır.

Əlbəttə ailədə mənəvi tərbiyə də əsas yer tutur. Keçmişdə Azərbaycan ailəsində mənəvi tərbiyə əsrlər boyu cilalanmış adət və qanunların məcmusu olan xalq pedaqogikasına uyğun idi. Xalq pedaqogikası ailədə doğruçulluq, insaf, vicdanlılıq, əməksevərlik, ədalətlilik, ata-anaya, yaşlılara hörmət, halallıq tərbiyə edirdi.

Ailədə ağsaqqala, ağbirçəyə, qonağa, qonşuya hörmət hissi aşılanırdı. Ata Allahdan sonra ailədə böyük hesab edilirdi. Qonaq Allah adamı sayılırdı.

Ailənin mənəvi tərbiyəsində nəslin ağsaqqalları da iştirak edirdi.

N.Tusinin fikrincə, arvadın ən yaxşısı odur ki, ağlı, dəyanəti, iffəti, həyası, qisməti, riqqəti və nəzakəti olsun, üzüyolalıqda, ərinin sözünə baxmaqda, fədakarlıqda, dostluqda misli olmaya. Qohum əqrəbaları arasında vüqarlı, hörmətli, hümmətli hesab edilə, tərbiyə verməkdə mahirlik göstərə, qayğıkeşliyi, mehribanlığı, şux təbiəti, xoş xasiyyəti ilə ərinin kölnünü açmağa, dərdini dağıtmağa səbəb ola (151: 152). Ailə daxilində qadın-kişi münasibətlərini təhlil edən, feodal dövründə yaşayan dahi mütəfəkkir N.Tüsi ailədə birmənalı şəkildə qadının kişiyə xidmət etməsi prinsipini əsas götürür. Heç hazırkı dövrdə də Azərbaycan cəmiyyətində bu münasibətlərdə o qədər çox şey dəyişməmişdir.

N.Tusiyə görə ailə tərbiyəsinin məqsədi uşaqların təbiətini nəzərə almaqla, əxlaqı saflaşdırmaqdan ibarət olmalıdır. Uşağı mehribanlıq və məhəbbət doğuran kəramətlərlə, xüsusilə ağıla, şüura, idraka təsir edərək, başa salmaq yolu ilə tərbiyə etmək lazımdır.

Bundan sonra adət-ənənə, davranış qaydaları, dini vəzifələri öyrənmək, xeyirli işləri onun yanında tərifləmək, zərərli şeyləri pisləmək məsləhətdir. Ondan yaxşı bir hərəkət baş verdikdə həvəsləndirib artırmaq, kiçik bir nöqsan gördükdə danlayıb qarşısını almaq, pis adətlərə, bəd əməllərə nifrət yaratmaq, az danışmağı, susmağı, soruşanda cavab verməyi, böyüklərə qulaq asmağı, nəlayiq sözlər, söyüşlər, yersiz kəlmələr işlətməkdən utandırmalı, ... özünə, müəlliminə, özündən yaşca böyük olanlara hörmət və xidmət etməyi öyrətmək lazımdır.

Yaxın adamları, ata-babaları, mal-dövlətləri, yeyib-içmələri, geyim-keçimləri ilə lovğalanmağa icazə veril-

məməlidir. Hamıya qarşı təvazökar olmaq, yaxın adamlara hörmət qoymaq təlqin edilməli, özündən zəiflərə əl qaldırıb, özündən güclülərə boyun əymək, tay-tuşlarına paxıllıq etmək qadağan olunmalıdır. Yalan danışmağın qabağı alınmalıdır. İstər yalandan, istər doğrudan and içməyə yol verməməlidir.

Ata, ana, müəllimə itaət etməyi, onlara həmişə böyük və hörmət gözü ilə baxmağı təlqin etmək,... bu qanun əsasında tərbiyə etmək fəzilətlərə məhəbbət, rəzilətlərə nifrət yaradan, nəfsi şöhrət və ləzzətdən mühafizə edər, tərəqqinin ən yüksək pilləsinə qalxmağa səbəb olar. Sonra ona gözəl yaşamaq, hal əhli olmaq, səmərəli əylənmək, az düşmən qazanmaq, çox dost əldə etmək, kəramətli və fəzilətli adamlarla oturub-durmağı öyrətmək, elm dalınca getsə... əvvəlcə tədricən əxlaq dərsi vermək, sonra isə hikmət nəzəriyyəsinə keçmək, uşaqlıq dövrü keçdikdə adamların nə üçün və necə yaşadıqlarını başa düşdükdə ona sərvətin, torpağın, mülkün, mal-dövlətin insan səhhəti və xoş güzəran üçün olduğunu anlatmalı, sağlamlığını qorumağı, bədəni ləzzətlərə, nəfsi əziyyətlərə qatmamağı məsləhət görmək lazımdır.

Oğlanları böyütmək qaydası belədir.

Qızlara evdarlıq, yaşınmaq, vüqarlı olmaq, iffət, həya, qadınlar haqqında dediyimiz başqa xüsusiyyətlər öyrədilməlidir. Qadınlar üçün gözəl hesab edilən sənətlər öyrədilməli, həddi-buluğa çatanda öz babına ərə verilməlidir (152: 152).

Böyük mütəfəkkirin bu təlimi uzun əsrlər boyu Şərq və Azərbaycan ailələrinin mənəvi tərbiyəsində mühüm rol oynamışdır, bu səbəbdən də aktuallığını itirməmişdir.

Müasir Azərbaycan ailəsində mənəvi-əxlaqi tərbiyə məsələsi ön plana keçib, ailə hüquqi və əxlaqi normalar,

ictimai qınaq və məzəmmət vasitəsilə, eləcə də rəsmi dövlət sənədləri ilə tənzimlənir.

Hazırkı keçid dövründə Azərbaycan ailələrində mənəvi tərbiyə məsələsi kəskinliyi və aktuallığı ilə fərqlənir. Qadının kişidən mənəvi asılılığı azərbaycanlı ailələrini yeni-yeni problemlərlə üzləşdirir.

Qeyd etdiyimiz kimi, ailənin mənəvi tərbiyəsində milli mentalitet amili mühüm rol oynayır. Keçid dövründə milli mentalitetdə, ailə üzvlərinin mənəvi- əxlaqi davranış və normalarında da ciddi dəyişikliklər baş verməkdədir.

Azərbaycan xalqının milli mentalitetində üç: Sovel meyilli, Qərb meylli və Şərq meyilli istiqamətlərin mövcudluğu, əksər hallarda bu üç meylin özünəməxsus birləşməsinə təsadüf olunduğu göstərilir (61: 72).

Ailənin mənəvi tərbiyəsi müstəqil Azərbaycan Respublikasında mərkəzi yer tutur. Ölkənin və millətin gələcəyinin ailələrin milli-mənəvi dəyərlər ruhunda tərbiyəsindən asılı olduğu ən ümdə vəzifələrdən biri hesab edilir. Mərhum prezident H.Əliyev Azərbaycan xalqının milli mentalitetinə xas olan milli-mənəvi dəyərlərə xüsusi əhəmiyyət verir, öz çıxışlarında onları yüksək dəyərləndirirdi. O qeyd edirdi ki, bütün ənənələrdən bizi daha çox yüksək mənəvilik sevindirir, xalqımız əsrlər boyu öz mənəvi dəyərlərinə sadiq olmuşdur. Bizim mənəvi dəyərlərimiz safdır. Bu dəyərlər insanlarda həmişə sadəlik, xeyirxahlıq və yüksək keyfiyyətlər tərbiyə etmişdir. Buna görə də biz xalqımızın milli-mənəvi dəyərləri ilə fəxr edə bilərik. Bu gün biz xöşbəxtik ki, əcdadlarımızdan bizə gəlib çatmış bu mənəvi dəyərlər yenidən dirçəlir, gənc nəslə çatdırılır və gələcək nəsillərə ötürülür.

Keçid dövründə ailələrin mənəvi tərbiyəsində iqtisadi stabillik, maddi və mənəvi çətinliklər amili diqqət mərkə-

zində durur. Azərbaycanlılar öz həyatlarını ailədən kənarda təsəvvür edə bilmirlər. Ailə tərbiyə məktəbi olmaqla yanaşı, hər bir millətin mental əsasının qoruyucusu, gələcək nəsillərə ötürücüsüdür (207: 23-24).

Bioloji-fizioloji inkişaf xüsusiyyətləri həm də xarici mühit faktorları ilə əlaqədar olduğu üçün isti iqlim şəraiti olan Azərbaycandan fərqli olaraq, soyuq iqlimli Skandinaviya ölkələrində (Norveç, İsveç, Finlandiya) qızların normal uşaq doğmaq imkanı orta hesabla 16-18 yaşlarından başlayaraq yaranır.

Bundan əlavə hazırki həyat tərzi (İnternet, informasiya, kino, televiziya, yazılı ədəbiyyat, KİV və s.) gənclərin əvvəlki nəsillərə nisbətən daha tez (1-2 il) cinsi yetkinləşməsinə səbəb olur. Bu gün akselerasiya cinsi yetkinlikdən əlavə boyun, bədən çəkisinin dəyişməsinə də səbəb olmuşdur, bu isə mövcud həyat tərzi, yer kürəsində iqlimin dəyişməsi, həyati aktivliyin artması, qidalanma xarakterinin dəyişməsi ilə izah olunur. Lakin yetişkənliyin tez başlaması heç də cinsi əlaqənin tez başlaması demək deyildir. Burada əhalinin savadlılıq, mədəni səviyyəsi əsas rol oynayır.

Möhkəm, sağlam ailənin qurulması və ər-arvad arasında uyğun münasibətlərin formalaşması, mükəmməlləşməsi, onların xasiyyət və hisslərinin cilalanması ilə əlaqədardır. Bu proses hər gün, hər saat, istirahət günsüz və məzuniyyətsiz olaraq davam edir, özü də ilk növbədə ər-arvaddan öz üzərlərində diqqətlə, əmək tələb edən incəliklə işləmələri tələb olunur.

Ailənin qurulmasına sərf olunan əmək yüz qat artıq mükafatla – nikahda uyğunluq, uşaqların xöşbəxtliyi, mənəvi sakitliklə isinən qocalıq dövrü ilə geri qaytarılır. Xoşbəxt və

hərtərəfli ailə qurmaq hamıya müəssər olmur. Yalnız özünü sevən, qeyri-səmimi, yalançı, şıltaq, tənbəl şəxslər heç bir vaxt bu işin öhdəsindən gələ bilmirlər, amma xoşbəxtlikdən beləlıəri o qədər də çox deyil. Azərbaycandakı insanların əksəriyyəti ailəcanlıdır və burada normal ailə qurmağı ürəkdən istəyənlər, lakin bunu necə etməyi bacarmayanlar vardır. Bu səbəbdən də, cəmiyyət üçün ailə münasibətlərinin çox böyük əhəmiyyəti vardır. Qeyd etmək lazımdır ki, gənc ailələr və eləcə də çoxdan qurulmuş ailələrdə çox vaxt ailədaxili münasibətlər lazımi dərəcədə möhkəm və davamlı olmur.

Araşdırmalara görə cütlüklər açıq etiraf etməsələr də, boşanmaların böyük bir hissəsi (müxtəlif müəlliflərin məlumatlarına görə üçdə bir hissədən yarısına qədəri) seksual uyğunsuzluq, ər-arvadın (ilk növbədə qadının) izdivacda cinsi əlaqədən razı qalmamaları, onun qaydaya salınmaması səbəbindən baş verir.

Mütəxəssislər belə hesab edirlər ki, insanın həyatı 4 sahədə keçir: peşə əməyi, istirahət və əyləncə, izdivac və ailə, intim və ya cinsi əlaqə həyatı. Yaşdan və bir sıra başqa şərtlərdən asılı olaraq, bu sahələr bir-birindən fərqlənə bilərlər. Məsələn, gənc yaşlarında cinsi əlaqə sahəsinin nisbi çəkisi başqa sahələrə nisbətən 50 faiz və ya daha çox təşkil edirsə, yaşlılarda və qocalarda birinci yerə ikinci və üçüncü sahələr çıxa bilər.

İntim əlaqə insan həyatının bütün sahələri ilə sıx əlaqədar olub, onun iş qabiliyyətinə, istirahət və əyləncələri təşkil etməsinə və ən vacib cəhətə, ər-arvad münasibətlərinə, ailənin əxlaq iqliminə güclü təsir göstərir. Cinsi əlaqələrin nə məqsədlə edildiyini dəqiq müəyyən etmək mümkündür:

nəsil artırmaq və ya həzz almaq. Mütəxəssislər qeyd edirlər ki, bir-birini sevən adamlar arasında intim əlaqə həddən artıq müsbət psixoemosional vəziyyət yaradaraq orqanizmin həyati qüvvələrini stimullaşdırır və bununla da insan həyatı üçün xüsusi əhəmiyyət kəsb edir.

Araşdırmalara görə bütün ailələrdə bu belə olmur, çünki intim əlaqənin bəzi ailələrdə, ər-arvad münasibətlərindəki rolu o qədər də böyük olmur. Belə ailələrdə bir ildə yalnız bir neçə dəfə cinsi əlaqə olmasına baxmayaraq, ər-arvad arasında münasibət yaxşı olur və onlar özlərini bədbəxt hesab etmirlər. Yəqin ki, belə ailələrdə cinsi əlaqə komponenti başqa maraqlı məsələlərlə, incəsənət, ədəbiyyat, musiqi, idman və digər sahələrə olan həvəslə əvəz olunur.

Bu məsələyə müxtəlif ailələrdə fərqli yanaşmalar olur. Tədqiqatçıların fikrincə, elə ailələr də var ki, orada həyatın seksual cəhəti, yəni cinsi əlaqə birinci yerdə durur, daha doğrusu ər-arvad münasibətlərində cinsi əlaqə ən əsas məsələ hesab edilir. Belə ailələrin möhkəmliyi həmişə təhlükə qarşısında olur, belə ki, tərəflərdən birində cinsi fəallıq, hətta müvəqqəti də olsa zəiflədikcə, müqabil tərəf öz narazılığını bildirir və bu narazılıq çox vaxt özünü yalnız sözdə deyil, işdə də göstərir. Bu tipli ailələrdə kişi və qadın bir-birlərini, adətən ər-arvad deyil, yalnız seks üzrə müqabil tərəflər hesab edirlər.

Göstərilən bu iki ailə tipinə, adətən çox az rast gəlinir. Belə ailələr iki qütbü xatırladırlar ki, onların arasında da nikahda seksual fəallığa görə orta vəziyyətdə olan ailələr dururlar.

Görəsən nə səbəbə görə bir-birilərini sevən ər-arvadda bəzən cinsi əlaqədən razı olmaq hissləri itir? Mütəxəssilərin

iddiasına görə buna səbəblər çoxdur. Bəzi hallarda bu ağır xəstəlik keçirmənin nəticəsində, əksər hallarda isə adi seksoloji savadsızlıq, nikahda cinsi əlaqəni düzgün təşkil edə bilməməyin nəticəsində olur. Ailədə seksual konfliktlərin səbəblərini cinsi tərbiyənin düzgün verilməməsindən irəli gələn seksoloji savadsızlıqda axtarmaq lazımdır.

Uzun müddət belə hesab edirdilər ki, insanları sevgi sənətinə, məharətinə öyrətmək lazım deyil, təbiət özü hər bir şəxsə nəsli davam etdirmək instinktini verməklə bu məsələni həll etmişdir. Bu yanlış fikir birinci növbədə ailədəki cinsi əlaqə məsələsində passiv rol oynayan qadına aid idi. Bu fikir yəqin ki, qadının ailə qurmaq məsələsində heç bir hüququ olmadığı, ondan gələcək ərini sevib-sevmədiyi haqqında, heç soruşulmadığı dövrdə yaranmış ictimai münasibətlərin indiyə gəlib çatmış əks-sədasıdır.

Əlbəttə bu məsələlərdə yalnız qadınları günahkar hesab etmək olmaz. Kişilərin də seksual tərbiyəsində çox çatışmazlıqlar vardır, lakin çox az kişi bilir ki, qadın cinsi əlaqə məsələsində kişiyə nisbətən az tələbkardır və çox vaxt bu əlaqəyə öz istəyi ilə deyil, yalnız kişinin təkidinə görə razılaşır. Həftələr, aylar və bəzən illər boyu qadınlar bu əlaqənin psixofizioloji hissinə biganə qalır. Demək olar ki, özlərini sevdikləri kişilərin arzusuna, hisslərinə qurban verir və bunun qarşısında onlardan təbii olaraq özlərinə qarşı heç olmazsa razılıq, diqqət və qayğı gözləyirlər (53: 27).

Tədqiqatçıların iddiasına görə kişilər çox vaxt onu da bilmirlər ki, qadında cinsi əlaqəyə cazibənin, istəyin yaranmasının müxtəlif “texniki üsullarından” deyil, kişinin şəxsiyyətinə verilən qiymətdən asılıdır. Nikahda cinsi əlaqə yalnız o zaman qarşılıqlı olur ki, ər-arvad müəyyən dərəcə-

də yaxınlıq arzusuna düşürlər. Bəzən müəyyən bir vaxtda ər-arvaddan birinin intim əlaqə arzusu, istəyi olmur (xəstəlik, yorğunluq, yuxu və s.), o birində olur. Bu zaman müqabil tərəfə (arvada, ərə) qarşı mədəniyyətsizlik, kobudluq, eqoizm, cinsi əlaqəyə (xüsusilə qadınlarda) uzunmüddətli ikrah hissi, soyuqluq əmələ gələ bilər.

Tədqiqatçıların fikrincə, çox vaxt, hətta bir-birini həqiqətən möhkəm sevən ər-arvadlar da cinsi əlaqə məsələsində ümumi “dil” tapa bilmirlər. Qadının hisslərinə kişinin diqqətsizliyi, qadının öz arzu və istəklərini deməyə utanması nəticəsində də konfliktlər yaranır.

Hər bir şəxsin xarici görünüşü müxtəlif olduğu kimi, onun şəxsiyyəti, xasiyyəti və bir çox başqa xüsusiyyətləri də müxtəlifdir. Ona görə də konfliktlər kimi, onları əmələ gətirən səbəblər də müxtəlifdir.

Nikahda həmahəng cinsi əlaqə münasibətinin təşkil edilməsi, şübhəsiz ki, ər-arvadın hər ikisinin sağlamlığına, əhvali-ruhiyyəsinə müsbət təsir göstərməklə irsi olaraq qazanılmış yüksək qıcıqlanmanı azaldır və ailədə mənəvi atmosferi yaxşılaşdırır (53 : 28).

İctimai və ailə həyatında baş vermiş bütün bu yeniliklərin müsbət cəhətləri ilə yanaşı, neqativ nəticələri də olur. Müntəzəm və intensiv cinsi əlaqə, onun həyata keçirilməsində təkcə fiziki imkanlara deyil, eyni zamanda intim əlaqənin estetik cəhətlərinə də xüsusi tələblər irəli sürür: Cinsi əlaqə təkcə kişilərdə deyil, tərəflərin hər ikisində bu əlaqədən razı qalmaq hissləri yaratmalıdır. Cinsi münasibətlərin ritmi bir-birinə yenidən qovuşmaq arzusunu kütləşdirməməli, tərəflər (xüsusilə ər) cinsi əlaqədən sonra bir-birilərinə qarşı diqqətli olmalı, tam sevgi və məhəbbət hissləri göstərməlidirlər (53: 29).

Ailənin intim həyatında seksual münasibətlərin tarazlığı mühüm rol oynayır. Seksual uğursuzluqların çoxu isə müvəqqəti xarakter daşıyır. Bu uğursuzluqlar cinsi əlaqədə uzun müddətli aravermələrdən, emosional qıcıqlardan, həyati və seksual təcrübənin kifayət dərəcədə olmamasından irəli gəlir. Lakin cinsi qabiliyyətin pozğunluqlarına şəxsiyyətin reaksiyası fərqli ola bilər. Bir tərəf belə halı kiçik bir təsadüf kimi qəbul edər və o buna əhəmiyyət verməyə bilər. Bir başqası üçün bu, fəlakət, arzularının və həyati planlarının puç olması deməkdir. Bəzən bir dəfəlik seksual uğursuzluğun ailə həyatını pozması halları mütəxəssislərə yaxşı məlumdur. Cinsi əlaqə uğursuzluğuna müqabil tərəfin neqativ münasibəti, ailə həyatının uzun yolunda, ərin və ya arvadın psixikaşında sağalmaz bir yara əmələ gətirər. Ailədə cinsi əlaqə zəifliyi və ya soyuqluğu haqqında tənə, eyham, sistem şəklinə keçərsə, tərəflərdən birində nevroz vəziyyəti yaranar və bu da öz-özlüyündə daha böyük seksual fəsadların əmələ gəlməsinə səbəb olar. Buna görə ailədəki psixoloji iqlimə və xəstənin psixiki vəziyyətinə mütəxəssislər xüsusi diqqətlə yanaşırlar.

Qərb alimlərinin fikrincə, intimliyin müasir modeli ailə tərəflərinin bərabərliyinə əsaslanmalıdır. İntimliyin zəif bəndləri o vaxt üzülə bilər ki, bu bərabərlik pozulmuş olsun.

Elmi araşdırmalara görə seksuallıq məsələsində özünün seksual imkanlarına inamın çox böyük rolu var. Bu hətta uzun müddət bəzi, çox güclü endokrin çatışmazlığının da öhdəsindən gəlib, normal cinsi əlaqəyə şərait yaradar. Əskinə, çox vaxt cinsiyyət sisteminin normal vəziyyətində belə heç bir əsası olmayan qorxu, şübhə, inamsızlıq seksual uğursuzluğa səbəb olur. Bununla əlaqədar, ər-arvadın (xü-

susilə qadının) cinsi əlaqə məsələsində özünü necə aparması, seksual pozğunluğun yaranmasında və ya belə pozğunluğun aradan qaldırılmasında çox böyük rol oynayır.

Belə güman etmək olar ki, seksual pozğunluqlar, cinsi əlaqə uyğunsuzluqları, bir-birinə həqiqi qayğıkeşlik, dərin məhəbbət hissləri olmayan ailələrdə olur (53: 79-80). Ailədə seksual uyğunsuzluq nə qədər çox davam edərsə, o qədər də hər bir kiçik hadisədən inciklik, kobud münasibət, əsəbilik halları meydana çıxar. Yaranmış vəziyyət üçün bütün məsuliyyət həmişə tərəflərdən birinin üzərinə atılır. Cinsi münasibətdə nadanlıq, ümumi mədəniyyətin olmaması, xeyir görmək məqsədilə evlənmə, hisslərin soyuması, nikahdankənar cinsi əlaqələr mənfi təsirə malikdir.

Ailədə qarşılıqlı məhəbbət və qarşılıqlı hörmət fəal bəşəri qüvvə kimi özünü göstərir. Məhəbbətin fəal xarakteri qayğıkeşlik, məsuliyyət, hörmət kimi dəyərli duyğular doğurur. Məhəbbət sevilənlərin həyatı və yüksəlişi haqqında fəal qayğıdır. Qayğı və narahatlıq məhəbbətin digər aspekti olan məsuliyyəti doğurur. Sevən şəxs məsul olmalıdır. Məhəbbətin digər komponenti hörmətdir. Hörmət sevdiyin şəxsi qeyri-adi, nadir, fərdi şəxs kimi görməkdir. İnsanı hərtərəfli, dərindən tanımadan ona hörmət etmək qeyri-mümkündür.

Ailədə məhəbbət valideynlər arasında, valideynlər və uşaqlar, bacılar və qardaşlar arasında məhəbbət formasında təzahür edir. A.Fromm valideyn məhəbbətinin aşağıdakı təzahür formalarını göstərir: valideynin övladı ilə daima fiziki ünsiyyəti olması, onun arzularına hörmət etməsi, öz məhəbbətini daim təzahür etməsi (105 : 243-249).

Bencamin Spok ailədə mənəvi tərbiyədə atanın xüsusi rol oynadığını qeyd edir. Onun fikrincə ata övladlarını ni-

zam-intizama riayət etməyə alışdırır. O, valideynlərin övladlarla mehriban yoldaşlıq münasibəti bəsləməsinə üstünlük verir: "Həqiqi dostluq münasibətləri bütün ailə üzvlərinin bir-birlərinə qarşılıqlı hörmət bəsləmələrinə əsaslanır" (165: 493).

Məşhur rus pedaqoqu V.A.Suxomlinski ailədə mənəvi-əxlaqi dəyərlərin tərbiyə edilməsinə və cinsi tərbiyəyə yüksək qiymət verərək göstərirdi ki, əsl vətəndaş, yüksək ideallar uğrunda mətin mübariz yalnız o adam olur ki, o, uşaqlıq və yeniyetməlik illərində insaniyyətin yüksək sənətinə yiyələnir, öz valideynlərinin sadiq oğlu, sadiq qızı olmağı öyrənir. Sədaqət dinməz-söyləməz itaətkarlıq deyil, ailədə nəcibləşdirici qarşılıqlı münasibət, ana-ata üçün sevinc yaratmaqdır.

İsmətli olmaq - təmiz, nəcib məhəbbətin əxlaqi ilkin şərtidir. O, oğlanla qız, kişi ilə qadın arasında münasibətlərdə nəcibliyə üstünlük verərək bildirir ki, nəciblik "dərin köklərlə insan ləyaqətindən, şərəfdən, insanlara və özünə olan hörmətdən, pisliyə, çirkinliyə, insan ləyaqətinin alçadılmasına qarşı barışmazlıqdan qidalanır".

V.A.Suxomlinski ailənin mənəvi tərbiyəsində ataya nisbətən ananın daha çox məsuliyyət daşıdığını xüsusi nəzərə çatdırır və qeyd edir ki, bəşəri analıq, bu təkcə nəslin saxlanması haqqında qayğı deyil, bu min illər ərzində yaranmış çox böyük əxlaqi zənginlikdir. O, qüdrətli mənəvi qüvvə olub oğlanda ər və ata tərbiyə edir. Təbiət və cəmiyyət ana üzərinə yüksək vəzifə, uşaqlarda özünü və sevdiyi adamı təkrar etmək, bəşəriyyətin yaratdığı yaxşı nə varsa, onu uşaqlara vermək vəzifəsi qoymuşdur. Qadın kişidən müdrikdir. İnsan nəslinin davam etdirilməsi, bəşəriyyətin mənə-

vi zənginliklərinin saxlanılması və artırılması işində təbiət onun üzərinə kişiyə nisbətən müqayisəyəgəlməz dərəcədə böyük məsuliyyət qoymuşdur (149: 56).

Tədqiqatçılar ailə üzvlərinin qohumluq münasibətlərindən başqa mənəvi, əxlaqi münasibətlərin də əsas amil olduğunu, ailənin quruluşunun onun üzvləri arasında mənəvi, əxlaqi, nüfuz və hakimiyyət və s. münasibətlərin cəmindən ibarət olduğunu göstərirlər. Bildirilir ki, ailədə arvadın kişiyə, uşaqların valideynlərə münasibəti ailə üzvlərinin vəzifə rolları ənənəyə görə deyil, şəxsi keyfiyyətlərə və bacarıqlara görə bölünür. Ailə tərbiyəsində, uşaqların tərbiyəsində məcburiyyət deyil, könüllülük, şüurluluq əsas götürülür. Ailənin qarşılıqlı münasibətlərinə, ailə üzvlərinin bir-birinə qarşı davranış normalarının kompleksi ənənəvi və müasir ailələrdə özünəməxsus xüsusiyyətləri ilə xarakterizə olunur. Belə ki, qadının təkcə uşaq doğub tərbiyə verdiyi, ev işləri ilə məşğul olduğu, kişinin isə birmənalı şəkildə ailə rəhbəri olub mülkiyyət təminatçılığı dövrü artıq keçmişdə qalmışdır. İndi qadınların əksəriyyəti istehsalatda, ailənin iqtisadi təminatında kişilərlə birgə iştirak edir.

N.Salmanovanın fikrincə ailəyə təsir edən üç cür: 1) əhalinin artımı ilə əlaqədar olan proses; 2) ailədə baş verən maddi və mənəvi dəyərləri təmsil edən proses; 3) ailədən kənarda baş verən proseslər mövcuddur. Müəllif birinci qrupa uşağın doğulması, ailə həyat tərzinin statistik cəhətdən dəyişməsi ilə əlaqədar olan prosesləri, ikinci qrupa – ailənin daxilində baş verən prosesləri, yəni uşaqların fiziki və mənəvi tərbiyəsini, işdənkənar vaxtın düzgün təşkilini, üçüncü qrupa isə ailənin sosial təsisatına təsir edən və insanların ictimai fəaliyyəti ilə əlaqədar olan prosesləri daxil edir. Müəllif

qeyd edir ki, cəmiyyətin inkişaf və dəyərlərin yeniləşməsi, burada baş verən sosial, iqtisadi, demoqrafik, mənəvi, siyasi hadisələr və proseslər ailənin strukturuna, ailə üzvlərinin qarşılıqlı münasibətlərinə, ailənin davamlılığına birbaşa təsir göstərir (144: 94-95).

Əsrlər boyu Azərbaycanda formalaşmış milli mentalitet, azərbaycanlı ailə üzvlərinin mənsub olduğu millətə tarixən və müasir dövr üçün xas olan dünyagörüş, ona uyğun əxlaq və davranış prinsipləri bütün dövrlərdə ailələrimizin mənəvi təməlini qoruyub saxlamış və bu günə çatdırmışdır.

N.Salmanova ailənin funksiyaları arasında mənəvi tərbiyə funksiyasına xüsusi diqqət yetirir: 1) cəmiyyətdə insan nəslinin davam etdirilməsi və onun inkişaf etdirilməsinin təmin edilməsi, uşaqların doğulması, sağlam olması və tərbiyə edilməsi; 2) ailə quran tərəflərə (ər-arvad) və ailə üzvlərinə əvəzedilməz xoşbəxtlik bəxş etməsi; 3) ailə təsərrüfatının yaradılması nəticəsində ailə üzvlərinin maddi və mənəvi tələbatının ödənilməsi; 4) təbii əmək bölgüsünə (cinsə, yaşa və fiziki sağlamlığa, qüvvəyə, bacarığa və s.) görə ailə üzlərinin ictimai-hərəkət və münasibətinin, davranış və fəaliyyətinin müstəqil və şüurlu tənzim etməsinə nail olmaq (145: 13).

Məhz bütün funksiyaların, o cümlədən mənəvi tərbiyə funksiyası nəticəsində Azərbaycan ailəsinin tarixən formalaşmış strukturunu, mürəkkəb sosial sistem və milli dəyərlərini, adət və ənənələrini qoruyub saxlamaq mümkün olmuşdur.

Keçid dövründə stabil, möhkəm, mənəvi birliyə malik ailələrin yaradılmasına dəstək, hökumət və dövlətimiz qarşısında aktual milli vəzifə kimi durur. Bu zaman müa-

sir dövr üçün səciyyəvi olan yeni-yeni problemlər meydana çıxır ki, bunlar ailənin mənəvi tərbiyəsinə təsir edən amillərdəndir: 1) yeni ailənin təməlinin iqtisadi stabilliyi; 2) yeni evlənənlərin maddi baxımdan öz valdieynlərindən asılılığı şəraitində psixoloji cəhətdən mövcud vəziyyətə uyğunlaşması; 3) yeni ailənin maddi və mənəvi çətinliklər şəraitində nəsil artımı problemi (61: 72-73).

Azərbaycanda müasir qloballaşma və keçmiş milli mənəvi dəyərlərin dirçəldilməsi şəraitində müasir milli mentalitetin ziddiyyətli cəhətləri üzə çıxır. Azərbaycan ailələrində keçmiş milli-mənəvi dəyərlərə, ənənəvi Şərq dəyərlərinə və Qərb mənəvi dəyərlərinə münasibətdə təbəqələşmə yaranır. Bəzi ailələr isə Şərq və Qərb dəyərləri arasında tərəddüd edir. Qərbə meyli təmin edən amil kimi Azərbaycan dövlətinin dünyəviliyi, onun Konstitusiyasının demokratiyaya əsaslanması və ölkənin kişilərlə bərabər qadınların da hüquq və azadlıqlarını qoruyan beynəlxalq konvensiyalara qoşulması göstərilir.

Yuxarıda qeyd etdiyimiz kimi ailədə mənəvi tərbiyənin tərkib hissələrindən biri cinsi tərbiyədir. Cinsi tərbiyənin məqsəd və vəzifələri tamamilə cəmiyyətin maraqları ilə müəyyən edilir. Düzgün cinsi tərbiyə ailədə harmonik ər-arvad münasibətləri, yüksək mənəvi sağlamlıq üçün olduqca zəruridir.

Rus tədqiqatçısı D.V.Kolesov cinsi tərbiyənin əsas vəzifələrini aşağıdakı kimi müəyyənləşdirmişdir: 1) belə bir inam tərbiyə olunmalıdır ki, digər cinsdən olan nümayəndələrlə ən intim münasibətlər sahəsində də insan cəmiyyətdən asılı olmur, insanda uşağa, yeniyetməyə, gənclərə öz davranışına görə sosial məsuliyyət hissi tərbiyə edilir;

2) möhkəm, sağlam, mehriban ailəyə malik olmağa cəhdin, bir neçə uşağa malik olmaq tələbatının, onların tərbiyəsinə şüurlu münasibət bəsləməyə qabil olmağın tərbiyə edilməsi; 3) digər insanlara hörmət hissinin tərbiyə edilməsi, müəyyən cinsdən olan insanların spesifik xüsusiyyətləri və maraqlarına hörmət edilməsi; 4) öz davranışlarını müəyyən cinsin nümayəndələrinə münasibətdə qiymətləndirməyə cəhd və qabiliyyəti tərbiyə etmək; 5) öz sağlamlığına və digər cinsin sağlamlığına məsuliyyətli münasibətin tərbiyə edilməsi, vaxtsız cinsi əlaqəyə və məsuliyyətsizliyə yol verilməməsi; 6) kişi və qadın qarşılıqlı münasibətlərində mənfi, istehlakçı, eqoist münasibətlərin aradan qaldırılması; 7) yetkinliyin düzgün anlaşılmasının tərbiyə edilməsi.

D.V.Kolesov cinsi tərbiyənin məzmununun onun məqsəd və vəzifələri ilə müəyyən edildiyini, buna uyğun olaraq cinsi tərbiyənin əsas aspektlərini təşkil edən müəyyən məsələləri qeyd etmişdir:

- uşağın cinsi mənsubiyyəti və onun özü və cəmiyyət üçün əhəmiyyəti ilə əlaqəli məsələlər;
- ailə və ailədaxili münasibət məsələləri, onların uşaq, doğmaları və bütün cəmiyyət üçün əhəmiyyəti;
- uşağın dünyaya gəlməsi və nəsillərin varisliyi məsələsi;
- cinsi əxlaq məsələsi;
- cinsi gigiyena məsələsi (202: 98-99).

Cinsi tərbiyədə məktəb, ailə və cəmiyyətin səyləri birləşdirilməlidir. Cinsi tərbiyə mənəvi tərbiyənin ümumi sistemindən ayrı olmamalıdır. Cinsi tərbiyə həyata keçi-

rilərkən uşaqların yaş, cinsi-fərdi xüsusiyyətləri, xeyirxahlıq, anlaşıqlıq, hörmət və tələbkarlıq əsasında nəzərə alınmalıdır.

Müasir dövrdə gənclərin cinsi tərbiyəsinə zərurət artıb. ABŞ tədqiqatçıları bu gün gənclərin kütləvi şəkildə QİÇS xəstəliyinə düçar olmalarının, dünyanı epidemiya kimi bürümüş azyaşlıların hamiləliyinin səbəbini cinsi tərbiyəsinin çatışmamasında görürlər. Cinsi tərbiyə ilk növbədə ailədən-evdən başlamalıdır.

Cinsi və əxlaqi tərbiyə vəhdət təşkil edir. Əgər valideyn-övlad ünsiyyəti olmasa, uşaq öz valideynlərindən cinsi və əxlaqi mövzuda təlimatlar almasa, bu onların vaxtından əvvəl cinsi fəaliyyətə başlamalarına səbəb ola bilər.

Amerika tədqiqatçısı C.Cordonun fikrincə bu işi düzgün quran valideynlərin uşaqları daha sağlam seksual fəaliyyətdə olur, seksual məsuliyyəti daha yaxşı dərk edirlər. Bu işi etməyən valideynlərin uşaqları isə daha çox əziyyət çəkirlər.

Amerikada "Sadəcə yox de" proqramları mövcuddur ki, bu proqramda yeniyetmələrə seksdən vaz keçməyin yollarını öyrədilir.

## 3.2. Ailədə zorakılıq problemi

Bəşəriyyət tarixində zorakılıq müxtəlif şəkillərdə təzahür etmişdir. Zorakılıq qlobal və cəmiyyət miqyasında, habelə fərdi formada, ailədə də baş verə bilər.

Marianne Vinters 1998-ci ildə nəşr etdirdiyi "Özümüz haqqında əsas məsələlər" kitabında bütün dünyada zorakılığın mövcud olduğunu və bunun hər yerdə bu və ya digər

şəkildə gizlədildiyini belə qeyd edir:

* FBİ-nin məlumatına görə 1990-cı ildə Amerikada - 102.555 qadın zorlama qurbanı olub;

* təxminən 50% qadın və uşaq öz evlərində zorakılığa məruz qaldıqlarına görə küçədə qalmağa məcbur olub;

* dövlətdən humanitar yardım alan qadınların 2/3-si öz yaxın partnyorları tərəfindən zorlanmışdır (379).

Vyana Bəyannaməsi və Proqram Aksiyası qadına qarşı zorakılığı insanlığa qarşı yönəldilmiş zorakılıq adlandırmışdır. O cümlədən, Pekin fəaliyyət Platforması qadınlara qarşı zorakılığı bərabərlik, inkişaf və sülh məqsədlərinə nail olma yolunda maneələrdən biri hesab edir.

Əksəriyyətinin əhalinin ən incə, həssas, kövrək hissəsini təşkil edən qadınlara qarşı törədilən zorakılıq əslində, qadın və kişilər arasında tarixən yaranmış ədalətsiz münasibətin təzahürüdür. Qadın şəxsiyyətinə mənəvi, fiziki, seksual, fərdi və cəmiyyət tərəfindən edilən hər cür zorakılıq formaları qeyri-bəşəri, vəhşi hərəkətlər kimi pislənmişdir.

XX əsrin sonu XXI əsrin əvvəllərində dünyada baş verən təlatümlü hadisələr insanların psixi vəziyyətinə, əsəblərinə, iradələrinə mənfi təsir göstərərək onlarda dözümsüzlüyün, nevrozun yaranmasına səbəb olur ki, bu da nəticədə sakitlikdən əsəbi şəraitə, mülayimlikdən aqressiv davranışlara gətirib çıxarır.

Ümumiyyətlə, elmi ədəbiyyatda qadınlara qarşı zorakılıq aşağıdakı kimi qruplaşdırılır: fiziki zorakılıq, iqtisadi zorakılıq, seksual zorakılıq, psixoloji zorakılıq və cinsi zorakılıq.

BMT-nin 1993-cü ildə qəbul etdiyi "Qadınlara qarşı hər cür zorakılığın aradan qaldırılması"na dair Bəyannamə-

də (CEDAW), "qadınlara qarşı zorakılıq" anlayışını cinsi əlamət əsasında törədilib, qadınlara fiziki, psixoloji, cinsi zərər yetirən və əzab verən istənilən zorakılıq aktı, eləcə də belə hərəkətlərin ediləcəyi ilə hədə-qorxu gəlmə, istər ictimai, istər şəxsi həyatda azadlıqdan özbaşına məhrumetmə, yaxud hər hansı bir işə məcburetməni əhatə edən əməllər kimi müəyyən edilmişdir.

Bəziləri dünyanın bütün ölkələrində qadın zorakılığının yeni doğulmuş qız uşaqlarının öldürülməsindən tutmuş ailədə zorakılığa və yaşlı qadınlara münasibətdə qəddar davranış hallarına qədər müxtəlif formaları olduğunu iddia edirlər.

Müasir dövrdə bütün zorakılıq növləri cəmiyyətdə və ailədə baş verməkdədir. Zorakılıq əməlləri bütün yaş qrupuna aid edilən qadınlara qarşı münasibətdə təzahür edir. Qadınlara qarşı uzun illər mövcud olan və heç vaxt kəskin tənqid edilməyən zorakılığın cəzasız qalması və kişilərin aqressivliyi, qadınların laqeyd və passivliyi, bəşər cəmiyyətində "təbii hal" kimi qəbul edilməsi ilə nəticələnmişdi. Bütün bunlar isə qadın zorakılığının dərinləşməsinə və genişlənməsinə səbəb olmuşdur. Rus tədqiqatçısı T.Sidorenko "ailə zorakılığı" anlayışının müasir anlamda tərifini belə vermişdir: ailə zorakılığı hüquqi kontekstdə bir şəxsin onunla əlaqədə olan digər şəxslə münasibətdə anormal və qəddar davranışı deməkdir (169: 13).

Betti A.Reardon zorakılığı digərlərinin hüquqlarına, yaxud da ehtiyaclarına məhəl qoymadan ayrı-ayrı şəxslər, yaxud fərdlər tərəfindən cəhd edilmiş məqsəd və məramlar fonunda vurulan niyyətli və qaçılası mümkün olan bir zərər kimi səciyyələndirir. Burada zorakılıq geniş mənada götürülür və qadın zorakılığı onun tərkib hissəsi kimi göstərilir.

Pekin Bəyannaməsinin 113-cü bəndində qadın zorakılığı belə səciyyələnmişdir: "Qadınlara qarşı zorakılıq termini qadının fiziki, cinsi və psixoloji sağlamlığına ziyan, əzab-əziyyət gətirən cinsi əlamət əsasında hər cür zorakılıq aktı deməkdir".

Tarixən formalaşmış milli mentalitetə görə Azərbaycanda qadına xüsusi hörmət bəslənilmiş, o, ailənin namusu hesab olunmuşdur. Lakin bununla yanaşı qadınlara qarşı cəmiyyətdə və ailədə müxtəlif zorakılıq halları tətbiq edilmiş və edilməkdədir.

Sosializm mərhələsindən keçmiş Azərbaycanda da rəsmi surətdə qadın-kişi bərabərliyi elan edilsə də, qadına qarşı cəmiyyətdə və ailədə baş verən zorakılıqlar əslində, ictimaiyyətdən gizlədilmiş, totalitar rejimin hökmranlığı dövründə bu problem ört-basdır edilmişdir.

Sosializmdən kapitalizmə müasir keçid dövrü qadınlara qarşı zorakılığa şərait yaradan bir çox problemlərin: yoxsulluğun, işsizliyin, sosial bərabərsizliyin meydana gəlməsinə, gərginlik və məhrumiyyətlərin artmasına səbəb olmuşdur. Narkomaniya və fahişəlik, qadın alveri, əxlaqi tənəzzül ailənin mənəvi dayaqlarını sarsıdan dəhşətli amillərdir.

Azərbaycanda keçirilən sosioloji sorğular təzahür edən zorakılığın müxtəlif formalarını aşkarladı: müharibə zonasında baş verən kütləvi zorakılıq; ailə-məişət zəminində törədilən zorakılıq; iş yerində zorakılıq, fiziki-mənəvi və cinsi-mənəvi zorakılıqlar. Ailədaxili problem olan zorakılıq çox nadir hallarda aşkarlanır. Ailədə kişi (ata, qardaş, ər, oğul, qayınata, qayın) tərəfindən fiziki zorakılığın səviyyəsi 26,1 % təşkil edir. Qadınlar ən çox mənəvi zorakılığa məruz qalırlar - 61, 3 % (5: 63).

Ailədaxili zorakılıq qapalı ailə sirri kimi ictimaiyyətdən gizlədilir. Ailə zorakılığına qarşı çıxan, öz ləyaqət və şərəfinin müdafiəsinə qalxan qadınlar “ədəbsiz”, “həyasız” hesab edilir. Zorakılığa dözümlülük qadının “yüksək mənəvi dəyəri” kimi qiymətləndirilir.

Ailə zorakılığına gətirib çıxaran ailə münaqişələrinin bir çox səbəbləri vardır. Rus tədqiqatçısı A.İ.Koçetov bunlardan yeddisini göstərir: 1) ər-arvad münasibətlərinin etikasının pozulması (xəyanət, qısqanclıq); 2) bioloji uyğunsuzluq; 3) ər və ya arvadın ətrafdakı insanlarla münasibətinin düzgün qurulmaması; 4) maraq və tələbatların uyğunsuzluğu; 5) uşağa münasibətdə pedaqoji mövqelərin müxtəlifliyi; 6) ər və ya arvadda mənfi keyfiyyətlərin olması; 7) valideyn və uşaqlar arasında qarşılıqlı anlaşmanın olmaması.

Azərbaycanlı tədqiqatçı alim R.Məmmədzadə ailə zorakılığında ərlə arvad arasındakı konfliktin əsas rol oynadığını və onun səbəblərini göstərir: 1) ərlə arvadın seksual-psixi uyğunsuzluğu; 2) bir-birinin mənlik hisslərinə hörmətsizlik; 3) müsbət emosiyalara olan tələbatın ödənilməməsi: diqqət, empatiya, yumşaq münasibət və s.; 4) ər və ya arvadın öz tələbatlarının ödənilməsinə daha çox tələbkar olması; 5) ailə təsərrüfatı, uşaqların tərbiyəsi və s. münasibətlərdə anlaşılmazlıq (117: 51).

Kişi ailədə qadının “ləyaqətsiz” əməlinə görə özünü hakim, hətta cəllad kimi apararaq ölümlə nəticələnən zorakılığa əl atır. Öz ərinin həddini aşan zorakılığına, əxlaqsızlığına göz yuman qadınlar daha “ləyaqətli” hesab edilir.

Möhkəm tarixi kökləri olan ailə-məişət zorakılığına qarşı “keçmiş adət-ənənələrin bərpası” kimi yanaşılmasını

və qadınların bir hissəsinin də bunu qəbul etməsini cəmiyyətdə mənəvi inkişafa zərbə kimi qiymətləndirmək olar.

E.Süleymanovanın rəhbərliyi altında iş yerlərində, cəmiyyətdə və ailədə qadının zorakılığa və ədalətsizliyə məruz qaldığını aşkarlamaq üçün 1500 ailədə sorğu keçirilmişdir. Sorğuda iştirak edən qadınların yarısından çoxu evdə fiziki təzyiq, kobud rəftar, təhqir, şəxsiyyətlərinin, ləyaqətlərinin alçaldılması ilə üzləşdiyini söyləmişlər. E.Süleymanova bu sahədə qadına qarşı fiziki, psixoloji, seksual zorakılığı aradan qaldırmaq üçün bir çox ölkələrdə olduğu kimi respublikamızda da ailədə və cəmiyyətdə qadın hüquqlarını müdafiə edən gender bərabərliyinə yönəlmiş qətnamə və qanunlar qəbul olunmasını təklif etmişdir.

E.Süleymanova əksər hallarda ailələrdə qadınların maddi, mənəvi, psixoloji baxımdan zorakılığa məruz qaldığını, bununla yanaşı, bəzi ailələrdə kişilərin də belə təzyiqlərə məruz qaldıqlarını qeyd edir, belə hallarda qadınların ədalətli və təmkinli olmalarını tövsiyə edir (33: 103-104). Cəmiyyətdə qadınlara qarşı yüzlərlə cinayət törədilir: zorlama, sui-qəsd cəhdi, cana qəsd, qəsdən öldürmə, sağlamlığa ağır zərbə vurma və s. hallar qeydə alınmışdır.

Çox təəssüf ki, yoxsulluq ucbatından miqrantlıq həyatına məhkum olan bəzi Azərbaycan qadınları xarici ölkələrdə fahişəliyə, narkotik maddələr yaydığına görə həbs olunmuş, bəziləri yoluxucu xəstəliklər yaydıqlarına görə xəstəxanalara göndərilmişdir. Cəmiyyətin mənəvi inkişafına əngəl törədən problemlərdən biri fahişəlik, əxlaqsızlıqdır. Fahişəlik qanunla təqib edilməsə də, bardellər saxlamaq, qız və qadınları müəyyən vasitələrlə ələ alıb, cinsi istismarın təşkilində iştirak etmək cinayət hesab olunur və AR CM-

nin 299-cu maddəsi ilə cəzalandırılır. Azyaşıları fahişəliyə cəlb etmə CM-nin 215-ci, 16 yaşınadək şəxslə cinsi əlaqədə olma 111-ci maddələrlə cəzalandırılır. 2 və ya daha çox arvad saxlamaq CM-nin 130-cu, qadını zorla qaçırma 129-cu, qorxutma və zorla məcburi nikaha sövq etmə 128-ci maddələrlə tənzim olunur.

1996-cı ilin mayında Azərbaycan da "İnsanlarla ticarət və üçüncü şəxslər tərəfindən fahişəliyin istismarına qarşı mübarizə haqqında" konvensiyaya qoşulmuşdur. Qadına qarşı zorakılıq, fiziki təzyiq onun psixikasına və əxlaqi-mənəvi simasına, dünyagörüşünə zərbə vurur, onu mənəvi və fiziki cəhətdən şikəst edir.

Zorakılığın hər bir forması bütün qadınların seçim qabiliyyətini məhdudlaşdırır və onlar üçün təhlükə yaradır. Seksual akt ləzzət və ünsiyyətin adi və düzgün mənbəyi olduğu üçün xüsusilə çox məkrlidir. Zorakılığın qurbanı olan qadına və hətta bütün cəmiyyətə bir şey aydın deyil ki, seksual zorlama zorakılıqdanmı, yoxsa seksual istəkdənmi irəli gəlir? Bu motivlərin fərqli olub-olmaması da bəlli deyil, çünki zorlamanın özü seksual və ya erotik görünə bilir.

Son dövrlərdə artıq beynəlxalq miqyasda qadınlar zorakılığa qarşı mübarizə aparır, müxtəlif beynəlxalq təşkilatlarla birləşib dünyanın ən inkişaf etmiş ölkələrində belə gizli saxlanan zorakılıq formalarının aşkar edilməsi, dövlət səviyyəsində və beynəlxalq miqyasda bu problemin həlli istiqamətində irəliləyişlərə nail olurlar.

Kişinin qadına qarşı zorakılığı fərdi psixoloji durumdan, seksual sarsıntıdan, həyatın dözülməz təzyiqindən və digər səbəblərdən irəli gəlir. Tarixən yaranmış ənənəyə görə kişilər həmişə özlərini qadından üstün tutduqlarına, başçı,

idarə edən, nəzarətçi hesab etdiklərinə görə bu vəziyyəti daima öz əllərində saxlamaq üçün zorakılığa əl atırlar. Onların fikrincə, zorakılıq ciddi nəzarət etmə, münaqişələri həll etmə və qəzəbi ifadə etmə metodudur. Bəzi patriarxal xarakterli kişilər maskulinliyin sübutu kimi zorakı vasitələrdən istifadə edirlər.

Rəhbər işçi tabeliyində olan qadını seksual məqsədlə ələ ala bilməyəndə, ilk növbədə onu işdə sıxışdırmaqla və çox işləməyə məcbur etməklə qəzəbini soyudur. Ailədə ər öz arvadı ilə dava edib onu döyəndə evdə oturmaqla cəzalandırır, dostlarını görməkdən, evdən xaric həyatdan təcrid edir.

Kişi qadına qarşı zorakılıq törədəndə bu, onun "gücünün" ifadəsi kimi qiymətləndirilir. Fakt odur ki, ayrı-ayrı fərd halında kişi öz sarsıntı və ya qəzəbini zorakılıqla büruzə verərkən qadınlar da çox vaxt bunu onların üstünlüyü kimi qəbul edirlər.

Həyatda saysız-hesabsız zorakılıq aktları elə qorxu və gücsüzlük mühiti yaradır ki, bu, qadının azadlıq aksiyasını məhdudlaşdırır və onların fəaliyyət dairəsinə nəzarət edir. Kişi zorakılığı hələ də qadınları ənənəvi rolları xaricində addım atmağa qoymur və onların canında, bu, qorxu-xof olaraq qalır. Zorakılıq və zorakılıq xofu qadınlara öz "yerlərini göstərir".

Tədqiqatçılar qeyd edirlər ki, "əldə olunan məlumatlar məişət zorakılığının üstünlük təşkil etdiyini göstərir. Bu da öz növbəsində ailədaxili münasibətlərdə gərginliyin göstəricisidir. Qorxu hissi, qadınların həyat perspektivlərinin məhdudlaşması bir tərəfdən, onların bərabərlik və inkişaf cəhdlərinin qarşısını alır, digər tərəfdən isə, davranışın neqativ sosial streotiplərini formalaşdıraraq uşaqların tərbiyəsi üçün normal şərait yaradılmasına mane olur" (96: 7).

Qadınların patriarxal cəmiyyətlərdə ən çox ziyan çəkdiyi yanaşma seksizmdir, çünki qadınlar ən çox mənsub olduğu genderə görə ayrı-seçkiliyə məruz qalırlar. Seksizm də elə zorakılığın bir növüdür. Seksizm müxtəlif səpgilərdə baş verir və bu ən çox ailə məişət zəminində qeydə alınmışdır. Qızlar anadan olduğu gündən (bəzən də cinsləri bəlli olduğu andan, ana bətnində) seksizmdən əziyyət çəkirlər. Bəzi insanlar düşünürlər ki, kişilər seksizmdən xeyir tapırlar, kişi üstünlüyü nəsə qazanır. Dərindən baxanda seksizm qadınlara nisbətən kişilərə daha çox ziyan vurur, çünki seksizm və qadın-qız əleyhinə zorakılıq kişilərin ziyanına işləyir. Adətən qadınlar onlara qarşı törədilən zorakılıq prosesində özlərini təqsirkar hesab edirlər. Onlara belə tərbiyə verilib ki, qadınların əsas işi kişiləri xoşbəxt etmək üçün əllərindən gələni etməkdir. Xüsusən, Şərq mühitində qınanılan həmişə kişilər yox, qadınlar olur.

Zorakılığa məruz qalanı qınamaq zorakılıq törədən kişiləri qınaqdan kənarda qoyur. Dostlar və ailə üzvləri zorakılığa məruz qalanları qınayırlar ki, özlərini təhlükəsiz hiss etsinlər. Zorakılığı törədən (çox vaxt kişi) zorakılıq qurbanından (çox vaxt qız-qadın) daha az qınanır. Zorakılığı törədən kişiyə bəraət qazandırmaqdan ötrü həm qadın, həm də kişilər saysız-hesabsız arqumentlər tapırlar.

Marianne Vinters zorakılığın bir forması kimi seksual təngəgətirməni göstərir. Onun fikrincə, seksual təngəgətirmə hər hansı bir qadının öz təcrübəsindən keçirdiyi xoşagəlməyən seksual diqqətdir. Buraya pis baxış, çimdikləmək, yersiz fiziki təmas (tumarlamaq), seksual təbiətli təkliflər və görüşə təhrik və s. daxildir. Qadından çox imkanlı və güclü olan kişi, hər hansı bir şəraitdə bunu törədə bilər: üst qatda-

kı məmur öz müştərisi ilə, həkim xəstəsi ilə, polis öz işçisi olan qadınla, müəllim tələbəsi ilə seksual təngəgətirməyə yol verə bilər. Bu kimi təngəgətirmələr, iş yerində seksual təngəgətirmə törədən şef, supervizor, müştəri və s. ola bilər.

M.Vintersin qeyd etdiyi kimi, aparılan tədqiqatlara görə qadınların 50 %-80 %-i ya təhsil zamanı, ya da iş vaxtı seksual təngəgətirmələrə məruz qalırlar. Buna etiraz edərkən, bir sıra çətinliklərlə üz-üzə gəlirlər. Ümumiyyətlə, seksual təngəgətirmə kişilərə qadınları nəzarət altında saxlamağa imkanlar açır. Çox vaxt seksual təngəgətirmək istəyi olan kişiyə etinasızlıq, rədd cavabı qadın-qızın öz işini tərk etməsi ilə nəticələnir.

Bəzi iş yerlərində, xüsusilə də məktəblərdə seksual təngəgətirmə halları ciddi nəzarətə alınmışdır. Belə narahatçılıq qadınların səhhətlərinə pis təsir edə bilər, baş ağrısı, sinirlənmə və s. törədə bilər. Bəzən qadınlar öz hərəkət və davranışlarında, danışıqlarında inamsız olurlar. Hər şeydə özünü qınamağa alışan qadınlar belə məsələlərdə də diqqətli olmağa çalışır, nəyə “hə”, nəyə “yox” deməyə tərəddüd edirlər.

M.Vinters seksual təngəgətirmənin müxtəlif formalarını göstərmişdir. O qadının seçdiyi strategiyanın bir çox faktorlardan asılı olduğunu bildirir və onlara müraciət edərək deyir: Sən nə dərəcədə işini itirməyə hazırsan, iş yoldaşların səni nə dərəcədə dəstəkləyə bilər, ailən səni nə dərəcədə müdafiə edə bilər və s. (329).

Betti A.Reardon zorakılıq və gender ədalətsizliyinin qarşılıqlı əlaqədə olduğunu qeyd etməklə zorakılığın 4 mühüm və başlıca qlobal problemlərini əhatə edən əsas formaları ilə qadın münasibətlərinin bəzi xüsusiyyətlərini açıqlayır. Bu qlobal problemlərə ətraf mühitin korlanmasını, aclıq

və zəif inkişaf etməni, insan haqlarının pozulması və sosial ədalətsizliyi, müharibə və müntəzəm olaraq baş verən fiziki zorakılığın müxtəlif formalarını aid edir.

Betti A.Reardon zorakılıqla bağlı söhbət açarkən göstərir ki, biz bu cür geniş miqyaslı vərdişləri aşılamaq üçün elə bir təhsil verməliyik ki, hər hansı bir toplumda zorakılığa əl atmaq zərurəti yaranmasın. Müəllif belə bir qənaətə gəlir ki, gənclərə, o cümlədən şagirdlərə, gender amilinin xüsusən iqtisadi sahənin təşkilində necə mühüm rol oynadığını öyrətmək çox əhəmiyyətlidir.

Soyqırım, işgəncə və irqi ayrı-seçkiliyi bəşəriyyətə qarşı ən böyük, qlobal zorakılıq hesab edən Betti A.Reardon bütün bu hallarda gender elementlərinin özünü büruzə verdiyini və qadınların insan haqlarının bir çox pozuntularının gender ruhlu seksual zəmində baş verdiyini göstərir: "Zorlama və işgəncələrin bəzi formaları bu gerçəkliyin bariz nümunələridir. Bioloji baxımdan bu, cinsi əlaqəyə qədər oxşar bir hal kimi götürülür ki, bu da düşmənçilik zəminində törədilmiş təcavüz aktı olmadan daha çox cinsi cinayət kimi nəzərdən keçirilmişdir" (40: 132).

Zorakılığın ən qəddar forması döyülmədir. Döyülmə əsasən ailə zorakılığı qismində olur və dünyada ən ümumi və az qeydiyyata düşən cinayətlərdən biridir. Bu, evlilik zamanı olur, oğul, bacı-qardaş, oğul tərəfindən, kişi qohumlar tərəfindən törədilə bilər. Onlar verbal-sözlə də, nəlayiq hərəkətlərlə də qadınları alçalda bilərlər. Bu, verbal və mənəvi təhqir formasında, birbaşa və ya implisit hədə kimi ola bilər.

Döyülmənin də çox formaları var. Döyməklə maliyyəyə və bir kəsin fiziki azadlığına nəzarət etmək olar. Bura

obyektlərin sındırılıb-dağılması, ev heyvanlarına ziyan vermək də daxil edilir. Döyülmə qəddarcasına, tez-tez, təsadüfdən-təsadüfə də ola bilər. Bura silləmək, yumruqlamaq, təpikləmək, əldən düşənə qədər döymək və obyektlərə zərbə endirmək formaları daxildir. Döymək ölümlə və ya zorlama ilə də bitə bilər. Döyülmə ilk görüş vaxtından başlayıb yaşlı vaxtlara qədər davam edə bilər. Vaxt keçdikcə döyülmələrin intensivliyi artır və forması qəddarlaşır.

Ailədə baş verən zorakılığa son qoymaq çox çətindir, çünki bunu törədənlər yad adamlar deyil, həyat yoldaşı kimi yaxın və intim münasibəti olan insanlardır, ovladlarının atalarıdır. Bu insanlara qadınlar güclü hisslərlə, loyallıqla bağlıdırlar. Qadınları evdə saxlayan təkcə onların kişilərdən asılı olmaları deyil, onlar ümid edirlər ki, bəlkə gələcəkdə zorakı əxlaq dəyişə bilər.

Döyülən ona görə evdə, ailədə qalmır ki, o döyülməkdən ləzzət alır. Döyülən qadınlar sadəcə düşünürlər ki, evdən getsələr uşaqlarını saxlaya bilməzlər. Bəzi ölkələrdə doyülməyə məruz qalanlar üçün sığınacaqlar (şelterlər) mövcuddur, amma qadınların çoxunun ya bundan xəbərləri yoxdur, ya da bu müvəqqəti şelterlərə getmək istəmirlər. Çətin vəziyyətə dözüb qalanlar isə mənəvi cəhətdən sarsılırlar və sarsıntıdan yaxa qurtara bilmirlər.

Ailə zorakılığının uşaqlara mənfi təsiri olur. Analarının təhqir olunub döyülmələrini görməyən, amma onların qiyyə çəkib ağlamaqlarını, onlara edilən hədə-qorxunu, yumruq zərbələrinin səsləri, lənətləmələri, nəlayiq söyüşləri eşidən uşaqlara bunlar çox pis təsir edir ki, bu da psixoloji zorakılığın ən ağır növüdür.

Ailə zorakılığı şəraitində böyüyən uşaqlar daha çox sarsılırlar. Döyülən valideynlərin uşaqları elə bil özləri

döyülürlər. Onlar daima qorxu altında yaşayır və mənəvi cəhətdən valideynlər arasında parçalanırlar. Onlar bu zorakılığın təsiri altında fiziki və mənəvi cəhətdən qəddar böyüyür, stress, psixoloji travma alırlar. Ailədəki zorakılıq onlarda qəddarlıq formalaşdırır. Onlar konfliktləri həll etməyin yeganə yolunu döyməkdə görürlər və uşaqlıqda gördükləri zorakılıq təcrübələrini böyüyərkən öz uşaqlarına tətbiq edirlər.

Döyülən qadınların əksəriyyəti uşaqlıqdan verbal təhqirin və döyülmənin şahidi olublar. Bəzi uşaqların özləri də analarını incidən kişilər tərəfindən fiziki və ya seksual təhqirə məruz qalırlar. Bunu görənlər, bu mühitdə böyüyən qızlar, böyüyəndə onları alçaldan hərəkətləri asanlıqla qəbul edirlər.

Elə kişilərin də əksəriyyəti zorakılığı erkən yaşlarından öyrənirlər. Onların çoxları ataları analarına fiziki və verbal güc tətbiq etdiklərinin şahidi olanlar və böyüyəndə kişi üstünlüyünü və fiziki cəzanı təbii qəbul edirlər. Necə deyərlər, döyülənin döymək, söyülənin söymək ehtimalı artır, çünki o bunu adi həyat norması kimi qəbul edir.

Bunları aradan qaldırmaq üçün müəyyən cəhdlər edilir. Məktəblərdə və uşaq tərbiyə ocaqlarında zorakılıq pislənir və konfliktin sivil şəkildə həlli yollarını onlara başa salınır. Yuxarı sinif uşaqlarına zorakılığa qarşı dözümsüzlük göstərmək təbliğ ediilr, bu barədə seminar və treyninqlər keçirilir. Qızlar üçün xüsusi proqramlar nəzərdə tutulur. Bütün bu cəhdlər ondan ötrü edilir ki, hamı bilsin ki, hər bir qızın, gənc qadının zorakılıqdan azad olmaq hüququ var. Oğlanlara qızlarla görüş vaxtı və digər intim əlaqələr zamanı zorakılığa yol verməmək üçün tövsiyə edilir, qızlara isə

zorakılığa məruz qalmamaq üçün məsləhətlər verilir, onlar üçün proqramlar tədris olunur.

Yaşlı nəslin qadınlarından da zorakılıq problemi yan keçmir. Yəni, kiçik nəslin qız nümayəndələri kimi yaşlı nəslin qadınları da zorakılığa az davamlıdırlar.

Yeniyetmə, az yaşlı uşaqların zorakılıqdan müdafiə proqramları nə qədər mühümdürsə, yaşlı qadınlar üçün bu o qədər zəruridir. Qocalar gündəlik qayğı ilə təmin olunmalıdırlar və çox zaman elə bu zərurətdən də verbal zorakılığa tez-tez məruz qalırlar. Onlar qocalar evinə atılmaq qorxusu ucbatından dözməyə üstünlük verirlər. Bu zorakılığı törədən həyat yoldaşıdırsa, onlar bu şəkildə uzun müddət bir yerdə yaşamağa vərdiş etdikləri üçün ayrılmaq istəmirlər və əlaqələrinə son qoymurlar. Əgər zorakılığı törədən onların böyük övladlarıdırsa onlar polis çağırmağı heç ağıllarına belə gətirmirlər və belə şəraitə dözürlər.

Qadın fəalları zorakılığa dözümlü qadınların müdafiəsini daha qabarıq şəkildə ön plana çəkirlər. Kiçik yaşlı uşaqların müdafiəsinə şamil olan qanunlar çox vaxt qismən formasını dəyişərək yaşlılara da tətbiq edilir. Bu qaydalar tətbiq edilərkən zorakılıq qurbanlarının özəlliyi və konfidensiallığı qorunmalıdır. Yaşlı qadınların da zorakılıqdan müdafiə üçün xüsusi maariflənmələrinə ehtiyac var və bunun yolları onlar üçün açıqlanmalıdır.

Bu gün döyülən qadınların çoxu zorakılıq törədən kişiləri tərk edirlər və yeni həyata başlayırlar. Əlbəttə insan təcavüzkarlığının müəyyən bioloji təməli var, lakin bu təcavüzkarlığın başlıca cəhətləri fərdi təcrübədə formalaşır. Bu o deməkdir ki, təcavüzkarlığa alışmaq mümkündür, o da mədəniyyət amilindən asılıdır.

İnsan təcavüzkarlığının mənəvi baxımdan qanuniləşmiş növü olan müharibə və hərbi münaqişələrdə, bir qayda olaraq, zorakılıqdan hərbi taktika kimi istifadə edilir və onun ən iyrənc formalarını nümayiş etdirilir. Zorakılıqdan dinc əhalinin məhvi kimi istifadə olunur, hələ lap qədimlərdən bunu ən çox yaşlılar, qadınlar və uşaqlar, o cümlədən də yetkinlik yaşına çatmamış qızlar hiss edirdilər.

Hərbi münaqişə zonalarında olan qadınlara qarşı törədilən zorakılıq aktları, o cümlədən sistematik zorlama, girov götürmə, cinsi əsarət və məcburi hamiləlik halları qadının bir insan kimi hüquqlarının pozulması, bir şəxsiyyət kimi ləyaqətinin tapdalanmasıdır. Hərbi münaqişə zonalarında yaşayan dinc əhali arasında kişilər də, qadınlar da, uşaqlar da girov ola bilərlər. Azərbaycan da belə ölkələrdəndir. Hərbi əsirlər və girovlar üzrə komissiyanın verdiyi son məlumata görə, hal-hazırda erməni tərəfində Azərbaycan vətəndaşı olan 335 qadın və 71 uşaq girov saxlanılır, lakin reallıqda bu rəqəm daha böyükdür. Təkcə Xocalıda dinc əhaliyə qarşı törədilən soyqrım buna ən bariz misaldır.

Onların axtarışına, müəyyənləşdirilməsinə və qaytarılmasına yönəldilmiş fəal işlərə baxmayaraq, bu sahədə çox az irəliləyiş əldə olunmuşdur. BMT-nin qadınların statusu üzrə Komissiyasının 39-cu sessiyasında Azərbaycanın təşəbbüsü ilə "Hərbi münaqişə zonalarında girov götürülmüş qadın və uşaqların azad edilməsi haqqında qətnamə"nin qəbul edilməsinə nail olunmuşdur. Bunun davamı olaraq, IV Ümumdünya Qadınlar Konfransının əsas sənədi olan Pekin Fəaliyyət Platformasında da Azərbaycanın təşəbbüsü ilə qadınların girov götürülməsi zorakılığın bir nöcü kimi qiymətləndirilərək 116-cı bənddə öz əksi-

ni tapmışdır. BMT-nin yuxarıda adı çəkilən qətnaməsinin müddəti dünya ictimaiyyəti tərəfindən dəstəklənərək 1996, 1997, 1998 və 1999-cu illərə qədər uzadıldı. Buna baxmayaraq, məsələ hələ də açıq qalır. Həmin məsələ 1998-ci ildə Bakı (may ayında) və Yalta (sentyabr ayında) şəhərlərində keçirilmiş İnsan hüquqlarının müdafiəsi ilə bağlı konfranslarda yenidən qaldırılmışdır. 1999-cu ilin iyun ayında isə məsələnin müzakirəsi ilə əlaqədar Azərbaycan nümayəndəsi Z.Salahova Cenevrə ofisində insan hüquqları üzrə Ali Komissarlığa dəvət olunmuşdur.

Hərbi münaqişələr zamanı qadınların hüquqları, müharibə vaxtı mülki əhalinin qorunması haqqında 1949-cu ilin Cenevrə Konvensiyası və ona əlavə olunmuş protokollarda təmin olunur. Həmin protokollarda deyilir ki, qadınlar onların namusunun tapdalanmasına və şəxsiyyətinin təhqir edilməsinə yönəlmiş hər cür təcavüzdən, o cümlədən zorlanmadan, fahişəliyə məcbur edilmədən, əxlaqlarına zidd digər fəaliyyət formalarından qorunmalıdırlar. Lakin son onlilliyin gerçəklikləri ölkələrin bir çoxunun beynəlxalq hüquq normalarına əməl etmədiklərini göstərir. Deyilənlər Azərbaycanda həyata keçirdikləri hərbi əməliyyatlar zamanı dinc əhaliyə qarşı bütün yolverilməz zorakılıq metodlarından istifadə edən təcavüzkar Ermənistana da aiddir.

BMT "Zorakiliqla mübarizə və sabit sülh quruculuğu üçün qadınların rolunun gücləndirilməsi üzrə əməkdaşlıq sistemi" adlı uzunmüddətli proqramın həyata keçirilməsinə kömək göstərəcəyinə razılıq verdi. Göstərilən əməkdaşlıq proqramının məqsədləri bunlardır: hərbi konfliktlərin qarşısının alınmasında və regionda sülhün bərqərar olunması prosesində qadınların rolunun möhkəmləndirilməsi, qadın-

lara qarşı zorakılığın qarşısının alınması və ləğv olunması üçün tədbirlərin hazırlanması, qadınların və o cümlədən qaçqınların və məcburi köçkünlərin hüquqlarının qorunması (5: 59-60).

Azərbaycanın görkəmli filosofu R.Əzimova hərbi konfliktləri beynəlxalq qadağan mexanizmi ilə aradan götürülə bilən zorakılıq forması kimi səciyyələndirərək aşağıdakıları tövsiyə edir:

1) qadınların öz siyasi liderləri qarşısında əsasında qonşulardan torpaq iddiası duran hərbi münaqişələrin ləğv olunması tələbi qoymağa mənəvi haqqları var;

2) qonşu əraziləri işğal etmək məqsədi ilə başlanan hərbi münaqişələr beynəlxalq birlik tərəfindən operativ dayandırılmalıdır;

